# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

## AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS

**ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY**

İl 11, Cild 11, iyul-sentyabr 2023
Year 11, Volume 11, July-September 2023

ISSN 2306-8426


### MÜNDƏRİCAT - CONTENT


*Azərbaycan ali təhsil sisteminin müasir iqtisadi vəziyyəti, onun bəzi xüsusiyyətləri və prioritetləri.................................................Əlövsət Əliyev, Aytən Ağayeva*

*Aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyasında paradiqma problemləri.......................................................................................Vaqif Quliyev*

*Некоторые проблемы и перспективы развития нейромаркетинга в Азербайджанской Республике.............Эльдар Гулиев, Гусейн Гашимов*

*Nərdivan metod –mühasibat uçotunun qədim metodu kimi..Elay Zeynallı*

*Universitet-sənaye əməkdaşlığının inkişaf istiqamətləri............................ ....................................................Əliağa Qasımov, Nətavan Bəymməmədli*

*Dünya təcrübəsində münaqişə sonrası iqtisadi bərpanın bəzi məsələləri..........................................................................Nazim Məmmədov*

*Ağıllı şəhər: konsepsiyadan reallığa doğru fəaliyyət təcrübəsinin təhlili və imkanlara baxış...........................................................Şirin Ramazanova*

*Ailə biznesləri: beynəlxalq təcrübə və məcmu sahibkarlıq fəaliyyətində onların payı.......................................................................Yusif Musayev*

*Azərbaycanda idarəetmə uçotunun mövcud problemləri və inkişaf perspektıvləri...................................................................Günay Əsədova*

*How to survive in a VUCA world................................ Zahra Rashidbayli*



www.unec.edu.az

| **Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)** | |
|---|---|
| **İl 11, Cild 11, iyul-sentyabr 2023** | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Nəşr edən təşkilat: | Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) |
| Baş redaktor: | i.e.d., prof. Ə.C.Muradov |
| Redaktor: | i.e.d., prof. Y.H.Həsənli |
| Məsul icraçı: | i.e.n., dos. N.Ö.Hacıyev |
| Jurnalın adı: | Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri |
| Jurnalın növü: | Dövri |
| Dövriliyi və dili: | Rüblük, azərbaycan, ingilis, rus |
| Hüquqi ünvanı: | AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı,Tel: (+994 12) 4927870,Fax: (+994 12) 4925940 |
| Mətbəə: | AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30, Tel:(+994 12) 4925337; Fax: (+994 12) 4926509 |
| Çap yeri və tarixi: | Bakı, Azərbaycan Respublikası, 26.10.2023 |





| **Redaksiya heyəti** | |
|---|---|
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.Q.Əlirzayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.P.Babayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. R.R.Quliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. H.S.Həsənov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Z.F.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. E.Y.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |

| **Beynəlxalq redaksiya heyəti** | |
|---|---|
| prof., Dr. Ismixan Bayramoğlu | İzmir İqtisadiyyat Universiteti,Türkiyə |
| dosent, Dr. Fəxri Həsənov | Kral Abdullah Neft Tədqiqatları və Araşdırma Mərkəzi, Səudiyyə Ərəbistanı |
| dosent, Dr. Elxan Riçard Sadiq-Zadə | Boxum Rur Universiteti, Almaniya |
| prof., Dr. Iqor Mantsurov | Statistik Tədqiqatlar Elmi-Tədqiqat İnstitutu, Ukrayna |
| prof. Dr. Rafayıl Qasımbəyli | Əskişəhər Texniki Universiteti, Türkiyə |
| prof. Dr. Qorxmaz İmanov | İdarəetmə Sistemləri İnstitutu, Azərbaycan |
| Dr. Fateh Belaid | Kral Abdullah Neft Tədqiqatları və Araşdırma Mərkəzi, Səudiyyə Ərəbistanı |
| Dr. Andrea Gatto | Kean Universiteti, ABŞ |
| dosent, Dr. Halima Begum | Utara Universiteti, Malayziya |
| dosent, Dr. S. M. Ferdous Azam | Malayziya İdarəetmə və Elm Universiteti, Malayziya |
| prof., Dr. Şərif E. Hüseynov | Liepaja Universiteti, Latviya |
| prof., Dr. Adil Bağırov | Avstraliya Federasiya Universiteti, Avstraliya |




Bu jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunmasını tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır.

This journal is in the list of scientific periodicals of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan in which the publication of main results of theses is recommended.

Этот журнал находится в списке научных периодических изданий, рекомендованных Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики для публикации основных результатов диссертаций.

| *Mündəricat/Contents* | *Səh./Pp.* |
|---|---|
| *Azərbaycan ali təhsil sisteminin müasir iqtisadi vəziyyəti, onun bəzi xüsusiyyətləri və prioritetləri......................Əlövsət Əliyev, Aytən Ağayeva* | *5 - 16* |
| *Aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyasında paradiqma problemləri........................................................................... Vaqif Quliyev* | *17 - 34* |
| *Некоторые проблемы и перспективы развития нейромаркетинга в Азербайджанской Республике.............Эльдар Гулиев, Гусейн Гашимов* | *35 - 48* |
| *Nərdivan metodu – mühasibat uçotunun qədim metodu kimi..Elay Zeynallı* | *49 - 61* |
| *Universitet-sənaye əməkdaşlığının inkişaf istiqamətləri........................... ....................................................Əliağa Qasımov, Nətavan Bəymməmədli* | *62 - 76* |
| *Dünya təcrübəsində münaqişə sonrası iqtisadi bərpanın bəzi məsələləri...................................................................... Nazim Məmmədov* | *77 - 83* |
| *Ağıllı şəhər: konsepsiyadan reallığa doğru fəaliyyət təcrübəsinin təhlili və imkanlara baxış............................................................Şirin Ramazanova* | *84 - 95* |
| *Ailə biznesləri: beynəlxalq təcrübə və məcmu sahibkarlıq fəaliyyətində onların payı..........................................................................Yusif Musayev* | *96 -108* |
| *Azərbaycanda idarəetmə uçotunun mövcud problemləri və inkişaf perspektıvləri...................................... ............................. Günay Əsədova* | *109 - 117* |
| *How to survive in a VUCA world................................ Zahra Rashidbayli* | *118 - 127* |

| Scientific, Refereed, Quarterly | |
|---|---|
| Azerbaijan State University of Economics (UNEC) | |
| Year 11, Volume 11, July-September 2022 | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Publisher: | Azerbaijan State University of Economics (UNEC) |
| Editor-in-chief: | prof., Dr. A. J. Muradov |
| Deputy editor-in-chief: | prof., Dr. Y. H. Hasanli |
| Managing Editor: | associate prof., PhD., N. O. Hajiyev |
| Title Juornal: | Scientific reviews of Azerbaijan State University of Economics |
| Type of Journal: | Periodical |
| Time Period and Language: | Quarterly, Azerbaijani, English, Russian |
| Directorial Address: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 424, Tel:(+994 12) 4927870, Fax: (+994) 4 92 59 40 |
| Printing House: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 30, Tel:(+994 12) 4 92 53 37, Fax: (+994 12) 4 92 65 09 |
| Place and Date of Print: | Baku, Azerbaijan Republic, 26.10.2023 |



| **Editorial Board** | |
|---|---|
| Prof. Dr. S. M. Yagubov | Azerbaijan State University of Economics |
| Prof. Dr. A. Sh. Shakaraliyev | Azerbaijan State University of Economics |
| Prof. Dr. A. G. Alirzayev | Azerbaijan State University of Economics |
| Prof. Dr. G. N. Manafov | Azerbaijan State University of Economics |
| Prof., Dr. A. P. Babayev | Azerbaijan State University of Economics |
| Prof., Dr. R. R. Guliyev | Azerbaijan State University of Economics |
| Prof., Dr. M. A. Ahmadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. S. M. Sabzaliyev | Azerbaijan State University of Economics |
| Prof., Dr. F. P. Rahmanov | Azerbaijan State University of Economics |
| Prof., Dr. H. S. Hasanov | Azerbaijan State University of Economics |
| Prof., Dr. Z. F. Mammadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. E. Y. Mammadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. Y. A. Kalbiyev | Azerbaijan State University of Economics |

| **International Editorial Board** | |
|---|---|
| Prof., Dr. Ismihan Bayramoğlu | Izmir University of Economics, Turkey |
| Assoc. prof., Dr. Fakhri Hasanov | King Abdullah Petroleum Studies and Research Center, Saudi Arabia |
| Assoc. prof., Dr. Elkhan Richard Sadik-Zada | Ruhr Universität Bochum, Germany |
| Prof., Dr. Igor Mantsurov | Research Institute for System Statistical Studies, Ukraine |
| Prof., Dr. Rafayıl Qasımbəyli | Eskisehir Technical University, Turkey |
| Prof., Dr. Korkmaz İmanov | Institute of Control Systems, Azerbaijan |
| Dr. Fateh Belaid | King Abdullah Petroleum Studies and Research Center, Saudi Arabia |
| Dr. Andrea Gatto | Kean University, United States |
| Assoc. prof., Dr. Halima Begum | Universiti Utara Malaysia, Malaysia |
| Assoc. prof., Dr. S. M. Ferdous Azam | Management&Science University Malaysia, Malaysia |
| Prof., Dr. Sharif Guseynov | Liepaja University, Latvia |
| Prof., Dr. Adil Bağırov | Federation University Australia, Australia |

# AZƏRBAYCAN ALİ TƏHSİL SİSTEMİNİN MÜASİR İQTİSADİ VƏZİYYƏTİ, ONUN BƏZİ XÜSUSİYYƏTLƏRİ VƏ PRİORİTETLƏRİ

*Daxil olub: 21 sentyabr 2023-cü il*
*Qəbul olunub: 9 oktyabr 2023-cü il*
*Received: 21 September 2023*
*Accepted: 9 October 2023*

***Əlövsət Əliyev[1], Aytən Ağayeva[2]***
*[1]i.e.d., Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu*
*[2]doktorant, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*
*[1]alovsat_qaraca@mail.ru;*
*[2]ayten.agayeva91@mail.ru*

## Xülasə

Müasir dünyanın əsas inkişaf trendləri elmə, texnologiyaya, innovasiyaya, İKT-yə əsaslanır. Bunların təməlində isə təhsil sistemi, onun səmərəliliyi və modernləşməsi dayanır. Təhsil bəşəriyyətin gələcəyi üçün vacib faktordur.

Tədqiqat işinin məqsədi ölkənin müasir iqtisadiyyatının formalaşmasında və inkişafında ali təhsilin rolunu, bəzi xüsusiyyətlərini araşdırmaq və prioritetləri müəyyən etməkdir. Metodoloji cəhətdən nəzəri və statistik təhlilə əsaslanan sistemli yanaşmadan istifadə edilmişdir. Həmçinin Azərbaycan ali təhsil müəssisələrinin kommersiya və qeyri-kommersiya fəaliyyəti üzrə təsnifatına əsaslanaraq, onların reytinqləri araşdırılmışdır. Tədqiqat işinin məqsədi ölkənin müasir iqtisadiyyatının formalaşmasında və inkişafında ali təhsilin bəzi xüsusiyyətlərini araşdırmaq və prioritetləri müəyyən etməkdir. Metodoloji cəhətdən nəzəri və statistik təhlilə əsaslanan sistemli yanaşmadan istifadə edilmişdir. Nəticələrdə Azərbaycanın ali təhsil sisteminə, ali təhsil modelinin institusional bazasına, ali təhsil müəssisələrinin tələbə və məzun kontingentinin iqtisadi-statistik təhlilinə diqqət yetirilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti: nəticələr aidiyyəti qurumlar tərəfindən təşkil edilən proqramlarda istifadə oluna bilər. Tədqiqatın orijinallığı və elmi yeniliyi iqtisadi perspektivdən istifadə etməklə Azərbaycanda ali təhsilin müasir vəziyyətinin təhlilindən ibarətdir.

***Açar sözlər:*** *ali təhsil sistemi, Bolonya sistemi, ali təhsil müəssisələrinin strukturu, tələbə-məzun kontingenti.*

# THE MODERN ECONOMİC SİTUATİON OF AZERBAİJAN'S HİGHER EDUCATİON SYSTEM, SOME OF İTS FEATURES AND PRİORİTİES

***Alovsat Aliyev[1], Ayten Aghayeva[2]***
*[1]doctor of economic sciences, Department head of the Institute of Information Technologies of the Ministry of Science and Education of the Republic of Azerbaijan, [2] Doctoral student of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*
*[1]alovsat garaca@mail.ru, [2]ayten.agayeva1@mail.ru*

**Abstract**
The main development trends of the modern world are based on science, technology, innovation, ICT. The educational system is based on its efficiency and modernization. Education is an important factor for the future of mankind. The purpose of the research work is to examine some features of higher education in the formation and development of the country's modern economy and to determine priorities. Methodologically, a systematic approach based on theoretical and statistical analysis was used. In the results, attention was paid to the higher education system of Azerbaijan, the institutional base of the higher education model, the economic-statistical analysis of the student and graduate contingent of higher education institutions. Also, based on the classification of Azerbaijan's higher education institutions by commercial and non-commercial activity, their ratings were examined. Practical significance of the study: The results can be used in the programs organized by the concerned institutions. Research originality and scientific innovation: Analysis of the modern state of higher education in Azerbaijan using an economic perspective.

***Keywords:*** *higher education system, balloon system, structure of higher education institutions, student-graduate contingent.*

## СОВРЕМЕННОЕ ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА, НЕКОТОРЫЕ ЕЕ ОСОБЕННОСТИ И ПРИОРИТЕТЫ

***Аловсат Алиев[1], Айтен Агаева[2]***
*[1]доктор экономических наук,*
*Заведующий отделом Института информационных технологий Министерства науки и образования Азербайджанской республики, [2]докторант, Институт экономики Министерства науки и образования Азербайджанской республики*
*[1]alovsat garaca@mail.ru, [2]ayten.agayeva1@mail.ru*

**Резюме**
Основные тенденции развития современного мира основаны на науке, технологиях, инновациях, ИКТ. Система образования основана на ее эффективности и модернизации. Образование является важным фактором для будущего человечества. Цель исследовательской работы – рассмотреть некоторые особенности высшего образования в становлении и развитии современной экономики страны и определить приоритеты. Методологически использовался системный подход, основанный на теоретическом и статистическом анализе. В результате было уде-

лено внимание системе высшего образования Азербайджана, институциональной основе модели высшего образования, экономико-статистическому анализу студенческого и аспирантского контингента высших учебных заведений. Также на основе классификации высших учебных заведений Азербайджана по коммерческой и некоммерческой деятельности были исследованы их рейтинги. Оригинальность исследования и научная инновация заключается в анализе современного состояния высшего образования в Азербайджане с экономической точки зрения. Прикладная значимость исследования в том, что полученные результаты могут быть использованы в программах, организованных заинтересованными учреждениями.

***Ключевые слова:*** *система высшего образования, Болонская система, структура вузов, контингент студентов-выпускников.*

## Giriş

Təhsilin inkişafı cəmiyyət üzvlərinin əksəriyyətinin daim müzakirə mövzusu olmuşdur. Təhsilin inkişaf tarixindən aydın olur ki, təhsil xüsusilə ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra diqqət mərkəzində daha çox saxlanılmışdır. Azərbaycanda ali təhsil sisteminin təşkili Bolonya sisteminə əsaslanır. Ali təhsilin inkişafı istiqamətində qəbul edilən hüquqi və siyasi sənədlər təhsilin inkişaf trayektoriyasını görməyə imkan verir. Keyfiyyətə nəzarətin təmin edilməsi və universitetlərin mütəmadi olaraq müasir tələblərə uyğunlaşdırılması üçün ali təhsil sisteminin bütün səviyyələrində universitetlərin akkreditasiyası təşkil edilir. Son dövrlərdə isə akkreditasiya qaydalarında müəyyən dəyişikliklər edilərək ali təhsilin keyfiyyət təminatında ciddi addımlar atılmışdır. Ali təhsil sisteminin qarşısında sosial problemlərlə yanaşı, bir çox iqtisadi məsələlər də durur. Bu mənada ali təhsil sisteminin bir iqtisadi obyekt kimi öyrənilməsinə onun iqtisadi və prioritetlərinin müəyyənləşdirilməsinə, təhlilinə ehtiyac böyükdür. Bu məqalədə məhz ali təhsil sisteminin bəzi iqtisadi aspektlərinə diqqət yetirilmişdir.

**Azərbaycanda ali təhsil sisteminin formalaşma mərhələləri.** Ali təhsilin əsas məqsədi fərdlərin yeni şeylər öyrənmələri üçün vaxt və məkanı təmin etmək, fərdlərin kim olduqlarını və nə olmaq istədiklərini kəşf etməkdir [1].

Ali təhsilin inkişaf tarixi böyük bir dövrü əhatə edir. Bu dövr 3 mərhələni əhatə edir.

1919-1920-ci illər (I mərhələ) - Azərbaycanda ilk ali təhsil məktəbi - Azərbaycan Dövlət Universiteti yaranmışdır və ilk dəfə prof. N.Dubrovski ümumdünya tarixindən öz məruzəsini səsləndirmişdi.

1920-1980-ci illər (II mərhələ) - bu dövrdə, yəni Sovet hakimiyyətinin ilk illərində respublikada 5 ali məktəb fəaliyyət göstərirdi. 1990-cı ilə qədər ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrinin sayı 17-yə çatmışdır.

1990-cı illər (III mərhələ) - Azərbaycan müstəqillik qazandıqdan sonra bir sıra sahələrdə olduğu kimi təhsil sahəsində də əsaslı islahatlar aparmağa başladı. Bu mərhələdə ölkədə yeni ali təhsil sistemi, ali təhsil sistemində ciddi islahatlar formalaşmağa başladı [2].

Bu, onun göstəricisidir ki, insanların maarifləndirilməsi, eləcə də dövrün tələblərinə uyğun kadrların hazırlanması həmişə mühüm amil olmuşdur. Müstəqilliyi bərpa etdikdən sonra respublikanın ali təhsil sistemində müasir cəmiyyətin tələbləri və xarici təcrübə əsasında bir sıra ciddi islahatlar həyata keçirildi.

Ölkənin insan kapitalına sərmayə qoyuluşu onun gələcək iqtisadi yüksəlişində mühüm amildir. Üstəlik, bu ölkələrin bilik iqtisadiyyatına diqqət yetirmək ölkənin beynəlxalq potensialını artırmaq deməkdir.

İqtisadi artım nəzəriyyəsində ikinci nəsil modellərin və ya neoklassik modelləri əvəz edən endogen iqtisadi artım modellərinin dominantlıq dövründə yaradılmış bir sıra nəzəri əsərlərdə insan kapitalı daha yüksək iqtisadi artım templərinin əldə edilməsində əsas rol oynamışdır [3]. İnnovasiyaların və texnoloji inkişafın yaranmasında insan kapitalı xüsusi rol oynayır.

Bilik iqtisadiyyatın başlıca xammalı və ən önəmli məhsulu halına gəldi. Zənginlik, rifah və qüdrət əldə etmək üçün lazım olan kapital elementləri, fiziki əmək, tüstülü sənaye maşınları, fabrik və zavodlar yerini yeni biliyə və texnologiyaya verdi [4].

P.Romer R.Solounun yanaşmasını inkişaf etdirərək insan kapitalını kapital, əmək və texnologiya səviyyəsinə əlavə olaraq iqtisadi artım amili kimi nəzərdən keçirir [5]. İnsan kapitalının iqtisadi inkişafda rolunu artıran faktorlar informasiya cəmiyyətinin yaranması və bilik iqtisadiyyatına keçiddir.

**Ali təhsil sisteminin fəaliyyəti və strukturları.** Dünyada baş verən son proseslərlə əlaqədar olaraq universitetlərin ölkələrin və xalqların inkişafında rolu araşdırılmışdır ki, bu da onu göstərir ki, universitetlər təkcə tədris proseslərini təşkil edən deyil, həm də yaranmış biliklərin kommersiyalaşdırılmasını təşviq edəndir. Universitetlərə öz sahibkarlıq fəaliyyətləri ilə yanaşı, getdikcə daha çox cəmiyyətdə sahibkarlıq vərdişlərini təşviq edən və inkişaf etdirən sahibkarlıq düşüncəsinin əsas təşəbbüskarı rolu verilir [6].

Təhsil strategiyası, şəxsi yönümlülük, tələbələrin yaradıcı təlim metodlarından istifadə etməklə ali təhsilin məzmununun inteqrasiyasını təmin edən müəllimlərin formalaşdırılması, təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması zaman dövlət-biznes və dövlət-ictimai davranışa xüsusi diqqət yetirmək, təhsildə maliyyə mexanizmləri, o cümlədən ömürboyu təhsili təmin etmək üçün zəruri infrastrukturun yaradılması istiqamətlərini hədəfləyir.




**Şəkil 1. Azərbaycan Respublikasının təhsil sistemi**

Azərbaycan Respublikasının ali təhsil sistemi strukturuna görə 5 pillədən ibarətdir. Ümumi 9 illik təhsil ölkə üzrə icbaridir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsində qeyd olunur ki, bazarın və cəmiyyətin tələblərinə uyğun mütəxəssis, elm və təhsil işçiləri hazırlamaq ali məktəblərin üzərinə düşür. Bu, ali təhsilin 3 pilləsində reallaşdırılır: bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura), doktorantura (adyunktura). Azərbaycan Respublikasının ali təhsil sistemi yuxarıdakı sxemdə öz əksini tapmışdır [Şəkil 1].

2019-2020-ci illərin statistik məlumatlarına əsasən, Azərbaycan Respublikasında 52 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Bunlardan dövlət ali təhsil müəssisələrinin sayı 40, qeyri-dövlət ali təhsil müəssisələrinin sayı isə 12-dir. Ümumilikdə Azərbaycan universitetlərində 14188 müəllim, 205385 tələbə (onlardan 185599 tələbə bakalavr, 19826 tələbə isə magistratura səviyyəsində) təhsil alır [Şəkil 2].

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 5 - 16
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 5 - 16




**Şəkil 2. Ali təhsil sistemi müəssisələri və tələbələri üzrə bəzi məlumatlar**

Müasir dövrdə ölkələrin rəqabət qabliyyətinin artırılması istiqamətində iqisadiyyat və təhsil bir-birinə bağlıdır və qarşılıqlı inkişafdadır. Bu isə uzunmüddətli perspektivdə təhsil sektoruna investisiya yatırımıdır.

İnsan kapitalı iqtisadi tərəqqi üçün strateji resursdur və ona sərmayə qoyulmadan iqtisadiyyatın rəqabət qabiliyyətinə və davamlı inkişafına nail olmaq mümkün deyildir [7].

Ali təhsil müəssisələrinin idarə edilməsinə Nazirlər Kabineti, Elm və Təhsil Nazirliyi tərəfindən nəzarət edilir. Yerli idarəetmə orqanları müəssisəni yalnız müəyyən maddi-texniki baza ilə təmin edə bilər, onlar ali təhsil müəssisələrinin idarə edilməsində iştirak etmirlər.

Azərbaycan Respublikasının ali təhsil müəssisələri Elm və Təhsil Nazirliyinin, digər nazirlik və komitələri tabeliyində olan, AMEA-nın magistraturası, özəl ali təhsil müəssisələri və xüsusi təyinatlı ali təhsil müəssisələri şəklində qruplaşdırılır [Şəkil 3].




**Şəkil 3. Azərbaycan ali təhsil sisteminə daxil olan müəssisələrin srtuktur sxemi**

Ali təhsil müəssisələri strukturuna görə filiallar, fakültə, kafedra, elmi-tədqiqat laboratoriyaları, hazırlıq şöbələri, əlavə ixtisas təhsili üçün tədris bölmələri, təcrübə təsərrüfatları, tədris teatrları və s. bölmələrə ayrılır. Ümumilikdə ali təhsil müəssisələrinin struktur vahidi kimi elm və tərbiyə xarakterli müəssisə və təşkilatlar fəaliyyət göstərə bilər. Ali ixtisas təhsilinin verilməsində universitetlər, akademiya, institut, ali kollec və konservatoriyalar iştirak edir [Şəkil 4].




**Şəkil 4. Ali təhsil müəssisələrinin nümunəvi strukturu**

Hazırda ali təhsil müəssisələrində tədrisin təşkili qaydaları kredit sisteminə əsaslanır. Respublika ərazisində fəaliyyət göstərən xarici universitetlərin filiallarına həmin universietlərdə tətbiq olunan tədris sisteminin təşkilinə icazə verilir. Tədris ilinin təşkili "*fulltime*" və "parttime" şəklində 40 həftədən, hər semestr isə 20 həftədən ibarət olmaqla payız və yaz semestrlərini əhatə edir. Bundan əlavə təhsildə 6 həftədən çox olmamaq şərtilə yay semestrinin təşkilinə icazə verilir. Tələbə yay semestrində akademik borclarının ləğvi və fənn üzrə qiymətini yüksəltmək məqsədilə iştirak edə bilər. Təhsili "*fulltime"* olan tələbələrə semestr müddətində 30 kredit, "*parttime*" oxuyan tələbələrə isə 20 kredit götürmək imkanı verilir. Tədris prosesi əyani formadan əlavə qiyabi formada da təşkil olunur. Qiyabi formada olan tədris prosesinin hər semestri 16 həftədən təşkil olunmaqla 32 həftədən ibarətdir. Tədris prosesi zamanı bakalavrlara akademik kreditlərini tamamlamaq üçün toplam 240-300 kredit, magistrlara isə 90-120 kredit ayrılır.

Azərbaycanın Milli Hesabatında bildirilir ki, ali təhsildə inklüzivliyin təmin edilməsi üçün hələlik konkret tədbirlər görülməyib. Ali məktəblərə daxil olmaq, təhsili davam etdirmək və bitirmək üçün heç bir kəmiyyət məqsədləri yoxdur [8].

2023-cü ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 4 407 164 329,0 milyard manatdır. Ali təhsil xərcləri isə 70 606 841,0 milyon manat və hər tələbəyə çəkilən xərclər isə 271,58 manatdır. Təhsil üzrə nominal əməkhaqqı isə 2021-ci ildə 526,1 manat olmuşdur.

Ali təhsil müəssisələrinin normativ-hüquqi əsasları. Ali təhsilin prioritet inkişafı daim dövlətin diqqət mərkəzində olmuşdur. Bunun bariz nümunəsi təhsil haqqında qəbul olunan qanunlar və verilən sərəncamlardır. Bunlara nümünə olaraq: "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Ali təhsil müəssisələrinin əsasnaməsi", "Gənclərin

xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı**”, “**Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi haqqında**”**, “Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi”, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi qaydaları”, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili”, “Təhsil müəssisələrinin akkreditasiyası”, “Strateji yol xəritəsi”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” və s. göstərmək olar.

Biliklərə əsaslanan iqtisadiyyatda universitetlər – təhsil, tədqiqat və biliklərin kommersiyalaşması missiyasına uyğun fəaliyyət çevrəsinə malik olur [9].

Ali təhsilin beynəlxaq məkanda rəqabət qabiliyyətinin artırılması məqsədilə respublikamız 2005-ci il mayın 19-dan Bolonya prosesinə qoşulmuşdur.

Ancaq Bolonya sisteminin ali təhsilimizə kredit sistemi, tələbələrin mobilliyi, çoxballı qiymətləndirmə sistemi kimi qazandırdığı töhfədən başqa keyfiyyətinə heç bir əsaslı təsir göstərilmədiyi haqqında da iddialar səsləndirilir**.**

**Ali təhsil müəssisələrinin tələbə və məzun kontingentinin statistik təhlili.** Son 5 ildə ali təhsil müəssisələrinə qəbul olan tələbələrin statistikasında illər üzrə artım vardır. 2016/2017-ci tədris ili üzrə qəbul olanların sayı 36126 nəfər olduğu halda, 2020/2021-ci ildə bu göstərici 8877 nəfər artaraq 45003 nəfərə çatmışdır. 2016/2017, 2017/2018, 2018/2019-cu illərdə qəbul olanların sayında 2000-dən çox artım olsa da, 2019/2020 və 2020/2021-ci illər üçün bu proqnoz fərqlidir. 2019/2020 və 2020/2021-ci illər arasında universitetə qəbul olanların sayında 679 nəfər artım olub [Şəkil 5].




**Şəkil 5. Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin say dinamikası [10]**

2016 və 2021-ci illər üzrə ali təhsili başa vuranların statistik cədvəlində ilk 3 il üzrə rəqəmlər sabitdir. 2016-cı ildə ali təhsilini başa vuran tələbələrin sayı 36 951 nəfər idisə, 2020-ci ildə bu göstərici 3 873 nəfər artaraq 40 824 nəfərə çatıb. Digər illərdə isə artım 1000 nəfərdən çox olub [Şəkil 6].




**Şəkil 6. Ali təhsil müəssisələrini bitirənlərin say dinamikası [11]**

Universitetə qəbul olanlarla məzunlar arasında təhlildə 2019/2022-ci il üzrə göstəricilər fərqlidir. Bu ildə qəbul olunanların sayı 44324 nəfər, həmin ildə universiteti bitirənlərin sayından 6 762 nəfər az olmaqla 37562 nəfər olmuşdur. 2016-cı ildə universitetə 36126 nəfər qəbul olunmuş, 4 il sonra 37562 nəfər ali məktəbdən məzun olub. Qəbul olanlar və bitirənlər arasında fərq keçmiş illərin məzunlarıdır ki, onlar müxtəlif səbəblərdən akademik planlarını tamamlaya bilmədikləri üçün 2019-cu ildə məzun olublar.

**Ali təhsil müəssisələrinin akkreditasiyası**. Ali təhsildə daxili və xarici keyfiyyət təminatı üçün Avropa standartı olan ESG (The Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area) ali təhsil mühitində keyfiyyətin yaxşılaşdırılması imkanlarını müəyyən edir. Bu, Avropa keyfiyyət standartlarını təmin edir. Ali təhsil bir neçə vəzifənin həyata keçirilməsini qarşısına məqsəd qoymuşdur. Həmin məqsədlərə tələbələri cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa (məşğulluq imkanlarına töhfə verməklə) hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiyaların stimullaşdırılması da daxildir [12].

Ali təhsil müəssisələrinin akkreditasiyası ali təhsilin keyfiyyətini təmin etmək və monitorinq etmək üçün nəzərdə tutulub. 29 dekabr tarixli 907 nömrəli fərmana əsasən 2019-cu ildə Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılmış və Agentliyin Nizam-

naməsində qurumun fəaliyyət istiqaməti və vəzifəsi kimi, təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi və akkreditasiya məqsədilə təhsil müəssisələrinin qiymətləndirilməsinin təşkil edilməsi müəyyən edilmişdir [13]. Ali təhsil müəssisələrinin yeni qaydalarına əsasən akkreditə zamanı dövlət standartları ilə yanaşı beynəlxalq təcrübənin, həmçinin beynəlxalq standartlarında nəzərə alınması, təhsil proqramlarının qiymətləndirmə mexanizminin formalaşdırlması, proqramlar hazırlanan zaman işəgötürənlərin və təhsilalanların nümayəndələrinin cəlbi, akkreditənin elektron formasının yaradılması və akkreditə olunmuş müəssisəyə elektron sertifikatın verilməsi və bu kimi prioritetlər müəyənləşdirilərək reallaşdırılmasına start verildi.

## Nəticə

Ali təhsil müəssisələrinin Bolonya sisteminə uyğun olaraq tədris prosesinin təşkilində bir sıra çatışmazlıqlar vardır ki, bunlar bütün universitetlərdə Bolonya sisteminin tələblərinə tam uyğunluğun olmaması, fənlər üzrə ayrı-ayrı universitetlərdə kredit fərqlilikləridir. Digər tərəfdən isə iddialara görə, Bolonya təhsil sistemi tələbəyönlüdür və tələbələrə daha çox sərbəstlik verir ki, bu da tələbələrin tədris məsuliyyətlərini artırmaq əvəzinə onların tədris prosesindən yayınmağına səbəb olur.

Azərbaycan Respublikasının ali təsil müəssisələrinin keyfiyyətinin artırılması üçün onlar akkreditasiya olunan zaman ESG (The Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area) standartlarına uyğun akkreditə olunur ki, bu standartda daha çox daxili yoxlamalara və özünü təhlil hesabatlarına üstünlük verilir.

Ali təhsil müəssisələrinin akkreditasiya olunmasında ASİC Keyfiyyət standartı da əlverişlidir. Bu akkreditasiya standartına tələb universitetin beynəlmiləlləşməsi və buna görə də, həmin universitetin xarici tələbələr üçün təhsilin keyfiyyətinə inamdır.

Təhsilin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərlə yanaşı, PISA, PIRLS, TIMSS, ICILS qiymətləndirməsi də daxil olmaqla beynəlxalq qiymətləndirmədə mövqe tutmaq üçün addımlar atılmalıdır.

Qeyd olunan tövsiyələrin nəzərə alınması ali təhsil sisteminin iqtisadi aspektdən potensialının artırılmasına və nəticə etibarı ilə təhsildən gözlənilən effektivlik səviyyəsinin yüksəlməsinə gətirə bilər.

### Ədəbiyyat

1. Maia C., Ikboljon Q., Dilbar G. Higher education contributing to local, national, and global development: new empirical and conceptual insights. Higher education, 2021, 81, pp.109-127
2. Qafarov Ş.S., Səməndərov S.Ş. Azərbaycan Respublikasında iqtisadi təmayüllü ali təhsil mətəblərinin inkişafı tarixi araşdırmalar kontekstində. Elmi əsərlər, 2017, №1, səh.28-33
3. Любимов И., Якубовский И. Высшее образование и экономическое развитие регионов России. Экономическая политика, 2020, 6(15), стр.110–139

4. Rəhimli H.H. Modern və postmodern dövrdə elm və təhsilin iqtisadiyyatda rolunun qiymətləndirilməsi. AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası, 2020, səh. 99-106
5. Maskaev A.I. Institution of higher education and science as a factor of economic development. Journal of economic regulation, 2021, 12(3), pp.76-85
6. Сандлер Д.Г, Гладырев Д.А. Обзор эмпирических исследований факторов экономической результативности российских университетов. Экономика и управление, 2021, № 4, стр.37–49
7. Цыпин А.П., Фирсова А.А. Подходы к оценке эффективности инвестиций в высшее образование. Перспективы науки и образования, 2021, № 5 (53), стр.512-529
8. Mammadova L., Valiyev A. Azerbaijan and European higher education. Area: Students' ınvolvement in bologna reforms. Research in educational administration and leadership, 2020, 5(4), pp.1083-1121
9. Zamanova N.İ. Ali pedaqoji təhsil müəssisələrinin idarə olunasının innovativlik prinsipi. Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi əsərləri, Cild 87, №4, 2020, səh 59-62
10. Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı www.stat.gov.az
11. Ali təhsil müəssisələrini bitirən tələbələrin sayı www.stat.gov.az
12. ESG 2015 https://enqa.eu/wp-content/uploads/2015/11/ESG_2015.pdf
13. "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın yeni redaksiyası https://nk.gov.az/az/article/1272/

# AKTİVLƏRİN UÇOTUNUN NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYASINDA PARADİQMA PROBLEMLƏRİ

*Daxil olub: 20 iyun 2023-cü il*
*Qəbul olunub: 5 oktyabr 2023-cü il*
*Received: 20 June 2023*
*Accepted: 5 October 2023*

***Vaqif Quliyev***
*i.e.n., dosent, "Mühasibat uçotu və audit" kafedrası, UNEC*
*vaqifquliyev.unec@gmail.com*

**Xülasə**
Cəmiyyətin iqtisadi-sosial inkişafının təmin edilməsi müəssisə və şirkətlərin fəaliyyəti, onların məhdud resurslardan nə dərəcədə səmərəli istifadə etməsi barədə formalaşdırılan informasiyanın kəmiyyətinə və keyfiyyətinə yeni tələblər qoyur. Bu da tətbiq olunan uçot və hesabatın nəzəriyyəsi və metodologiyasının daim inkişaf etdirilməsi və təkmilləşdirilməsini zəruri edir. Tədqiqatın məqsədi - aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyasında paradiqma anlayışının yerini və rolunu qiymətləndirməkdən ibarətdir. Tədqiqatın metodologiyası - tədqiqat işində мüqayisə, təfsir, aksiomatik, abstraksiya, analiz, sintez, induksiya, deduksiya və s. metodlardan istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyasının paradiqmal deyil, kumulyativ yanaşma bazasında inkişaf etdirilə biləcəyi haqda əsaslandırma uçot elmində tədqiqatların daha məqsədyönlü aparılması üçün istifadə edilə bilər. Tədqiqatın nəticələri – tədqiqat əsasında müəyyən edilmişdir ki, ümumfəlsəfi termin olan "paradiqma" anlayışının uçotun, o cümlədən aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyasına daxil edilməsi cəhdləri baş tutmamış, bu sahənin elmi-praktiki inkişafı tarixən inqilabi yolla deyil, təkamül yolu ilə getmişdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – "paradiqma" anlayışının uçot – hesabat sisteminə rəğmən semantika və praqmatikası araşdırılmış və əsaslandırılmışdır ki, həmin anlayış bu sistemin konseptual anlayış bazasına daxil edilə bilməz.

***Açar sözlər:*** *aktivlər, paradiqma, nəzəriyyə, metodologiya, kumulyativ yanaşma, tarixi yanaşma.*

# PROBLEMS PARADİGM İN THE THEORY AND METHODOLOGY OF ASSET ACCOUNTİNG

***Vaqif Quliyev***
*assistant professor, "Accounting and audit" department of UNEC*
*vaqifquliyev.unec@gmail.com*

**Abstract**
Ensuring the economic and social development of society makes new demands on the quantity and quality of information on the activities of enterprises and companies, the

degree of efficiency in their use of limited resources. And this causes the need for constant development and improvement of the theory and methodology of accounting and reporting. The purpose of the study is to assess the place and role of the concept of "paradigm" in the theory and methodology of asset accounting. Research methodology - comparative, descriptive, axiomatic, abstract, analysis and synthesis, induction, deduction and other research methods were used in the work. Importance of the study - the argument that the theory and methodology of asset accounting can develop on the basis of a cumulative rather than a paradigmatic approach can be used to conduct more focused research in the science of accounting. Results of the study - according to the results of the study, it was determined that attempts to include the general philosophical concept of "paradigm" in the theory and methodology of accounting in general, and accounting for assets in particular, were not crowned with success, the scientific and practical development of this area was historically not revolutionary, but evolutionary. Originality and scientific novelty of the research - the semantics and pragmatics of the concept of "Paradigma" in the accounting system have been studied and it has been substantiated that this concept cannot be included in the base of conceptual concepts of this system.

***Keywords*:** *assets, paradigm, theory, methodology, cumulative approach, historical approach.*

## ПРОБЛЕМЫ ПАРАДИГМЫ В ТЕОРИИ И МЕТОДОЛОГИИ УЧЕТА АКТИВОВ

***Вагиф Гулиев***
*доц., кафедра «Бухгалтерский учет и аудит», UNEC*
*vaqifquliyev.unec@gmail.com*

### Резюме

Обеспечение экономического и социального развития общества предъявляет новые требования к количеству и качеству информации о деятельности предприятий и компаний, степени эффективности использования ими ограниченных ресурсов. А это вызывает необходимость постоянного развития и совершенствования теории и методологии бухгалтерского учета и отчетности. Цель исследования – оценить место и роль понятия «парадигма» в теории и методологии учета активов. Методология исследования – в работе были использованы сравнительный, описательный, аксиоматический, абстрактный, анализ и синтез, индукция, дедукция и прочие методы исследования. Значение применения исследования - аргумент о том, что теория и методология учета активов могут развааиваться на базе кумулятивного, а не парадигматического подхода, может использоваться для проведения более целенаправленных исследований в науке

бухгалтерского учета. Результаты исследования - по результатам исследования было определено, что попытки включить общефилософское понятие «парадигма» в теорию и методологию учета в целом, и учета активов в частности, не увенчались успехом, научное и практическое развитие этой сферы исторически шло не революционным, а эволюционным путем. Оригинальность и научная новизна исследования - изучена семантика и прагматика концепции «парадигма» в системе учета и обосновано, что это понятие не может быть включено в базу концептуальных понятий данной системы.

***Ключевые слова:*** *активы, парадигма, теория, методология, кумулятивный подход, исторический подход.*

## Giriş

Postulat, paradiqma, aksioma, prinsiplər, metodlar və digər terminlər mühasibat uçotu elminin anlayış aparatında geniş yayılmışdır. Ümumfəlsəfi kateqoriyalar sırasına aid edilən həmin anlayışların bir çoxu uçot-hesabat susteminin nəzəriyyəsi və metodologiyasının formalaşması üçün baza rolunu oynayırlar. Başqa sözlə, şirkətlərin aktivləri, onlardan nə dərəcədə rasional və faydalı istifadə olunması haqqında informasiya məhz bu anlayışların bazasında yaranan nəzəriyyə və metodologiyanın köməyilə formalaşdırılır. Uçot- hesabatda həmin anlayışların semantikası və praqmatikası ətrafında aparılmış araşdırmalar və tədqiqatlar dünyada müxtəlif uçot modellərinin harmonizə edilməsi, unifikasiyası və bütövlükdə sistemin inkişafı üçün mühüm əhəmiyyətə malik olmuşdur. Bu anlayışlar həm nəzəri, həm də metodoloji-praktiki aspektlərdə açıqlanır və şərh olunur. Ancaq apardığımız araşdırmalar belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, bu və ya digər anlayış altında irəli sürülmüş bir çox müddəalar, mülahizə və tezislər vahid yanaşmalara gətirib çıxarmamış, uçotun nəzəriyyəsi və metodologiyasında özünə yer tapmamışdır. Bununla əlaqədar paradiqma anlayışlarının semantikasını nəzərdən keçirmək, onun aktivlərin uçotunun nəzəriyyəsi və metodologiyası ilə necə uzlaşdığını araşdırmaq mühüm əhəmiyyət kəsb edir.

## Paradiqma anlyışının semantikası

Paradiqma anlayışının uçot sistemində işlədilən anlayışlar arasında hansı statusa malik olduğunu və bu sahədə tətbiq edilən metodoloji elementlər sırasında nə kimi rola malik olduğunu araşdırmazdan öncə onun fəlsəfi - elmi baxımdan necə traktovka olunduğuna qısa nəzər salaq.

Paradiqma – yunanca *«paradeigma»* sözündən götürülmüş, mənası nümunə, örnək deməkdir. Bu anlayış antik və orta əsrlər fəlsəfəsində geniş tətbiq edilirdi və əbədi ideyalar sferasını ilkin nümunə kimi xarakterizə etmək üçün istifadə olunurdu (1, s. 473).

Paradiqma anlayışı XX əsrin əvvəllərindən elmə Amerika alimi -filosofu T.Kun (1922-1996) tərəfindən daxil edilmişdir. O, özünün "Elmi inqilabların strukturu" adlı

əsərində paradiqmanı belə xarakterizə edirdi: "Paradiqmalar altında mən hamı tərəfindən tanınan o elmi nailiyyətləri nəzərdə tuturam ki, onlar müəyyən vaxt müddətində elmi cəmiyyətə problemlərin qoyuluşu və onların həlli modelini verir" (2, s. 11). T.Kun paradiqmanı öz kitabının mərkəzi elementi adlandırmış və onu həmin kitabın ən yeni aspekti kimi sayırdı (2, s. 281).

T.Kunun elmi və elmi biliklərin inkişafının başlıca konsepsiyası bütövlükdə paradiqma anlayışları üzərində qurulmuşdur. Paradiqma sözünü çoxlu definisiyada işlətsə də, onun əsas mənasını o, model və nümunə kimi qəbul edirdi. O özünün elmin inkişafına dair konsepsiyasını təsdiq və sübut etmək üçün bir çox digər anlayışlardan istifadə edirdi, onlardan biri də "normal elm" anlayışıdır. Onun nəzərinə görə, "normal elm" – keçmiş bir və ya bir neçə elmi nailiyyətlərə – müəyyən elmi cəmiyyət tərəfindən özünün sonrakı praktiki fəaliyyəti üçün əsas kimi bir neçə vaxt ərzində tanınan nailiyyətlərə – möhkəm söykənən tədqiqatdır (2, s. 31). Onun fikrincə, üç cür problem – əhəmiyyətli faktların müəyyən olunması, faktların və nəzəriyyənin müqayisə edilməsi, nəzəriyyənin işlənməsi həm empirik, həm də nəzəri normal elmin sahəsini tükədir (2, s. 65). Ancaq T.Kuna görə, həmin problemlər bütün elmi problematikanı axıra qədər tükətmir, ona görə də ekstraordinar problemlər də mövcuddur. Ekstraordinar problemlərin özləri yalnız xüsusi hallarda meydana çıxır və normal elmi tədqiqatın inkişafı ilə yaranır. Paradiqma çərçivəsində iş başqa cür cərəyan edə bilməz, paradiqmadan imtina isə, T.Kunun fikrinə görə, həmin paradiqmanın müəyyən etmiş olduğu elmi tədqiqatları dayandırmaq demək olardı. Paradiqmadan bu cür imtina edilməsi elə bir momentdir ki, bu zaman elmi inqilablar baş verir (2, s. 65). Həmin keçidin özünü T.Kunun necə xarakterizə etdiyini də bilmək maraqlıdır. Bununla əlaqədar T.Kun qeyd edirdi ki, normal elmin inkişafı biliklərin kumulyativ yığılması nəticəsində baş verir. Normal elm tərəfindən böyük kəşfləri, yeni faktların kəşfini, yaxud yeni nəzəriyyənin yaradılmasını o, mümkün hesab etmirdi. Normal elm öz problemlərini başa vura bilmədikdə mövcud paradiqma fonunda anomaliya görünməyə başlayır. Anomaliya nə qədər dəqiq və inkişaf etmiş olsa anomaliyanın aşkar olunmasında o, [paradiqma] çox həssas indikator rolunu oynayır, bununla da paradiqmanın dəyişilməsi üçün əsas yaranır. Başqa sözlə, əvvəlki paradiqmada yaranan böhran yeni nəzəriyyənin meydana çıxması üçün zəruri şərt olur. Mövcud paradiqmadan imtina edilməsi eyni zamanda digər paradiqmanın qəbul edilməsi üçün əsas yaradır.

Böhran dövründəki paradiqmadan yeni paradiqmaya keçid, hansından ki, yeni ənənə yarana bilər, heç də kumulyativ proses və həm də köhnə paradiqmanın daha dəqiq işlənilməsi və genişləndirilməsinin köməyilə həyata keçirilə biləcək proses deyildir. Bu proses, T.Kunun yazdığına görə, elmin həmin sahəsinin yeni əsaslar üzərində rekonstruksiyasını, bu sahədə mövcud olan daha elementar nəzəri ümumiləşdirmələri, eləcə də paradiqmanın bir çox metodlarını və əlavələrini dəyişdirən rekonstruksiyadır. Yeni paradiqmaya keçidi T.Kun elmi inqilab adlandırır. Həm də maraqlısı budur ki, amerika filosofu yeni fundamental paradiqmanın həmin sahədə ya çox gənc olan, ya

da yeni olan adamların daha uğurla həyata keçirdiyini göstərir. Bunu da o, onların normal elmin ənənəvi praktikası və qaydaları ilə az bağlı olduğu ilə izah edir. Onun fikrincə, onlar görə bilərlər ki, qaydalar daha yaramır və qaydaların digər sistemini seçməyə başlayırlar, bu da əvvəlki sistemi dəyişə bilər.

T.Kunun fəlsəfəsinə görə, elmin, həmçinin də onun metodologiyasının inkişafı ilkin olaraq normal elm çərçivəsində baş verir, daha sonra həmin normal elm qarşıya çıxan problemləri və onların həlli yollarını "görmür" və nəticədə, böhran, anomaliyalar yaranır. Həmin anomaliyalar və böhran elmi inqilaba gətirib çıxarır, nəticədə yeni paradiqma meydana gəlir və bununla da köhnə paradiqma dağılır. Bu prosesin o, kumulyativ əsasda deyil, inqilabi əsasda baş verdiyini əsaslandırır. Yəni bu, o deməkdir ki, normal elmin bütün müddəaları uçota tətbiq edildikdə metodologiyanın mövcud elementləri və metodologiya özü bütövlükdə tarixi mərhələyə çevrilmiş olur. Başqa sözlə, quldarlıq quruluşu elə dağılır ki, həmin quruluşdan feodalizmə heç bir institut keçmir, sonra isə feodalizm elə dağılır ki, ondan kapitalizmə heç nə keçmir. Bunun belə olmadığına məntiqi bir arqumentlə cavab vermək olar: quldarlıq quruluşu da xüsusi mülkiyyətə, feodalizm də xüsusi mülkiyyətə, kapitalizm də xüsusi mülkiyyətə əsaslanan cəmiyyətlər olmuşlar, ancaq həmin cəmiyyətlərdə xüsusi mülkiyyətin fərqli xüsusiyyətləri olmuşdur: quldarlıqda qullar da xüsusi mülkiyyət obyekti idi, feodalizmdə isə qullar xüsusi mülkiyyət obyekti deyildi, xüsusi mülkiyyət daha çox torpaq üzərində olan mülkiyyət idi. Kapitalizm cəmiyyətində də qullar yoxdur, ancaq kapitalizm cəmiyyətində mülkiyyət təkcə yaradılmayan təbii mülkiyyət üzərində deyil, həmçinin cəmiyyət tərəfindən yaradılan sərvət üzərində mülkiyyət forması ilə xarakterizə olunur. Əgər bir ictimai-iqtisadi inkişaf formasından digərinə keçid kumulyativ, yəni tədrici xarakter daşıyırsa, necə ola bilər ki, həmin ictimai-iqtisadi inkişaf dövrlərinin məhsulu olan uçot və onun metodologiyası kumulyativ, yaxud təkamül yolu ilə deyil, inqilabi yolla inkişaf etsin ya da inkişaf edir. Bu mənada T.Kunun elmin inqilabi yolla dəyişilməsi nəzəriyyəsi, K.Marksın cəmiyyətin ictimai-iqtisadi quruluşunun inqilabi yolla dəyişilməli olduğu təlimi ilə üst-üstə düşür. Bunu T.Kunun özü də qəbul edir, nə zaman ki, o, siyasi inqilabı təsvir edir, əslində bu onun şəxsi mövqeyi deyil, K.Marksın sübut etməyə çalışdığı və formalaşdırmış olduğu mövqedir.

Beləliklə, T.Kun öz əsərində elmi inqilabları elmin inkişafında qeyri-kumulyativ epizodlar kimi xarakterizə edir, bu epizodlarda köhnə paradiqmanın bütövlükdə yaxud qismən əvəz olunması baş verir, yeni paradiqma köhnə ilə bir araya sığmır. Ancaq o, paradiqmalar arasında determinasiyanın ola biləcəyini də inkar etmirdi və göstərirdi ki, köhnə və yeni nəzəriyyə arasında onların bir araya sığa bilməməsinə gətirib çıxarmayan mümkün əlaqələr ola bilər: "Onların hər biri ayrılıqda və hamısı birlikdə elmin inkişafına aparan tarixi inkişaf prosesinə misal ola bilər" (2, s. 152). Daha sonra o, yazırdı: "Əgər bütün nəzəriyyələr arasındakı əlaqə bunun kimi olsaydı, onda elmin inkişafı həqiqətən də kumulyativ oladı. Təzahürlərin bəzi növləri təbiətin indiyə qədər heç kim tərəfindən gözə çarpmayan bəzi aspektində nizama salınmanı sadəcə olaraq

açıqlaya bilərdi. Elmin təkamülündə yeni bilik digər biliyin və əvvəlki növ ilə bir araya sığmayan biliyin deyil, cəhalətin yerinə gəlmiş olardı" (2, s. 152).

T.Kunun özünün qəbul etmədiyi bu müddəa paradoks kimi görünsə belə, uçotun nəzəriyyəsinin və metodologiyasının məhz bu müddəa üzərində qurulmuş olduğunu söyləmək olar.

T.Kunun fəlsəfəsi ilə uçotun nəzəriyyəsi və metodologiyası arasındakı əlaqənin necə ola biləcəyini tam təsdiq etmək üçün biz onun özünün aşağıdakı fikirlərinə istinad edə bilərik: "… ehtimal etmək olar ki, yeniliyin kumulyativ olaraq əldə olunması nəinki təkcə faktiki olaraq, nadir hallarda baş verir, həm də prinsip etibarı ilə mümkün deyildir. Kumulyativ olan normal tədqiqat öz uğuruna görə alimlərin problemləri, hansılar ki, artıq mövcud olan problemlərlə konseptual və texniki əlaqələr sayəsində həll oluna bilərlər, daim seçmək bacarığına borclu olmalıdır" (2, s. 153).

T.Kunun bu müddəasına rəğmən biz mövqeyimizi yenə də L.Paçiolinin ikili yazılışı əsasında açıqlamağa çalışaq. T.Kundan gətirdiyimiz sitatdan belə çıxır ki, yeniliyin kumulyativ olaraq əldə edilməsi nadir hadisə olsa belə, bu, baş verir. Daha sonra, T.Kunla onda razılaşmaq olar ki, L.Paçiolinin elmi yeniliyi, yaxud kəşfi konseptual və texniki baxımdan uçotun ona qədər mövcud olmuş problemləri ilə əlaqədar meydana gəlmişdir və bu əlaqə determinasiya xarakteri daşıyır. Sual meydana çıxır – L.Paçiolinin ikli yazılışı yeni bir metodoloji prinsip kimi T.Kunun hansı müddəaları ilə uzlaşmır?

Birincisi, L.Paçiolinin ikili yazılışı T.Kunun paradiqmaya verdiyi tərifə yatmır, ya da T.Kunun paradiqmasına görə, L.Paçiolinin ikili yazılışını elmi cəmiyyət uçot problemini yalnız müəyyən müddətə həll etmək üçün əldə etmişdir. Əvvəla onu qeyd edək ki, artıq həmin müddət 524 ilə bərabərdir, yəni L.Paçiolinin ikili yazılış modeli, problemi bir neçə yaxud müəyyən müddətə deyil, əbədi olaraq həll etməyə imkan vermisdir. İkincisi, əgər L.Paçiolinin ikili yazılış modelini elmi inqilab kimi köhnə paradiqmanı dağıdıb yeni paradiqma yaratdığını qəbul etsək, onda bu, o demək olardı ki, L.Paçiolinin kəşfi ona qədər olan uçot sistemini tamamilə inkar etmiş, daha doğrusu, onu dağıtmış və onun xarabalıqları üzərindən baş qaldırmışdır. Bu, həm də o demək olardı ki, L.Paçiolinin uçot modelinin özündən öncə olan uçot modeli ilə determinasiyası, ümumiyyətlə, yox idi və ola da bilməzdi. Ancaq uçotun L.Paçioliyə qədər və ondan sonrakı dövrdəki inkişaf tarixi bizə bunun əksini göstərir, göstərir ki, uçotun fundamental nəzəri və metodoloji müddəaları yalnız yüksələn xətt üzrə inkişaf etmiş və təkmilləşdirilmişdir. L.Paçiolinin ikili yazılış modeli də bu inkişafın qızıl dövrlərinin halqalarından biridir. Bunun həqiqətən belə olduğunu biz çox mənbələr əsasında sübut edə bilərik. Həmin mənbələrin ən qiymətlilərindən birisi artıq Ə.Fərəcovun adını «Лекции по курсу Бухгалтерского учета» adlı kitabıdır (3, s. 227-245). Prof. Ə.Fərəcov göstərir ki, ikili yazılış boş yerdən yaranmamışdır, onun yaranması təsərrüfat həyatının inkişaf etməsinin nəticəsində, həmçinin ikili yazılışa qədər mövcud olmuş xronoloji və analitik uçotun bazasında yaranmışdır.

Əgər çox qədim zamanlardan məlum olan və tədricən təkmilləşdirilən xronoloji uçot və sonradan onun bazasında yaradılan analitik uçot qaydaları məlum olmasaydı, böyük ehtimalla demək olar ki, L.Paçioli, ya da hansısa digər dahi şəxsiyyət ikili yazılış modelini yarada bilməzdi. Bununla da biz tam əminliklə deyə bilərik ki, bütövlükdə sosial-humanitar elmlər sahəsində elmi kəşf kimi qəbul edilə biləcək və artıq çoxdan qəbul edilmiş ikili yazılış paradiqması T.Kunun fəlsəfi konsepsiya kimi irəli sürdüyü və əsaslandırdığı elmi inqilabın nəticəsi deyil, bir çox nəsillərin icad etdiyi və təsərrüfat həyatını idarə etmək üçün tətbiq etdiyi uçot qaydaları haqqında biliklərinin kumulyativ şəkildə yığılmasının nəticəsidir. Uçotun nəzəriyyəsi, metodologiyası, onun bütün elementləri biliklərin kumulyativ qaydada yığılması və tədricən təkmilləşdirilməsi şəklində inkişaf edir və təkmilləşdirilir.

Uçot, onun nəzəriyyəsi və metodologiyası öz-özünə, ya da yalnız və yalnız kiminsə məntiqi təfəkkürünün məhsulu kimi inkişaf etməmiş, həm də empirik faktların rasionalizm əsasında ümumiləşdirilməsinin nəticəsində yaranmış və tədricən təkmilləşdirilmişdir. Ancaq öz inkişaf tarixinə ilkin olaraq yaddaşlarda aparılan epizodik uçot kimi başlayan uçot, bir çox nəsillərin görkəmli nümayəndələrinin, zəhmətkeş insanlar olan mühasib-alimlərin çox böyük təfəkkürü və zəkası nəticəsində çətin dərk olunan milyonlarla, hətta milyardlarla sayda faktlar və hadisələr hərəsi maliyyə hesabatının bir-iki vərəqdən ibarət olan bir neçə formasında yerləşdirilən səviyyəyə gəlib çatmışdır və müasir biznesin dili statusunu almışdır. Bəlkə də bu, dünyada analoqu olmayan və biliklərin kumulyativ formada yığılması nəticəsində edilmiş kəşfdir, yaxud elmi inqilabdır. Bu kəşfi, inqilabı bütün bəşəriyyət, adi mühasiblər, alimlər, filosoflar birlikdə etmişlər. Uçot elminin, onun nəzəriyyəsi və metodologiyasının belə bir aforizm üzərində yarandığını desək, yəqin ki, böyük səhv etmərik. “Heç nədən heç nə yaranmır”. T.Kunun elm fəlsəfəsi isə elmin yalnız inqilab nəticəsində köhnə paradiqmanın böhranı nəticəsində yarandığı və yeni yaradılan paradiqma ilə köhnə paradiqma arasında determinasiyanın olmadığı konsepsiyası üzərində qurulmuşdur.

T.Kun üçün bilik – müəyyən tarixi dövrün insan qruplarının, yaxud elmi cəmiyyətin bilikləridir. Deməli, o, biliyin tarixi xarakter daşıdığını göstərir, yəni biliklər dəyişəndir. Buna etiraz etmək heç kimin ağlına belə gəlməz. Albert Eynşteynin dediyi kimi: “Bütün elm – gündəlik təfəkkürün təkmilləşdirilməsindən artıq bir şey deyildir” [Sitat N.Q. Menkyunun rus dilində dərc edilmiş “Принципы экономикс” kitabından götüfrülmüşdür] (4, s. 37). Ancaq bu dəyişiklikliyin elmi inqilablar nəticəsində yarandığını demək mübahisə doğurur. Axı elm ilk növbədə yeni bilik verir, deməli, elmin özü inqilabi xarakter daşıya bilməz. T.Kun siyasi inqilab ilə elmi inqilabın analogiya təşkil etdiyini, yaxud paralellik təşkil etdiyini vurğulayır. Bəli, metafora inqilabı həm siyasətdə, həm də elmdə tapır, ancaq nə siyasətdə olan inqilab, nə də elmdə olan inqilab özündən əvvəlki bazisi tamamilə dağıdıb kənara atmır, əgər atmış olsa, inqilabın özü gec-tez məhvə məhkum olar. Buna misal olaraq, sosialist inqilabının aqibətini göstərmək olar. Bu, özünü təkcə ictimai-siyasi həyatda yox, yəqin ki, həm də fizika elmində də göstərir. Məsələn, yəqin

ki, əgər İ.Nyutonun qanunu olmasaydı, A.Eynşteynin nisbilik nəzəriyyəsi də meydana gəlməzdi, yaxud əgər qədim filosof-alimlər Günəşin yer ətrafında fırlanmasını söyləməsəydilər, Kopernik onun əksini sübut etmək üçün tədqiqat aparmağı belə ağlına gətirməzdi. Fikrimizi məşhur filosof K.R.Popperin "Elmi tədqiqatın məntiqi" adlı əsərində dediyi aşağıdakı sözlərlə bitirmək istərdik: "Elm adamı üçün onun tarixindən və elmi tədqiqatın məntiqindən daha vacib olan heç nə yoxdur" (5, s. 9).

T.Kunun formulə etdiyi paradiqma və onun dəyişilməsinin səbəbi kimi elmi inqilablar konsepsiyası, müasir uçot elmində inqilabi hadisə kimi qarşılandı. Bu cür qarşılanmanı isə onunla izah edirdilər və indi də belə hesab edirlər ki, paradiqmanın dəyişilməsi uçotun metodologiyasının dəyişilməsinə gətirib çıxarır.

**Uçotun nəzəriyyəsi və metodologiyasında paradiqmanın tətbiqi məsələləri**

Uçotun nəzəriyyəsi və metodologiyası sahəsində çalışan bir çox görkəmli alimlər T.Kunun adıçəkilən kitabından möhkəm yapışmaqla onu uçota gətirib çıxarmaq və onun əsasında uçotun, onun metodologiyasının inkişaf istiqamətlərini retrospektiv və perspektiv qaydada geniş şəkildə müzakirə etməyə başladılar. Bununla da onlar göstərdilər ki, uçot elmi indiyə qədər uçotun nə nəzəriyyəsini, nə də metodologiyasını araşdırmaqla məşğul olmamışdır, başqa sözlə, belə çıxdı ki, bütölükdə uçot elminin, onun nəzəriyyəsi və metodologiyasının inkişafı büsbütün T.Kunun icad etmiş olduğu konseptual çərçivədə inkişaf etmişdir və bundan sonra da bu çərçivədə inkişaf edə bilər.

T.Kunun nəzərdən keçirilən konsepsiyası uçot - hesabat sisteminin problemləri ilə məşğul olan peşəkarlar və alimlər arasında o qədər populyarlıq qazandı ki, hətta belə təsəvvür yaranır ki, həmin peşəkarlar və alimlər sanki bu sistemdə olan problemləri başa düşməkdə və onları modelləşdirməkdə çətinlik çəkirlər. Ancaq ədalət naminə demək lazımdır ki, bu cür vəziyyət yalnız uçot sistemində deyil, digər sahələrdə də, məsələn, fizika, statistika, psixologiya kimi sahələrdə də mövcuddur. T.Kunun konsepsiyasının mühasibat uçotunda istifadə oluna biləcəyinə dair fikirləri Amerika alimi, demək olar ki, T.Kunun özü ilə həmyaşıd olan R.C.Çambers (1917-1999) söyləmişdir. O, T.Kunun konsepsiyasına əsaslanaraq mühasibat uçotunun böhran vəziyyətində olduğunu deyirdi və bu böhran vəziyyətini, məsələn, aktivlərin qiymətləndirilməsinin bir neçə metodunun olması, eləcə də gəlirlərin bir neçə anlayışının (tərifinin) olması ilə təsdiq etməyə çalışırdı (6, s. 97-104).

R.C.Çambers haqlı idi, həmin və digər problemlər heç indi də həll edilməmişdir və yenə də bir çox qiymətləndirmə modellərindən istifadə edilir, uçot sistemində gəlirə verilən tərif ilə iqtisadi nəzəriyyədə və digər funksional elmlərdə verilən təriflərlə məzmun və tərkib etibarı ilə üst-üstə düşmür. Ancaq bunu bir elm kimi uçotun üzərinə yıxmaq və onun böhran keçirdiyini demək çox da düzgün olmazdı. Bu cür müxtəlif modellərin mövcudluğu uçot elminin və ya bu elmi təmsil edən, o cümlədən də onun görkəmli nümayəndələrindən biri olan R.Çambersin günahı, ya da onun problemi

bilməməsinin nəticəsi deyil, real həyatda baş verən mürəkkəb dəyişikliklərin, məsələn, elə qiymətlərin özünün tez-tez dəyişməsinin nəticəsidir. Əgər zaman dəyişdikcə qiymətlər dəyişirsə, deməli, həmin dəyişiklikləri əks etdirə biləcək adekvat uçot modelinin işlənib hazırlanması labüddür, hərçənd ki, uçot ədəbiyyatlarında çoxmodelli qiymətləndirmə sistemi kəskin tənqid edilir. Əgər R.Çambersin aktivlərin qiymətləndirilməsinin bir neçə metodunun olmasını yeni problem kimi uçot sistemində böhran yaratdığını qəbul etsək, onda bu uçot sistemi (normal elm) deyil və deməli, köhnə paradiqma öz yerini yeni paradiqmaya təhvil verməli idi. Ancaq həmin metodların hamısının bu günə qədər də tətbiq olunduğunu görürük.

Digər Amerika alimi R.R.Sterlinq də T.Kunun nəzəriyyəsinin mühasibat uçotuna uyarlı olduğunu təsdiq edir və göstərirdi ki, uçotda yeni nəzəriyyə köhnə nəzəriyyədə anomaliyanın yığılması nəticəsində meydana çıxır (7, s. 95-112). Ancaq onun araşdırmasından məlum olmur ki, uçotda hansı nəzəriyyə köhnəlmiş və bu nəzəriyyədə olan anomaliyalar yığılmaqla böhran yaratmış və bunun da nəticəsində həmin köhnə nəzəriyyə yenisi ilə əvəz olunmuşdur, yaxud bir paradiqmanı digər yeni paradiqma əvəz etmişdir. M.C.Uells Amerika uçot nəzəriyyəsində yeddi paradiqmanın olduğunu göstərir (cədvəl 1).

**Cədvəl 1. M.C.Uellsin mühasibat uçotu paradiqmalarının təsnifatı (8, s. 431-482)**

| | **Paradiqmanın adı** | **Paradiqmanın mahiyyəti** |
|---|---|---|
| 1. | Antropoloji | Mühasibat uçotu ənənəvi xarakter daşıyır, mühasiblərin təcrübəsi nəzəriyyəni müəyyən edir, mühasib faktları təqdim olunduğu kimi qeyd edir |
| 2. | Konyunktur | Bazar iqtisadiyyatlarının tələbləri uçotun nəzəriyyəsini formalaşdırır, mühasib fikirləşir nəyi etmək faydalı olardı, nəyi etmək isə faydalı olmazdı, təsərrüfat həyatı faktlarının qiymətlənidirməsinin zəruriliyi |
| 3. | Hadisəvi (situativ) | Mühasibat uçotuna yalnız baş vermiş təsərrüfat həyatı faktlarının qeydiyyatları deyil, proqnozlaşdırma funksiyası da həvalə olunur, uçota plan (smeta) daxil edilir |
| 4. | Prosessual | İdarəetmə qərarlarının qəbul edilməsi üçün təsərrüfat proseslərinin öyrənilməsi uçotun məqsədi olur, idarəetmə uçotu meydana çıxır |
| 5. | İdeallaşdırılma | Uçotun nəzəriyyəsi maliyyə nəticələrinin öyrənilməsinə və müəyyən olunmasına müncər olunur, maliyyə nəticələrinin mühasibat uçotunda konsepsiyası süni priyomlara əsaslanır, ona görə də paradiqma ideallaşdırılmış adlandırılır |
| 6. | İnformasiyavi | Mühasibat uçotunun məqsədi təsərrüfat həyatı faktları haqqında informasiyanın qiymətləndirilməsindən ibarətdir, mühasib faktların özünü deyil, onlar haqqında sənədlərdə olan verilmiş informasiyanı uçota alır. |
| 7. | Bixevioristik *(davranış* -Q.V.) | Nəzəriyyə uçot məlumatları üzrə təsərrüfat prosesində iştirak edən və idarəetmə qərarları qəbul edən şəxslərin davranışlarının öyrənilməsini tələb edir, bu zaman çoxlu göstəriciləri olan hər bir sənədə mühasibdə bu və ya digər reaksiya yaradan stimul kimi baxılır |

Əgər T.Kunun paradiqmaya verdiyi tərifi və elmi inqilab nəticəsində bir paradiqmadan digərinə necə keçildiyini bir də xatırlasaq və onları M.C.Uellsin paradiqmaları və

onların məzmunu ilə müqayisə etsək, görərik ki, onların demək olar ki, heç biri elmi-metodoloji nailiyyət kriterilərinə cavab vermir. Hətta L.Paçiolinin demək olar ki, hamı tərəfindən böyük elmi kəşf kimi qəbul edilən ikili yazılış modeli də burada özünə yer tapmamışdır. Bundan başqa, M.C.Uellsin göstərdiyi paradiqmalar elmi məsələlərin törənməsi üçün əsas da sayıla bilməz. Halbuki T.Kun göstərirdi ki, paradiqmanı elmi məsələləri törədən əsas kimi müəyyən etmək olar.

M.C.Uellsin paradiqmaları daha çox uçotun məqsədlərinin nəzəriyyəsi və metodologiyasının inkişaf mərhələlərini xarakterizə edir və çox aydın göstərir ki, onların, yəni inkişaf mərhələlərinin hamısı bir-biri ilə əlaqəlidir. Əslində M.C.Uellsin paradiqmalar kimi göstərdiyi bütün mahiyyətlərin, yaxud müddəaların demək olar ki, tam əksəriyyəti keçmiş dövrlərdə yaranmış nəzəri-metodoloji məsələlər sırasına aiddir və onların çoxunu L.Paçioli özünün Traktatında geniş işıqlandırmışdır. Həmin dövrdən bəri mühasibat uçotunda hansı dəyişiklikləri elmi yeniliklər, yaxud nailiyyətlər adlandıra bilərik, ya da bilmərik məsələsinə aydınlıq gətirmək üçün biz uçotun nəzəriyyəsi sahəsində Amerikada və bütün dünyada tanınmış olan E.S.Hendriksen və M.V.Van Bredanın yazdıqlarını olduğu kimi göstərək: "Bu sözləri oxuyub (*L.Paçiolinin Traktatından götürülmüş sözlər nəzərdə tutulur* – Q.V.) heyrətə gəlirsən ki, o zamandan bəri, hərçənd ki, dəyişikliklər sözsüz ki olmuşdur, mühasibat uçotu üçün necə də az işlər görülmüşdür deyən uçot tarixçisi A.C.Litltonla razılaşmamaq olmaz. Əgər biz Luka Paçioli dövründə olan uçot ilə müasir uçotu müqayisə etməyə cəhd göstərsək, onda aşkar edə bilərik ki:

1) XVI əsrə qədər mühasibat uçotunun başlıca məqsədi vahid mülkiyyətçinin informasiya ilə təmin edilməsi olmuşdu, ona görə də mühasibat hesablarının məlumatları gizli saxlanılırdı, bizim dövrümüz üçün xarakterik olan hesabatı tənzimləyən standartlar isə mövcud deyildi;

2) şəxsi mülkiyyət ilə müəssisənin mülkiyyəti arasında dəqiq sərhəd qoyulmurdu, başqa sözlə, *təsərrüfatçılıq prinsipi* geniş yayılmışdı, hərçənd ki, nadir hadisə də deyildi ki, tacir ev təsərrüfatı üçün və mağaza üçün ayrıca mühasibat kitabları aparırdı;

3) *hesabat dövrü* və *fəaliyyətdə olan müəssisə* anlayışları olmamışdı. Müəssisələrin çoxu öz fəaliyyətini müəyyən kommersiya məqsədlərinə çatana qədər davam etdirirdi, ona görə də mənfəət müəssisə fəaliyyətini qurtaranda hesablanırdı, hesabat ilinin mənfəəti anlayışı olmadan isə hesablama və təxirəsalınma əməliyyatlarına ehtiyac yox idi. Belə ki, əsas vəsaitlər nəzərəçarpacaq dərəcədə rol oynamırdı, amortizesiya hesablanmasına da ehtiyac yox idi. Daha uzun müddətə yaradılmış müəssisələrdə mənfəətin dövri olaraq hesablanmasına cüzi zəruriyyət var idi, çünki mülkiyyətçi müəssisənin fəaliyyəti ilə bilavasitə kontaktda olurdu;

4) nəhayət, orta əsrlərdə çoxlu sayda pul vahidləri var idi, bu da ikili mühasibatlığın istifadəsini çətinləşdirirdi, odur ki, Memorial kimi tanınmış uçot registrlərində yazılışlar təfsiredici xarakter daşıyırdı və mal haqqında ətraflı məlumatları, çəkini, həcmi, ölçü vahidini və qiyməti əks etdirirdi. FASB-ın hesabatda maliyyə alətlərinin

uçotu metoduna dair bu yaxındakı təklifləri onu təsdiq edir ki, birinci mühasiblər öz zamanını 500 il qabaqlamışlar" (9, s. 28).

Bu yazılanları oxuduqdan sonra bir daha əmin olursan ki, 500 ildən bəri uçotun nəzəriyyəsində elmi inqilab kimi, ya da köhnə paradiqma ilə yeni paradiqma arasında olan fərq kimi nəyisə göstərmək çox çətindir, ya da mümkün deyildir.

Əgər M.C.Uellsin hər sonrakı paradiqmasını onun əvvəlki paradiqması ilə müqayisəsi nəticəsində yaranan fərqi elmi nailiyyət kimi qəbul etsək, onda gərək T.Kunun özü paradiqmaya verdiyi tərifdən imtina etmiş olsun.

T.Kunun baxışlarının və konsepsiyasının mühasibat uçotu sistemində tətbiq edilməsinin qızğın tərəfdarları olan və onları aprobasiya etməyə cəhd edən təkcə Uells deyildi, onun tərəfdarları sırasında hətta Amerika Mühasiblər Assosiasiyası ( *AAA - American Association of Accountants*) və digər müəlliflər də var idi. AAA-nın nöqteyi-nəzərinə görə uçot fənni paradiqmalar müharibəsi dövrünü yaşamışdı və buna görə də, mühasibat uçotunun sonrakı inkişafı dövründə T.Kunun paradiqmalar konsepsiyasından istifadə etmək lazımdır. Həm də bu zaman AAA aşağıdakı üç nəzəri yanaşmanın olmasını qeyd edirdi: klassik, qərarların qəbulu üçün faydalılıq və informasiyanın iqtisadiyyatı (10, s. 84).

Digər müəlliflərin, məsələn, A.R.Belkauoninin paradiqmaları (11, s. 496-528) da bir çox cəhətdən Uellsin paradiqmalarını təkrarlayır, baxmayaraq ki, sintaksis cəhətdən ondan fərqlidir. Bu paradiqmalar da uçotun inkişafının tarixi mərhələlərini xarakterizə etmək kimi qiymətləndirilə bilər. Paradiqmalar arasında əlaqələrin kumulyativ xarakter daşımasını aydın sezmək olar. Bütövlükdə həmin paradiqmalarda uçotun nəzəriyyəsi və metodologiyasının inkişafına dair bir-birinə əks olan, yaxud bir-birini inkar edə biləcək ciddi model yoxdur. Formulə olunan paradiqmaların empirik metodlara söykəndiyi və sırf praqmatik xarakter daşıdığı aydın sezilir, bunlar isə uçot elminin inkişafında həlledici rol oynamır. A.R.Belkauoninin tarixi dəyərlə qiymətləndirmə metodundan deyil, bazar qiymətləri ilə qiymətləndirmə metodundan istifadə edilməsi təklifi isə uçotun nəzəriyyəsi və metodologiyasında nəinki inqilabi çevriliş kimi qəbul edilə bilməz, hətta adi və hamıya çoxdan məlum olan bir reallıq kimi qiymətləndirilməlidir, yəni real praktikada həm tarixi dəyərlə, həm də bazar qiymətləri ilə qiymətləndirmə bir-birinə alternativ metodlar kimi tətbiq olunur və onlardan birinin digəri ilə əvəz olunması əsassızdır. Tarixi dəyərin bazar qiymətləndirmə nəticəsində yaranan dəyərdən fərqlənməsi, ya da əhəmiyyətli dərəcədə fərqlənməsi əbədi bir proses deyil, özü də aktivlərin bütün növlərinə aid edilə bilməz. Bu məlum alternativ metod, yəni bazar qiymətləri ilə qiymətləndirmə əsasən və başlıca olaraq uzunmüddətli aktivlərə tətbiq oluna bilər.

Keçmiş Sovet İttifaqında paradiqmaya dair konsepsiyalar, fikir və yanaşmalar demək olar ki, T.Kunun paradiqması ətrafında Qərb ölkələrinin uçot üzrə alimlərinin tədqiqatları ilə eyni dövrdə meydana gəldi. Bu sahədə ilk dəfə öz fikrini bildirən Y.V.Sokolov və V.F.Paliy olmuşdur. Onlar "Mühasibat uçotunun nəzəriyyəsinə giriş"

adlı kitabda paradiqmaların dəyişilməsini və təsnifatını ancaq təfsir etmiş, özləri heç bir paradiqma irəli sürməmiş və bütövlükdə paradiqmalara uçotun metodologiyasının inkişafı baxımından yanaşmışlar.

Y.V.Sokolov XIV-XV əsrlərdə üç paradiqmanın olduğunu göstərirdi: *uniqrafik, kameral və diqrafik* (12, s. 42). Onun fikrincə, uniqrafik paradiqma təsərrüfat proseslərini natural ifadədə aparmaq ideyası üzərində qurulmuşdur, təsərrüfat hadisələri müxtəlif pul ölçmələri ilə qiymətləndirilirdi, bu da ümumi kəmiyyətləri, məsələn mənfəəti müəyyən etməyə imkan vermirdi. Y.V.Sokolov uniqrafik paradiqmanın inkişafının beş mərhələsini göstərirdi. Kameral uçot, uniqrafik və diqrafik uçot ilə paralel mövcud idi, bu zaman əsas diqqət kassa əməliyyatlarına və smetalara yönləndilirdi. Smetalar nəzərdə tutulanların (planların) faktlarla birlikdə, yəni vahid halda uçota alınmasını nəzərdə tuturdu. Gələcəkdə baş verəcək hadisələr artıq baş vermiş real hadisələrlə birlikdə uçota alınırdı.

Y.V.Sokolov diqrafik uçotun uniqrafik uçotdan doğmuş olduğunu göstərir və onun dediyinə görə, İ.Şer istisna olunmaqla tədqiqatçıların əksəriyyəti belə fikirləşir. Diqrafik uçot paradiqması, onun fikrincə, uçotun XVI əsrdən XX əsrin birinci yarısına qədər olan dövrüdür və bu dövr uçotda konseptual məntiqi cəhətdən süni məhdudiyyətlərin tətbiqi, baş verən təsərrüfat faktlarının bütünlüklə deyil, ən əhəmiyyətli olanlarının qeydə alınması ilə xarakterizə olunur və həmin dövrdə uçotun qeyri-dəqiq olan naturalist təxminliyi onun riyazi dəqiqliyi ilə əvəz olunur. Təxminən 25 il keçdikdən sonra Y.V.Sokolov öz paradiqmalarının adını və sayını dəyişdirir: 1) naturalist uçot; 2) kameral uçot; 3) patrimonal uçot; 4) ikili yazılış (13, s. 35-43).

Maraqlıdır ki, Y.V.Sokolov həmin paradiqmaların bu və ya digər təsərrüfat tiplərindən hansında tətbiq oluna biləcəyini təsərrüfatların öz ixtiyarına buraxırdı və göstərirdi ki, onlar özlərinə zəruri olan paradiqmaların ən yaxşısını seçə bilərlər.

Y.V.Sokolov təkcə paradiqmaların kəmiyyətini deyil, həm də onların adlarını tez-tez dəyişdirirdi və paradiqmaların tərifini gah ümumfəlsəfi nöqteyi-nəzərdən, gah da mühasibat uçotunun nəzəriyyəsi baxımından verirdi. Belə ki, birinci halda biz onun paradiqmalarına tarixi yanaşma baxımından (fəlsəfi yanaşma), ikinci halda isə sırf mühasibat uçotunun metodologiyası baxımından (realistik yanaşma) qiymət verə bilərik. Lakin onun paradiqmaları ad, kəmiyyət və tarixi baxımdan bir-birindən fərqlənsə də, Qərb ölkələrinin uçot alimlərinin paradiqmalarının məzmunundan heç nə ilə fərqlənmir. Onun irəli sürdüyü paradiqmalar arasında konkret kəsilmə nöqtəsi yoxdur, onlar bir-birindən doğur, onlar uçotun inkişaf mərhələlərini əks etdirir.

Digər alimlər, məsələn, V.V.Kovalyov Y.V.Sokolovun paradiqmalarını demək olar, eynilə təkrarlayır (14, s. 137).

V.D.Andreyev elm kimi mühasibat uçotunda paradiqmaları özünəməxsus mərhələlərə ayırır. Bu barədə onun fikrini olduğu kimi nəzərdən keçirək: “İstənilən elmi, o cümlədən mühasibat uçotunu öyrənərkən bir-birini əvəz edən paradiqmalardan çıxış edirlər. Onlar ardıcıl və ya paralel mövcud ola bilərlər. Mühasibat uçotunu öyrənərkən

biz XIII əsrə qədər sanki vahid paradiqma ilə qarşılaşırıq. XIV-XV əsrlərdə üç paradiqmanın mövcudluğu müşahidə edilir: uniqrafik (hesabdarlığın əsasında əmlak balansı durur), diqrafik (ikili hesabdarlıq) və kameral (hesabdarlığın əsasında kassanın uçotu durur). Uçotun XVI əsrdən XX əsrin birinci yarısına qədər olan tarixi - diqrafik paradiqma tarixidir" (15, s. 27-28).

V.D.Andreyevin paradiqmalarının təsnifatı da Y.V.Sokolovun təsnifatından kənara çıxmır, əsas fərq yalnız ondan ibarətdir ki, o, XIII əsrə qədər olan dövrün ayrıca paradiqmanı təşkil etdiyini göstərir, hərçənd ki, bu paradiqmaya ad vermir. Digər fərqi isə onda görürük ki, diqrafik paradiqma həm orta əsrlərdə, həm də XVI-XX əsrlərdə mövcud olmuşdur. Bu da o deməkdir ki, müəllif eyni paradiqmanı iki dövrə ayırır və beləliklə, o, özü sübut edir ki, burada paradiqma yoxdur. Başqa sözlə, V.D.Andreyevin məntiqinə əsasən, eyni bir paradiqmanın mövcudluğunu iki dövrə də ayırmaq olar. Bütövlükdə, adıçəkilən müəllifin paradiqmaların ardıcıl və paralel olaraq mövcud olması konsepsiyası paradiqmaya T.Kun tərəfindən verilən tərifə uyğun gəlmir, ona görə ki, paradiqmalar nəzəriyyəsinin yaradıcısı olan T.Kun bunun üçün aşğıdakı kriteriləri müəyyən etmişdir:

- paradiqmaları bir-birindən fərqləndirmək üçün onların arasında olmuş elmi inqilabı göstərmək lazımdır;
- bir paradiqmadan digərinə keçid anomaliyalar və böhranlar ilə müşayiət olunmalıdır.

V.D.Andreyevin kriteriləri bu kriterilərə uyğun gəlmir. Ən böyük uyğunsuzluq isə ondan ibarətdir ki, adıçəkilən müəllif paradiqmaların paralel olaraq mövcud ola biləcəyini göstərir, halbuki, bu, paralellik kimi yox, kumulyativ bir proses kimi qəbul olunmalıdır – indinin daxilində keçmiş mövcuddur, ya da vardır. Zənnimizcə, *indinin daxilində keçmiş vardır* tezisi mühasibat uçotunda paradiqmaların olub-olmamasını müəyyən etməyin ən etibarlı və aksiomatik kriterisi kimi qəbul olunmalıdır. Əgər sübut olunursa ki, indinin tərkibində keçmişin elementləri vardır və yeni paradiqma kimi təqdim olunan model, konsepsiya, elmi nailiyyət və s. həmin elementlər olmadan mövcud ola bilməz, onda şəksizdir ki, onlar paradiqma adlandırıla bilməz. Bizim irəli sürdüyümüz tezis T.Kunun paradiqmalar nəzəriyyəsinin mahiyyətinin başa düşülməsinə və onun tətbiqi zamanı ilkin tərifə əməl edilməsinə imkan verir.

Bəzi tədqiqatçılar uçotun nəzəriyyəsi və metodologiyasının öyrənilməsi baxımından onun dövriləşdirilməsinin qaçılmaz olduğunu qeyd edirlər. Əslində biz də paradiqmalar irəli sürmüş olan müəlliflərin öz paradiqmalarını dövriləşdirmə üzərində qurmuş olduqlarını gördük. Onlardan fərqli olaraq, K.Y.Tsıqankov tarixçi kimi mühasibat uçotunun bütövlükdə tarixinin iki dövr üzrə öyrənilməsini, deməli, əslində uçotun nəzəriyyə və metodologiyasının da həmin tarixlər çərçivəsində araşdırılmalı olduğunu göstərir.

K.Y.Tsıqankov uçot fikri tarixinin iki dövrə bölündüyünü onun özü tərəfindən deyil, tarixçilər tərəfindən irəli sürüldüyünü vurğulasa da, həmin dövrlərin ümumi və fərqli cəhətlərini çox geniş işıqlandırır. İki dövr aşağıdakılardır: a) uçotun ədəbiyyata qədər

olan dövrü; b) uçotun ədəbiyyat dövrü. Digər tarixçilər kimi, adıçəkilən müəllif də uçotun birinci dövr tarixinin, yəni ədəbiyyata qədər olan tarixinin 1494-cü ildə L.Paçiolinin traktatının çapdan çıxmasına qədər olan dövrdən, ədəbiyyat dövrünün isə həmin kitabın dərc olunmasından sonrakı dövrdən ibarət olduğunu göstərir. Həmin dövrləri o, aşağıdakı kimi bölüşdürməyi məqsədəuyğun hesab edir:
1. Ədəbiyyata qədər olan dövr: 1.1. Qədim Roma dövrü; 1.2. Orta əsrlər dövrü.
2. Ədəbiyyat dövrü:
2.1. Təqlidçilik dövrü (1494-1635) – Paçiolidən Floriyə qədər; 2.2. Müstəqilliyin yaranması dövrü (1636-1796) – Floridən Deqranja qədər; 2.3. Hesablar nəzəriyyəsi dövrü (1796-1930) – Deqranjdan sovet nəzəriyyəsinə və Amerika prinsiplərinə qədər olan dövr; 2.4. Ən yeni tarixi dövr – aksentin nəzəri axtarışlardan "yaxşı praktikaları" ümumiləşdirən normativ sənədlərin yaradılmasına keçirilməsi (16, s. 15).
Tarixçi alimin uçotun, onun nəzəriyyəsi və metodologiyasının inkişafının tarixi mərhələlərə bölgüsünə hörmətlə yanaşmaqla yanaşı, bəzi məqamları qeyd etməyi lazım bilirik:
1. Uçotun yazılı tarixinin L.Paçiolinin "Traktat" əsərindən başlandığını demək, zənnimizcə, düzgün olmazdı. Bunu deyəndə biz hansısa digər konkret yazılı mənbəyin olmasına əsaslanmırıq, ona əsaslanırıq ki, uçotun aparılması üçün hansısa qaydaların yazılı formada ola bilməyəcəyini təsəvvürə gətirmək çətindir. Bu, o demək olardı ki, 5-6 min illik tarixi olan uçotun aparılması qaydaları yalnız hafizələrdə, yaddaşlarda mövcud olmuşdur və deməli, həmin qaydaları yalnız L.Paçioli birinci dəfə yazılı şəkildə çap etdirmişdir. Məlumdur ki, L.Paçioli traktatda təkcə ikili yazılışı əsaslandırmamışdır, həm də o zamana qədər olan uçot qaydalarını ümumiləşdirmişdir və bu zaman sözsüz ki, hansısa yazılı mənbədən istifadə etmişdir.
2. K.Y.Tsıqankov "sovet nəzəriyyəsi"ni uçotun ədəbiyyat dövrünün tərkib hissəsi kimi göstərir. Müəllif açıqlamamışdır ki, mühasibat uçotunun sovet nəzəriyyəsi nə yaratmışdır və bu nəzəriyyənin yaratdığı metodologiyanın əvvəlki metodologiyadan fərqi nədən ibarətdir. Söhbət ondan gedir ki, K.Y.Tsıqankov özünün "История учетной мысли" adlı 2015-ci ildə çap etdirmiş olduğu kitabda belə fərqlərin olduğunu, texniki üsulların uçotun metodologiyasına əlavə olunması ilə əsaslandırır. Onları fərq kimi götürməyin özü uçotun nəzəriyyəsi və metodologiyasını bəsitləşdirməkdən başqa bir şey deyildir. Müəllif göstərir ki, kapitalist "Hesablar nəzəriyyəsi"nin mərkəzində duran ikili yazılışın, hesabların və balansın birlikdə adı, yəni hesablar nəzəriyyəsinin adı dəyişdirilərək daha düzgün termin olan "mühasibat uçotunun metodu" termini ilə əvəz edildi və onlar həmin metodun elementləri kimi adlandırıldı (16, s. 263). Daha sonra, müəllif göstərir ki, "… ilkin olaraq mühasibat uçotunun metoduna yalnız üç element daxil idi: balans, hesablar və ikili yazılış. Ancaq sonradan onlar daha beş element ilə tamamlandı: hesabat ilə (yenə də balansla sıx əlaqədə olan element), həmçinin qiymətləndirmə və kalkulyasiyalaşdırma, inventarlaşdırma və sənədləşdirmə ilə" (16, s. 264).

Sual meydana çıxır – kapitalist uçot sistemində qiymətləndirmə, kalkulyasiyalaşdırma, inventarlaşdırma və sənədləşdirmə istifadə olunmurdumu? Yəqin ki, bu sualın qoyuluşunun özü belə məntiqə sığmır, çünki heç bir sübuta ehtiyac yoxdur ki, onların hamısı sovet nəzəriyyəsindən əvvəlki uçot sistemi tərəfindən yaradılmışdır. Ona görə də onları uçotun metodunun elmentləri kimi göstərilməsini qətiyyən metodologiyanın dəyişildiyi kimi xarakterizə etmək olmaz. Bundan əlavə, qiymətləndirmə istisna olunmaqla kalkulyasiyalaşdırmanın, inventarlaşdırmanın və sənədləşdirmənin metodun elementləri kimi qəbul edilməsi düzgün deyildir, zira onlar kəmiyyətyaradıcı element kimi deyil, sadəcə olaraq mövcud olan informasiyanın təsnifləşdirilməsi üçün istifadə olunan texniki üsullardır. Necə ki, şeirin yazılması formaları olan əruz vəzni və heca vəzni şeirin mənasını dəyişdirmir və onlar yalnız şeirin yazılmasının texniki tərəflərini əks etdirir, eləcə də həmin anlayışlar heç bir məna yükü daşımır, yalnız texniki priyomlar kimi qəbul edilə bilər.

Ümumiyyətlə, sovet uçot nəzəriyyəsinin məhsulu olan və təəssüf ki, indi də mühasibat uçotuna dair ədəbiyyatlarda istifadə olunan "mühasibat uçotunun metodu və onun elementləri" ifadəsi tamamilə semantikasız və qeyri-praqmatik xarakterli bir anlayışdır. Əvvəla, digər elm sahələrində olduğu kimi, metod sözü yalnız bir üsulu ifadə edir və bu bir üsul ilə insanların, müəssisə və şirkətlərin fəaliyyəti haqqında informasiya formalaşdırmaq olmaz, bunu yalnız bir çox metodların birgə, yaxud ardıcıl və paralel tətbiqi yolu ilə etmək olar. İkincisi, sənədləşdirmə, kalkulyasiyalaşdırma və inventarlaşdırma təkcə yalnız mühasibat uçotu sistemində tətbiq edilmir və buna görə də, onları mühasibat uçotunun adına yazmaq və beləliklə də onun metodologiyasını daha çox texniki nüans xarakteri daşıyan anlayışlarla "zibilləmək" düzgün deyildir. Əgər bütün uçot sistemində informasiya formalaşdırmağın məcmusunun metod olduğunu qəbul etsək, onda metodologiyaya nəyi daxil ediləcəyi aydın deyil. Yəqin ki, bunu nəzərə alaraq sovet uçotunun görkəmli nəzəriyyəçiləri kimi qəbul olunan V.F.Paliy və Y.V.Sokolov keçən əsrin sonlarından başlamış "mühasibat uçotunun metodu" anlayışı əvəzinə "mühasibat uçotunun metodologiyası" anlayışını istifadə edirdilər, baxmayaraq ki, onlar metodologiyanı dar çərçivəyə salırdılar: "Metodologiya mühasibat uçotunda aşağıdakı əsas elementlərlə təmsil olunmuşdur: hesablar, balans və ikili yazılış … Mühasibat uçotunun digər beş elementinə (sənədləşmə, inventarizasiya, kalkulyasiya və hesabata) gəldikdə, onlar da həmçinin müəyyən metodoloji məzmun daşıyırlar" (17, s. 239). Əgər mühasibat uçotu empirik xarakter daşıyıb-daşımamasından asılı olmayaraq, elm adlandırılırsa və bir elm kimi onun funksiyası müəyyən məqsədlər üçün informasiya formalaşdırmaqdan ibarətdirsə, onda mühasibat uçotu elmi də ümumelmi metodlar kimi hamılıqla qəbul edilmiş *induksiya və deduksiya, analiz və sintez, analogiya, ümumiləşdirmə, ideallaşdırma, tipologiyalaşdırma (təsnifləşdirmə), müqayisəetmə* və bunlarla yanaşı həmin elmin özünə xas olan metodlardan istifadə etdiyini demək lazımdır. Bütün bunların hamısı isə birlikdə uçotun metodologiyasını yaradır.

Sovet uçot sisteminin davamı kimi, hazırda postsovet məkanında, məsələn, Rusiya Federasiyasında, Azərbaycanda və digər MDB ölkələrində dərc edilmiş dərsliklərdə mühasibat balansı da uçotun metodunun elementlərinə daxil edilir. Tarixçi K.Y.Tsıqankovun məlumatına görə, balans 1930-cu ildən nəzəriyyədən metodun elementləri sırasına keçirilirdi (16, s. 264). Yəqin ki, balansın nəzəriyyədən metodun elementinə çevrilməsi sovet uçot sisteminin çox böyük metodoloji çatışmazlıqlarından biri kimi qəbul edilməlidir. Balans özü nəticəni əks etdirir və o, ümumiləşdirmə metodunun tətbiqi nəticəsində yaranır. Balans maliyyə vəziyyətini əks etdirir, halbuki, heç bir ümumi, yaxud xüsusi metodun köməyilə maliyyə vəziyyətini müəyyən etmək olmaz. Balansın məzmunu bir çox metodoloji elementlərin qarşılıqlı əlaqəsi nəticəsində formalaşa bilər. Mühasibat balansı mühasibat uçotunun məqsədlərindən birinin – maliyyə vəziyyəti haqqında informasiyanın formalaşdırılması üçün nəzərdə tutulan göstəricilərin kəmiyyətini əks etdirirsə, yaxud da həmin informasiyanın həmin məqsəd üçün təsnifatıdırsa, təsnifat özlüyündə metodoloji xarakter daşımır, daha çox nəzəri xarakter daşıyır.

K.Y.Tsıqankovun sovet nəzəriyyəsi adı altında nəzərdən keçirdiyi konkret anlayışlar və terminlər, onların ifadə etdiyi mahiyyətlər, daşıdığı funksiyalar özlüyündə yeni nəzəri və metodoloji yeniliklər yükü daşımır, sadəcə olaraq çoxdan məlum olan və aksiomatik forma almış simvolların, heroqliflərin onun özü tərəfindən qarmaqarışıq vəziyyətə salınıb, sonra isə tarixoqrafiya üsulu ilə ardıcıl düzülüşündən başqa bir şey deyildir. Bunu müəllifin özü də dolayı yolla təsdiq edir. Belə ki, o, uçotun ədəbiyyata qədər olan dövrü ilə ədəbiyyat dövrünün arasında fərqi onda görür ki, ədəbiyyata qədər olan dövrdə (Traktat da bu dövrün məhsulu kimi qəbul edilir) uçotun əsasları sonrakı altı əsrdə inkişaf etdiyindən daha çox inkişaf etmişdir. Bu müddəanı onun öz dilindən eşitmək daha düzgündür: "XIV yüzilliyin uçot kitablarının tədqiqi tarixçiləri təəccübləndirən nəticələrə gətirib çıxartdı: uçotun onlarda təsvir olunan səviyyəsi müasir uçotun səviyyəsindən çox cüzi şəkildə aşağıdır. Bu, o deməkdir ki, son altı yüzillikdə mühasibat uçotunun əsasları baxımından elmi biliklərin artımı cüzi olmuşdur, uçot fikrinin bütün nailiyyətləri demək olar ki, ədəbiyyata qədər olan dövrdə olmuşdur" (16, s. 13-14).

Bu sözləri düzgün olaraq fikirləşib yazan alim sovet uçot nəzəriyyəsinin yarandığından necə danışa bilər, yaxud bunu deməyə onun haqqı varmı? Axı sovet uçot nəzəriyyəsinin olması əslində və birmənalı olaraq onu təsdiq etməyə əsas verir ki, sovet uçot sistemi özündən əvvəlki bütün uçot sistemindən heç nə götürmədən yaranmış yeni sistem, yaxud yeni nəzəriyyə və metodologiya olmuşdur. Buradan nəticə çıxır: K.Y.Tsıqankov uçotun ümumi tarixi inkişafı baxımından paradiqmanın olmadığını, sinfi baxımdan isə paradiqmanın mövcud olmuş olduğunu təsdiq edir. İnformasiya formalaşdırmaq vasitəsi kimi qəbul olunacaq mühasibat uçotu istismar vasitəsi kimi qəbul oluna bilməz. Ümumfəlsəfi və ümumbəşəri xarakter daşıyan elmlər, o cümlədən mühasibat uçotu özlüyündə sinfi xarakter daşıya bilməz. Necə ola bilər ki, bəzi alimlər üçün vurma cədvəli kapitalizm, digərləri üçün isə sosializm metodu kimi çıxış etsin.

Son altı əsrdə uçotun nəzəriyyəsi və metodologiyasının inkişafının ümumi elmlərin inkişafından geri qalması barədə də müəllifin fikrini birmənalı qarşılamaq olmaz. Zira, sürətli inkişaf ilə əlaqədar ağlasığmaz dərəcədə artmış informasiyanın formalaşdırılması və bunun əsasında da iqtisadi qərarların qəbul edilməsi XIV-XV əsrlərdən qalan sistemin tədricən təkmilləşdirilməsinin sayəsində olmuşdur. Uçot elmi, onun nəzəriyyəsi və metodologiyası cəmiyyətin iqtisadi və sosial inkişaf meyillərini birbaşa müəyyən etməsə də, mövcud vəziyyətin qiymətləndirilməsi üçün kifayət qədər faydalı informasiya formalaşdırmaq imkanına malikdir. Başqa məsələdir ki, uçot nəzəri və praktiki elm olmaq etibarı ilə heç bir zaman cəmiyyətin inkişafını qabaqlamamışdır, bu, mümkün də deyildir. Uçotun nəzəriyyəsi bilavasitə proqnoz vermək üçün təyin olunmuş nəzəriyyə deyildir, o, proqnoz vermək üçün yaradılmış və proqnoz verən iqtisad elmlərinin proqnozlarının praktiki olaraq həyata keçirilmiş olduğunu müəssisə və şirkətlərin informasiyası bazasında faktlarla təsdiq etməyə, ya da inkar etməyə imkan verən dilin nəzəriyyəsidir.

Uçotun nəzəriyyəsi və metodologiyası iqtisadi fəaliyyət zamanı yaranan yeni obyektlərin, hadisə və faktların barəsində məlumatların yığılması, təsnifatı və ümumiləşdirilməsi sistemi kimi onlardan əvvəl yarana bilməz. Məsələn, iqtisadi və ixtiyari hüquqların məcmusu olan qeyri-maddi aktivlər yaranmadan onların uçotu metodologiyası yarana bilməzdi. Uçot sahəsində bütün dövrlərin az qala yeganə və ən böyük kəşfi kimi qəbul oluna biləcək ikili yazılış da iqtisadi inkişafın nəticəsi, həm də onun təhlili və qiymətləndirilməsinin zəruriliyi fonunda meydana çıxdı. İqtisadiyyatla məşğul olan hər bir tacir, sahibkar, mülkiyyət sahibi, yaxud təsərrüfat qurumu, şirkət öz biznesinin faydalı olub-olmamasını, maliyyə vəziyyətini, maliyyə nəticələrini təhlil etmək və qiymətləndirmək zərurəti ilə üzləşirdi. Digər tərəfdən, biznes inkişaf etdikcə, əmək bölgüsü dərinləşdikcə, beynəlxalq ticarət artdıqca onların idarə olunması üçün müvafiq informasiyaya ehtiyac yarandı. İkili yazılış məhz göstərilən səbəblərdən meydana çıxmışdı.

Uçotun nəzəriyyəsi və metodologiyasının "zəif inkişafı", bir çox alimlərin iddia etdiyi kimi, onların həqiqətən zəif olduğunu deyil, bütövlükdə onların bir sistem kimi mükəmməl əsaslar üzərində qurulduğuna sübutdur. Ola bilər ki, uçot elmi öz inkişafında dəqiq elmlər sayılan fizika, riyaziyyat elmlərinin və bir çox təbiət elmlərinin inkişafından geri qalsın. Ancaq heç bir digər iqtisad elmləri fonunda uçot elmi nəinki zəif deyil, hətta mübaliğəsiz demək olar ki, öz üzərinə düşən vəzifəni, informasiya formalaşdırmaq funksiyasını kifayət qədər uğurla yerinə yetirir. Bir sözlə, uçot fikrinin ədəbiyyata qədər olan dövrdə çox böyük informasiya texnologiyaları kimi sürətlə inkişaf etməsi, sonrakı uzun bir dövrdə isə staqnasiya vəziyyətinə gəlməsi və bu vəziyyətin indi də davam etməsi barədə tarixçi K.Y.Tsıqankovun və ounn fikrini bölüşdürənlərin mövqeyini qəbul etmək olmaz.

## Nəticə

Uçot sistemində paradiqmalar adı altında irəli sürülən və əsaslandırılan müddəalar, baxışlar uçotun nəzəriyyəsi və metodologiyasında hansısa konsepsiyanın, prinsipin və qaydanın inkar olunmasına səbəb olmamışdır. Paradiqma kimi əsaslandırılan tezislər ən yaxşı halda uçotun inkişaf mərhələlərinin təfsiridir. Mərhələli inkişafı isə tarixi yanaşma kimi qəbul etmək düzgün deyil, çünki tarixi yanaşmaya görə, bir modelin meydana gəlməsi digərinin fəaliyyətinin tam dayandırılmasına gətirib çıxarmalıdır. *İndinin daxilində keçmiş vardır* tezisi mühasibat uçotunda paradiqmaların olub-olmamasını müəyyən etməyin aksiomatik kriterisi kimi qəbul edilə bilər. Uçot və hesabatın inkişafı fasiləsiz və kumulyativ əsasda baş verir və burada hansısa elmi inqilabdan danışmağın yeri yoxdur.

**Ədəbiyyat**

1. Краткий словарь по философии / Авт. Сост. Н. Н. Рогалевич. – Минск: Харвест, 2008. – 832 с.;
2. Кун Т. Структура научных революций / Томас Кун; пер. с англ. И. З. Налетова. – М.: АСТ, Москва, 2009. – 317 [3] с.;
3. Фараджев А. К. Лекции по курсу «Бухгалтерского учета». Баку – Азернешр – 1948. – 286 с.;
4. Мэнкъю Н. Г. Принципы экономикс.4-е изд. / пер. с англ. А. Смольского, О. Табеловой. СПб.: Питер, 2009.- 672 с.:ил;
5. Поппер К. Логика научного исследования. – М.: АСТ: Астрель, 2010. – 565с.;
6. Chambers R. J. Profit Measurement, Capital Mainfenance and Service Potensial: A Review Article // ABACUC. 1975. №1p. 97 – 104;
7. Sterling R. R. A Statement of Basic Accounting Theory: A Review Article // Journal Accountinq Research. 1969. №5. p.95 – 112;
8. Wells M. C. Revolution in Accounting // The Accounting Review. 1973.№3. p.471 – 482.;
9.Хендриксен Э. С. , Ван Бреда М. Ф. Теории бухгалтерского учета: Пер. с англ. / Под ред. проф. Я. В. Соколова. - М.: Финансы и статистика, 1997. – 576 с.: ил.;
10. Мэтьюс М. Р., Перера М. Х. Б. Теория бухгалтерского учета: Учебник / Пер. с англ. под ред. Я. В. Соколова, И. А. Смирновой. – М.: Аудит, ЮНИТИ,1997. – 408 с.;
11. Belkoui A. R. Accounting Theory. London, 1992. – 539 p.;
12. Соколов Я. В. История развития бухгалтерского учета. – М.: Финансы и статистика, 1985. - 367 с.;
13. Соколов Я. В. Типы хозяйства и их влияние на организацию бухгалтерского учета // Бухгалтерский учет в сельском хозяйстве. 2008.№4, с. 35-43;
14. Ковалев В. В. Финансовый учет и анализ: концептуальные основы. - Финансы и статистика, 2004. – 720 с. : ил.;
15. Основы научных исследований в бухгалтерской деятельности. - М.: Экономисть, 2003. - 208 с.;
16. Цыганков К. Ю. История учетной мысли / К. Ю. Цыганков: М.: Магистр: ИНФРА – М, 2015. – 544 с.;
17. Палий В. Ф., Соколов Я. В. Теория бухгалтерского учета. М.: Финансы и статистика,1988. – 360 с.;
18. Пачоли Л. Трактат о счетах и записях / под ред. М. И. Кутера.М.: Финансы и статистика, 2009. – 308 с.;

# НЕКОТОРЫЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ НЕЙРОМАРКЕТИНГА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

*Daxil olub: 28 mart 2023-cü il*
*Qəbul olunub: 14 sentyabr 2023-cü il*
*Received: 28 March 2023*
*Accepted: 1 September 2023*

***Эльдар Гулиев[1], Гусейн Гашимов[2]***
*[1]Д-р филос. по экон., доцент кафедры «Экономика», UNEC, [2]Д-р филос. по экон, доцент кафедры «Экономика», UNEC*
*[1]eldargeorgia1948@mail.ru,*
*[2]huseyn_hashimov@mail.ru*

## Резюме

Статья посвящена новому направлению применения достижений маркетинговой науки с использованием нейротехнических средств и технологий в исследовании и дальнейшем регулировании потребительского поведения в странах мира и, в частности, в Азербайджанской республике. В статье также раскрывается алгоритм практического применения нейромаркетинга, освещаются основные средства и методы нейромаркетинга, а также объекты и области нейромаркетинговых исследований. Особое место отведено вопросам расчета коммуникативной и экономической эффективности элементов маркетинговой коммуникационной системы, в том числе с использованием нейротехнологий. Кроме того приведен некоторый анализ состояния и перспектив развития нейромаркетинга в Азербайджанской республике.

***Ключевые слова:*** *бизнес, маркетинг, маркетинговые коммуникации, мотивация, покупательское поведение.*

# AZƏRBAYCAN RESPUBLİKASINDA NEYROMARKETİNQİN BƏZİ PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Eldar Quliyev[1], Hüseyn Həşimov[2]***
*[1]i.ü.f.d., dosent, İqtisaidyyat kafedrası, UNEC*
*[2]i.ü.f.d., dosent, İqtisaidyyat kafedrası, UNEC*
*[1]eldargeorgia1948@mail.ru, [2]huseyn_hashimov@mail.ru*

## Xülasə

Məqalə dünya ölkələrində və xüsusən də Azərbaycan Respublikasında istehlakçı davranışının öyrənilməsi və gələcək tənzimlənməsində neyrotexniki alətlər və texnologiyalardan istifadə etməklə marketinq elminin nailiyyətlərinin tətbiqinin yeni istiqamətinə həsr edilmişdir. Məqalədə neyromarketinqin praktiki tətbiqi alqoritmi açıqlanır, neyromarketinqin əsas alətləri və metodları göstərilir, həmçinin neyromarketinq

tədqiqatının obyektləri və sahələri işıqlandırılır. Marketinq kommunikasiyası sisteminin elementlərinin, o cümlədən neyrotexnologiyalardan istifadənin kommunikativ və iqtisadi səmərəliliyinin hesablanması məsələlərinə xüsusi yer verilir. Bundan əlavə, Azərbaycan Respublikasında neyromarketinqin vəziyyəti və inkişaf perspektivlərinin müəyyən təhlili verilmişdir.

***Açar sözlər:*** *biznes, marketinq, marketinq kommunikasiyaları, motivasiya, alıcıların davranışı.*

## SOME PROBLEMS AND PROSPECTS FOR THE DEVELOPMENT OF NEUROMARKETING IN THE REPUBLIC OF AZERBAIJAN

***Eldar Guliyev[1], Huseyn Hashimov[2]***
*[1]PhD in Economics, Associate Professor, Department of Economics, UNEC*
*[2]PhD in Economics, Associate Professor of the Department of Economics, UNEC*
*[1]eldargeorgia1948@mail.ru, [2]huseyn_hashimov@mail.ru*

**Summary**
The article is devoted to a new direction of applying the achievements of marketing science using neurotechnical tools and technologies in the study and further regulation of consumer behavior in the countries of the world and, in particular, in the Republic of Azerbaijan. The article also reveals an algorithm for the practical application of neuromarketing, highlights the main tools and methods of neuromarketing, as well as objects and areas of neuromarketing research. A special place is given to the issues of calculating the communicative and economic efficiency of the elements of the marketing communication system, including the use of neurotechnologies. In addition, some analysis of the state and prospects for the development of neuromarketing in the Republic of Azerbaijan is given.

***Keywords:*** *business, marketing, marketing communications, motivation, purchasing behavior.*

Маркетинг, как наука является функциональной областью менеджмента. Исследования и разработки данной учебной дисциплины, т.е. маркетинга направлены на выявление рыночных возможностей, угроз и неопределенностей, связанных с окружающей рыночной средой. В связи с этим, маркетинг занимается изучением спроса, предложения, цен, конкурентного режима на рынке, каналов распределения и реализации продукции, определением стратегии товарной политики и многими другими проблемами, обеспечивающими выживаемость бизнес

образований и некоммерческих структур в условиях усиливающейся конкуренции и неопределенностей в общественно-экономической системе рыночных отношений.

В процессе проведения своих исследований и разработок современная маркетинговая наука прибегает к средствам и методам, перенятым из многих учебных дисциплин. В состав последних обычно относят диалектический материализм, общенаучные экономико-статистические методы (системный анализ, программно-целевой подход, комплексный подход и др.), аналитико-прогностические методы (линейное программирование, теория взаимосвязей, теория массовых услуг, деловые игры, экономико-математическое моделирование и пр.), методы, перенятые из других научных направлений (социологии, психологии, эстетики, дизайна, экологии и других дисциплин). Однако, как показывает опыт, степень достоверности данных исследований и разработок зачастую резко рознятся от конечных реальных результатов. Поэтому, в целях повышения уровня приближенности прогнозируемых на основе маркетинговых исследований показателей, ученые - исследователи пытаются применять научно-практические достижения, в том числе технические средства, системы и методы изучения всевозможных рыночных и прочих процессов, сделанные на основе применения современных ИКТ. Подобные маркетинговые изыскания были проведены профессором Роттердамского университета Эразма Эйлом Смидтсом еще в 2002 году, которые стали называться «нейромаркетингом», хотя сама концепция данного направления маркетинга была выдвинута учеными Гарвардского университета США, исследующими в 90-х годах XX века психологию человека и покупательское поведение потребителей товаров и услуг.

В сущности, нейромаркетинг является одним из новых развивающихся и совершенствующихся инструментов в системе управления рыночными отношениями потенциальных продавцов и покупателей *(Customer Relationship Management - CMR)* [1]. Поэтому объектом исследований в данной области, как и в этой статье, выступают различные нейротехнологии вкупе с их практическим применением в маркетинговой деятельности. Предметом же исследования каждой исследовательской работы, связанной с нейромаркетингом, обычно является изучение количественных и качественных составляющих, отражающих степень воздействия средств и методов нейромаркетинга на рыночный выбор покупателя.

**Алгоритм применения нейромаркетинга обычно состоит из следующих компонентов:**

1. Маркетинговые раздражители (реклама, стимулирование продаж, товары и услуги, система распространения и др.).
2. Технические средства, улавливающие ответные реакции, в частности, из

просмотров реальных клиентов выставленных на продажу товаров и «черного ящика» сознания покупателя.

3. Чтение, расшифровка и интерпретация сведений технических средств улавливателей покупательских реакций.
4. Ответные реакции и мероприятия продавцов товаров и услуг на проведенные нейромаркетинговые исследования.
5. Слежение за результатами используемых нейротехнологий и нейромаркетинговых мероприятий.
6. Оценка эффективности технических средств и проведенных нейромаркетинговых работ.
7. При необходимости корректировка проведенных нейромакетинговых мероприятий.

В состав нейромаркетинговых коммуникаций входят все органы чувств человека (умение видеть, слышать, нюхать и чувствовать).

В своих исследованиях нейромаркетинг использует различные средства и методы (рис.1) [3].

Как видно из приведенного рисунка, нейромаркетинг, в процессе своих исследований и разработок активно использует современные технические достижения, применяемые для изучения параметров отклонения мозгового и общего физического состояния человека от принятых среднемедицинских норм.




**Рисунок 1. Основные средства и методы нейромаркетинга**

Из выше отмеченного можно предположить, что объектами применения нейромаркетинга могут быть в первую очередь люди и их потребительское поведение, рекламные послания и их эффективность, производимые товары и услуги, которые создаются с учетом покупательских требований, управленческие системы и пр.

Целью нейромаркетинга является повышение степени достоверности проводимых маркетинговых исследований, направленных на обеспечение устойчивого развития производственно-коммерческой деятельности бизнес структур и стабилизации темпов получаемой ими прибыли. Данная цель всецело совпадает с целью современного менеджмента, ориентированного на рынок. Путь к достижению данной цели лежит через маркетинговые исследования покупательского поведения посредством применения современных индикаторов, вернее технических средств, фиксирующих их движения, взоры на демонстрируемые предметы и окружающую среду, отклонения в сердцебиении и психологии в результате увиденного и услышанного и т.п.

В перспективе, развитие науки, техники и технологии с использованием ИКТ будет способствовать процветанию нейромаркетинговых исследований и повышению общей экономической эффективности применения достижений маркетинговой науки в бизнес-деятельности. Повышение же уровня технического и технологического обеспечения нейромаркетинговых исследований может привести к усилению роли маркетинговой науки в решении проблем, связанных с развитием и размещением производительных сил, проведением углубленной социально ориентированной политики со стороны местных органов и госструктур в различных странах мира и др. (рис. 2).




**Рисунок 2. Области применения нейромаркетинга**

Конечно, сферы практического применения нейротехнологий из года в год продолжат расширяться и в будущем могут охватить все отрасли национальной экономики и области деятельности населения не только Азербайджанской республики, но и каждой страны.

В целом, нейромаркетинг считается не новым типом маркетинга, а новым, более научно обоснованным способом и методом изучения поведения населения и покупательского спроса потенциальных покупателей товаров и услуг с использованием комплекса и растущих достижений, как маркетинговой науки, так и новых открытий в физике, биологии, биоинженерии, неврологии, психологии и прочих дисциплин [1].

Не смотря на все свои достоинства технологий нейромаркетинга, как нам представляется, и это отмечают некоторые практические работники в данной области, они, т.е. эти технологии встречают те или иные критические замечания. Данные замечания в основном сводятся к следующему:

1. Недостаточная проработанность технологий нейромаркетинга.
2. Необходимость значительных затрат средств и времени на создание технических средств и апробацию технологий нейромаркетинга.
3. Сомнительное отношение пользователей к практической ценности технологий нейромаркетинга, хотя создатели данных технологий в своих рекламных посланиях твердят обратное.
4. Сложность научной оценки реакции покупателей на те или иные рыночные раздражители спроса с использованием нейромаркетинговых технологий, применяемых со стороны продавцов.
5. Негативная оценка нейромаркетинга со стороны ряда критиков системы рыночных отношений и современного менеджмента, видящих в нем своеобразную «уловку» менеджеров и маркетологов, направленную на беспочвенное наращивание объема получаемой прибыли.
6. Отсутствие гарантий использования результатов нейромаркетинговых исследований не для улучшения качественных параметров производимых товаров и услуг, а для проникновения в частную жизнь покупателя и внутреннее «Я» человека, что с этической точки зрения считается неправоверным деянием.

В условиях усиления конкуренции и конкурентной борьбы на мировом рынке интерес к нейромаркетингу и исследованиям в данной области со стороны субъектов рыночной экономики из года в год возрастает. В частности, данная тенденция прослеживается в том, что в течение последних примерно десяти и более лет общие расходы на нейромаркетинговые исследования во всем мире продолжали увеличиваться [4].

Последнее сказалось на том, что глобальный рынок нейромаркетинга в 2020 году достиг 1 158, 37 млн долларов США. Как прогнозируют исследователи, среднегодовой темп роста данного рынка будет сохраняться на уровне 8,89 % до 2027 года достигнет 1896,1 млн долларов США [5].

В наши дни, рост вкладов на нейромаркетинговые исследования и возрастание этого глобального рынка в основном можно связать с развитием и совершенствованием ИКТ, с действием закона тенденции нормы прибыли к понижению, с принятием со стороны отдельных госструктур жестких мер по ограждению экономики собственных стран от разрушительных последствий инфляционных процессов и войны между Россией и Украиной, носящей фактически мировой характер и другими причинами.

В условиях глобализирующейся и перестраивающейся мировой экономики серьезные изменения претерпевают и рынки соответствующих товаров и услуг, а вкупе с ними изменению подвергаются и объекты приложения менеджмента и маркетинговой науки. В частности, появившийся совсем недавно рынок нейромаркетинга, стал делиться по отдельным сегментам на отраслевой основе конечных пользователей, куда входят система страхования, банковский сектор со своими финансовыми услугами, области некоммерческого маркетинга, рынки движимого и недвижимого имущества, системы оптовой и розничной торговли, научно-исследовательские центры, маркетинги мест и организаций, конечные покупатели и др.

В какой бы области не применялся нейромаркетинг его цель продолжает совпадать с целями менеджмента и маркетинга, которые сводятся к стабилизации и наращиванию прибыли в условиях повышения экономической эффективности совокупных расходов на рекламу и продвижение предлагаемых покупателям товаров и услуг.

Как уже отмечалось, нейромаркетинг является относительно новым прикладным направлением применения достижений, как современной маркетинговой науки, так и технологий, созданных на основе передовых разработок специалистов в области нейрофизиологи, нейропсихологии, ИКТ и других наук. Стоит обратить внимание на то обстоятельство, что воссоздание капиталистической системы хозяйствования на бывшем постсоветском пространстве, в том числе в Азербайджанской республике совпало во времени с стремительными изменениями не только в мировой экономике и межгосударственных отношениях, но и новыми фундаментальными научно-техническими разработками ученых мира, венцом которых можно считать стремительное развитие информатики, а также создание на ее базе не только нейро-, но и других технологий, поднявших

научно-исследовательскую базу всех учебных дисциплин и инженерных разработок на более качественный уровень. Все эти обстоятельства позволили нашей Азербайджанской республике удачно воспользоваться плодами этих прогрессивных преобразований и выиграть время на формирование у себя в стране устойчивой общественно-экономической системы, ориентированной на общечеловеческие ценности.

Поэтому, не случаен тот факт, что известный ныне психолог-исследователь и консультант в области нейротехнологий Бабек Байрамов в 2013 году заложил основу первой в нашей стране Нейромаркетинговой исследовательской компании NLP Center. Между тем, как показывают исследования, технические средства и технологии нейромаркетинга в Азербайджане практически применяют повсеместно, как бы «по моде». Однако, насколько профессионально и эффективно ими пользуются в относительно небольших структурах, предприятий и организаций трудно судить.

Хотя в крупных и разветвленных супермаркетах, таких как «Браво» («Bravo»), «Нептун Стор» («Neptun Store»), «Базарстор» («Bazarstore»), «Араз Супермаркет» («Araz Supermarket»), «Бизим Маркет» («Bizim Market»), «Стар Супермаркет» («Star Supermarket») и др., в которых налажена система централизованного управления отношениями с потенциальными и реальными покупателями, со стороны профессиональных маркетологов, инструментариями нейромаркетинга пользуются более целенаправленно и эффективно [6].

Результаты проведенных локальных опросов продавцов, покупателей и наблюдений в торговых центрах за работой применяемых в них нейро-технических средств подтверждают наличие множества неопределенностей и проблем, связанных с практическим применением нейромаркетинга. Все достоинства, недостатки, а также раскрывающиеся возможности и угрозы рыночного характера, связанные с реализацией нейромаркетинговых программ наиболее ясно видны из нижеприведенного SWOT-анализа.

Как известно, SWOT – анализ является относительно доступным и простым способом нахождения ответов на многие актуальные вопросы, связанные с теми или иными проблемами и обстоятельствами. Подобный анализ требует заполнения некоей матрицы, состоящей их четырех ячеек: сильные стороны (*Strengths),* слабые стороны (*Weaknesses*), рыночные возможности (*Opportunities*) и рыночные угрозы (*Threats*) [7].

Технику, технологию и всю практику нейромаркетинга можно отнести к новым дополнительным элементам общей маркетинговой коммуникационной системы, обладающей коммуникационными, экономическими и социальными эффективностями [8].

**Таблица. SWOT – анализ состояния и перспектив применения нейромаркетинга в Азербайджане**

| | |
|---|---|
| **Сильные стороны** (Strengths):<br>- устойчивость политической и экономической системы;<br>- наличие сформированной системы регуляторов рыночных отношений в обществе, в том числе соответствующей правовой базы, рыночной инфраструктуры, исполнительных и контролирующих структур;<br>- наличие государственной поддержки развития не только крупного, но и среднего и малого бизнеса;<br>- высокий уровень мотивации бизнеса к наращиванию прибыльности в условиях роста конкуренции и конкурентной борьбы, а также неуклонного сокращения нормы прибыли, получаемой на рынке;<br>- наличие рынка нейромаркетинговых технологий и технических средств;<br>- существование определенного опыта практического применения нейромаркетинга.<br>- относительно высокая финансово – экономическая обеспеченность структур, применяющих широкий набор средств маркетинговых коммуникаций, в т.ч. нейротехнологий и т. д. | **3. Рыночные возможности** (Opportunities):<br>-возможность качественного улучшения системы обслуживания клиентов на основе более детального учета спроса покупателей;<br>- совершенствование практики размещения предлагаемых покупателям товаров на полках магазинов, демонстрационных залах, салонах мебели и прочих структур (мерчандайзинг);<br>- относительно меньшее расходование средств на другие маркетинговые коммуникации (рекламу, связи с общественностью и др.);<br>- повышение степени достоверности проводимых нейроисследований;<br>- относительно эффективное управление рисками, связанными с повышением экономической устойчивости и повышением прибыльности в бизнес- структурах;<br>- значительное сокращение времени на проведение рыночных исследований, в т.ч. покупательского поведения отдельных слоев населения в разные времена года, а также в разрезе отдельных регионов, городов и т.д.;<br>- прогнозирование тенденций изменения покупательского спроса в ближайшем будущем и даже в отдаленной перспективе и т. д. |
| **2. Слабые стороны** (Weaknesses):<br>- отсутствие квалифицированных специалистов – маркетологов, умеющих правильно подбирать, практически применять и интерпретировать результаты показателей нейротехнических средств и технологий;<br>- техническая сложность определения коммуникативной, экономической и социальной эффективности применения нейромаркетинговых технологий в условиях их не только одиночного, но и интегрированного использования в комплексе с прочими маркетинговыми коммуникационными средствами;<br>- необходимость больших затрат на создание, приобретение, обучение персонала и практическое применение нейро- технических средств и технологий в структурах различных форм собственности;<br>- стремление создателей и продавцов нейросредств и технологий преувеличивать практическую значимость своей продукции в бизнес – образованиях и прочих структурах;<br>- не столь высокое совершенство нейромаркетинговых средств и технологий. | **4. Рыночные угрозы** (Threats):<br>-наступление форс-мажорных обстоятельств (землетрясения, наводнения, эпидемии типа «Covid-19», ожидание начало войны со стороны Армении, Ирана или других стран);<br>-отсутствие глубоко образованных специалистов в области создания нейротехнических средств и технологий;<br>- недостаточная подготовленность менеджеров и маркетологов, в том числе знающих научные и практические основы нейромаркетинга;<br>- отсутствие экономически эффективного рынка нейромаркетинга и, соответственно нейротехнологий;<br>- часто повторяющиеся политические и экономические кризисы в развитых странах мира, легко трансформируемые в такие не столь большие страны мира, как Азербайджан и др. |

Стоит напомнить, что комплекс средств, через использование которых можно передавать и (или) получать ту или другую информацию о покупательском поведении, их спросе, состоянии рынка и многое другое, принято относить в состав маркетинговых коммуникаций. В последствии, структуры, занимающиеся сбором и обработкой этой и другой информации могут их использовать как для обеспечения устойчивости и прибыльности своей деятельности, так и для

повышения качества обслуживания своих клиентов и наращивания степени удовлетворенности покупателей.

В настоящее время элементами маркетинговой коммуникационной системы выступают: реклама в разных формах ее проявления, содействие продажам, связи с общественностью (Public Relations – PR), прямой маркетинг DirektMarketing – продажа напрямую, ярмарки и выставки, спонсорская деятельность, брендинг, продукт – плейсмент Product placement, маркетинговые исследования вместе с нейромаркетингом. Думается, что развитие практики организации управления бизнес-процессами под натиском усиливающейся конкурентной борьбы на рынке, а также науки и техники в различных областях знаний в будущем приведет к преобразованию и восполнению приведенного перечня маркетинговых коммуникаций.

Как отмечалось выше, коммуникативную и экономическую эффективность маркетинговых коммуникаций, в том числе нейромаркетинга определить не так просто, как кажется. Это в основном связано с тем, что бизнес-образования маркетинговыми коммуникациями пользуются в комплексе, т.е. в их интегрированном друг с другом виде. В результате, разные элементы маркетинговых коммуникаций формируют единый синергический эффект в том или ином бизнесе. В подобных случаях весьма трудно рассчитать внесенную долю каждого составляющего коммуникации в общую «копилку» получаемого эффекта, если даже будут известны единичные затраты на данные средства установления и поддержания связей с потенциальными и реальными покупателями.

Следует учитывать, что исследование коммуникативной и экономической эффективности от практического применения маркетинговых коммуникаций дает возможность установить степень роста эффективности всей конечной целевой деятельности той или иной структуры, использующей эти коммуникации. В любом случае коммуникативная эффективность рассчитывается на основе исследования результатов вспоминания со стороны общественности содержания тех и других маркетинговых посланий, носящих коммуникативные цели, направленные на налаживание отношений с потенциальными клиентами и привлечение их внимания к той или иной производственно-коммерческой структуре, возможно ее товарам и услугам. При этом учитываются охват коммуникационными средствами аудитории предполагаемых клиентов, степень воздействия данных средств на них, расходы, связанные с проведением коммуникативных акций, сроки их реализации и изучения последствий проведенного мероприятия.

Выбор средств маркетинговых коммуникаций зависит от целей и задач каждой структуры, ее финансово-экономических возможностей и ряда других объективных и субъективных факторов.

В любом случае, коммуникативная эффективность применяемых маркетинговых средств обычно резко отличается от их экономической эффективности. Так, коммуникационная эффективность каждого элемента данной коммуникационной системы рассчитывается на основе исследования того, в действительности сколько человек из охваченных исследованием лиц помнит содержание изучаемой коммуникации, например, рекламы, личной продажи, PR и др. Между тем, как нам представляется, этот же показатель можно несколько конкретизировать. Для этого нужно будет рассчитать долю затрат на проведение той или иной коммуникационной акции в коэффициентах или процентах в общих расходах на все коммуникации и сопоставить эти данные с результатами охваченных опросом потенциальных покупателей. Допустим, в результате проведенного исследования было установлено, что доля рекламных расходов во всех затратах на маркетинговые коммуникации составляли 24 %. При этом только 6 % опрошенных помнило что-то из содержания этих реклам, что в учебниках по маркетингу оценивается как сама коммуникативная эффективность данного маркетингового мероприятия – рекламы. В таком случае, если руководствоваться тем, что показатель эффективности в большинстве своем выражает отношение эффекта к затратам, т.е. к совокупным вложениям, приведшим к получению данного эффекта, то удельная коммуникативная эффективность рекламных мероприятий в приведенном примере составит 0,25 (6/24). Это очень низкий показатель в сопоставлении с затратами, направленными на ее получение и данное соотношение (эффект / затраты) разумнее поднять до и более единицы. В целом же, если позволяют условия накопления необходимой информации, нужно провести анализ состава и структуры затрат и эффектов всех элементов маркетинговых коммуникаций, используемых в продвижении на рынок товаров и услуг конкретной бизнес-структуры. Подобная аналитическая работа позволит выявить коэффициенты или процентные соотношения между получаемыми доходами и затратами, направленными на получение данных эффектов.

Конечно, рассчитать экономическую эффективность каждого элемента маркетинговых коммуникаций на основе результатов их интегрированного применения, по многим причинам будет весьма проблематично. Однако, их общую комплексную - интегрированную синергическую экономическую эффективность (Qef) рассчитать не составит особого труда. В частности, если известны все расходы на маркетинговый коммуникационный комплекс ($A$) и совокупные рыночные показатели, т.е. эффекты в результате их применения (E), тогда отношение полученного эффекта к затратам будет характеризовать именно общую экономическую эффективность всей маркетинговой коммуникативно-информационной системы. Таким образом, в числителе упомянутого показателя, в

зависимости от целей и задач проводимого маркетингового исследования, могут быть совокупные доходы, общая прибыль, рост объема продаж, рост рыночной доли предприятия, сумма сэкономленных средств от возможных потерь сырья и материалов и пр.

Учитывая отмеченное: $Qef = E / R$.

Многие просвещенные бизнесмены наверняка знают, что расходы на приобретение и установку технических средств и технологий для проведения нейромаркетинговых исследований и разработок обычно носят единовременный характер и требуют немалых денежных средств. В то же время, данными нейроинструментами можно пользоваться в течение пяти и более лет. Кроме того, после установки и изучения показателей датчиков применяемых технических средств проводятся конкретные маркетинговые мероприятия по совершенствованию практики организации передвижения клиентуры и размещению предлагаемых покупателям товаров в конкретных крупных и небольших магазинах, демонстрационных залах и прочих структурах. После же получения приемлемой для бизнеса коммуникативной и экономической эффективности полученный опыт, как коммерческие услуги можно предлагать другим заинтересованным субъектам рынка. В добавок к этому, использованные нейроинструменты и оборудования можно демонтировать и применять по назначению в других рыночных структурах.

Отмеченное говорит о том, что мероприятия нейромаркетинга могут ощутимым образом изменить лицо развивающейся торговли и бизнеса в целом, оптимизировать временные циклы и пространственные расстояния воспроизводственного процесса, совершенствовать систему управления прибыльными отношениями с клиентами и т.д.

Многие средства маркетинговых коммуникаций, такие, как реклама, стимулирование сбыта, личные продажи, связи с общественностью и др. требуют четкой системности, постоянного контроля, регулярных денежных вливаний и многого другого, чего в нейромаркетинге трудно или невозможно проследить. Поэтому, затраты на использование нейротехнических средств и технологий в рыночных исследованиях зачастую обходятся значительно дешевле, чем общие вложения в упомянутые и прочие элементы коммуникационной системы маркетинга. Учитывая эти и другие обстоятельства, опытный специалист в области современных технологий исследования неопределенностей маркетинговой окружающей среды, всегда сможет найти тот или иной вариант хотя бы вероятностного исчисления экономической эффективности каждого используемого им в процессе работы коммуникационного средства.

**Заключение**

1. Как показывают исследования, развитие науки, техники и технологии в различных областях знаний так или иначе приводит к последовательному совершенствованию научно-методической базы всех учебных дисциплин, в том числе менеджмента, как современной управленческой науки и его функциональной области – маркетинга, занимающегося изучением динамических процессов, происходящих в окружающей рыночной среде и их регулированием на разных уровнях общественно-экономической иерархии стран мира. В частности, укрепление технической и технологической оснащенности в биологии, социологии, психологии, в исследованиях физиологии человека и других направлениях наук открыли новые возможности контроля и исследования социальной психологии различных слоев населения, в том числе потребительского и покупательского поведения массы людей. Все это стало возможным в результате создания нейротехнических средств и технологий, приведших к формированию нового направления маркетинговой науки – нейромаркетинга. Последнее можно оценить, как дополнение к исследовательской базе, а также к средствам и методам маркетинговой коммуникационной системы.

2. Маркетинг, как практика хозяйствования и антикризисного управления бизнесом, с начала своего создания примерно в 80-х годах XIX века в США, непрерывно совершенствовалось. Появление нейромаркетинга можно считать новым прецедентом и этапом в становлении пятой – социально-этической концепции маркетинга, культивируемой экономистами и политиками многих стран капиталистического мира.

3. После почти 70-летнего перерыва повторное вступление Азербайджана на рыночный путь развития во времени совпал с периодом победы капиталистической системы хозяйствования над социалистическим строем и становлением социально-этической концепции маркетинга. Вот почему, появление в этот период нового прикладного направления маркетинговой науки – нейромаркетинга всецело должно отвечать требованиям социально-этических норм, выдвигаемых со стороны общественности. Используемые же нейромаркетингом средства и методы зачастую переходят границы данных этических норм, что со стороны многих покупателей воспринимается как попытка проникновения в их личную жизнь и попытка расшатывания национальных и религиозных духовных ценностей.

4. Как показывают проведенные опросы, примерно 98 % населения Азербайджана мало что знает о нейромаркетинге. Между тем, на основе экспертной оценки методом «дельфи», когда экспертная группа из восьми маркетологов - представителей разных регионов нашей страны, сошлись на том, что техникой и технологией этого нового направления маркетинговой науки спонтанно и не

столь профессионально пользуются почти во всех супермаркетах Баку, Гянджи, Казаха, Ленкорани, Шеки и других городах страны, в сельских же местностях о нем почти никто ничего не знает. Все это говорит о ряде проблем, связанных со средствами и методами нейромаркетинга. К подобным проблемам можно отнести:

- отсутствие законодательной базы, регулирующей применение технологий нейромаркетинга при исследовании покупательского поведения клиентов;
- недостаток профессионально подготовленных специалистов – нейромаркетологов;
- несовершенность современных нейротехнологий;
- не столь достоверную интерпретацию показателей датчиков нейротехнических средств со стороны многих заинтересованных сторон;
- ограниченность возможностей приобретения товаров и услуг со стороны значительной части потенциальных потребителей;
- недостаточную эффективность влияния маркетинговых раздражителей на рыночный выбор товаров и услуг со стороны покупателей и др.

5. В условиях усиления конкуренции на внутреннем рынке и действия закона тенденции нормы прибыли к понижению нейромаркетинг в Азербайджане продолжит свое развитие. В целях ускоренной и успешной реализации данного процесса необходимо усилить качество подготовки менеджеров и маркетологов в вузах страны. Последнее требует совершенствования учебных программ приведенных специальностей и усиления системы прохождения студентами и магистрантами реальной, а не «галочной» практики с основательным изучением не только нейротехнологий, но и конкретных новшеств в организации управления рыночными процессами в обществе.

**Литература**

1. Льюис Д. Нейромаркетинг в действии. Как проникнуть в мозг покупателя . - М. Манн, Иванов и Фербер; М. 2015. -304 с.
2. Роджер Дули. «Нейромаркетинг». Как влиять на подсознание потребителя.- М.: Попурри,2021. -336 с.
3. http://pnu.edu.ru/media/vestnik/articles-2013/933.pdf электронный.https://earchive.tpu.ru/bitstream/11683/71581/1/TPU1366505.pdf
4. https://www.mordorintelligence.com/ru/industry-reports/neuromarketing-market
5. https://azerbaijan.mfa.gov.by/ru/exportby/retail/
6. https://blog.ringostat.com/ru/swot-analiz-chto-eto-takoe-gde-ego-ispolzuyut-primery/
7. https://spravochnick.ru/marketing/marketingovye_kommunikacii/effektivnost_marketingovyh_kommunikaciy/

# NƏRDİVAN METODU MÜHASİBAT UÇOTUNUN QƏDİM METODU KİMİ

*Daxil olub: 12 mart 2023-cü il*
*Qəbul olunub: 3 oktyabr 2023-cü il*
*Received: 12 March 2023*
*Accepted: 3 October 2023*

***Elay Zeynallı***
*i.f.d., dosent (e.a.o.), "Mühasibat uçotu və audit" kafedrası, ADAU*
*E-mail: elayzeynalli@yahoo.com*

**Xülasə**
Məqalənin məqsədi İslam mühasibatlıq məktəbinə aid erkən və nadir mühasibat uçotu nümunələrindən biri olan nərdivan metodunun tarixi və tətbiqi nümunələrinin araşdırılmasıdır. Bu məqsədlə məqalədə nərdivan metodunun inkişafı və istifadəsinin tarixi və mədəni kontekstinə Abbasilərdən Elxanilərə, Elxanilərdən isə Osmanlıya və Səfəviyə keçidini şərtləndirən əsas amillərə dair fikirlər sistemləşdirilir. Metodu dövlət uçotu üçün yararlı edən unikal xüsusiyyətlər vurğulanır, metodun istifadəsi metodikası tarixi nümunələr əsasında sistemli yanaşma, müqayisəli təhlil və məntiqi ümumiləşdirmə metodlarından istifadə etməklə izah olunur. Tədqiqatın əhəmiyyəti mühasibat uçotunun bilinən ən qədim metodu hesab olunan nərdivan metodunun mühasibat tarixi baxımından tədqiq olunması və müasir uçot sistemi ilə müqayisəli təhlilidir. Tədqiqatın məhdudiyyəti mövzunun geniş tarixi və arxiv materialları əsasında öyrənilməsinin tələb olunması, elmi yeniliyi isə yerli ədəbiyyatda metodun tətbiqinə həsr olunmuş nadir tədqiqatlardan biri olmasıdır. Tədqiqatın nəticəsində metodun istifadəsinin üstünlük və çatışmazlıqları sistemləşdirilmiş, müxtəlif dövrlərdə tətbiqini şərtləndirən amillər analiz edilərək qiymətləndirilmişdir.

**Açar sözlər:** *birtərəfli qeyd, "Risale-i Fələkiyyə", hesablama prinsipi, siyaqət* üsulu.

# LADDER METHOD AS AN ANCIENT METHOD OF ACCOUNTING

***Elay Zeynalli***
*PhD, associate professor (acting), "Accounting and audit" department, ADAU*
*E-mail: elayzeynalli@yahoo.com*

**Abstract**
The aim of the article is to examine the historical and application examples of the Ladder method, which is one of the early and rare accounting examples of the Islamic accounting school. For this purpose, the ideas on the main factors determining the transition from the Abbasids to the Elkhanis, and from the Elkhanis to the Ottomans and the Safavids are systematized in the historical and cultural context of the development and use of the ladder method. The unique features of the method that make it suitable for public accounting are emphasized, and the method of use is

explained utilizing a systematic approach, comparison, and logical summarization methods based on historical examples. The importance of the research is the study of the ladder method, which is considered the oldest known method of accounting, from the point of view of accounting history and its comparative analysis with the modern accounting system. The limitation of the research is that the subject is required to be studied on the basis of extensive historical and archival materials. And its scientific novelty is that it can be considered as one of the rare studies dedicated to the application of the method in the local literature. As a result of the research, the advantages and disadvantages of utilizing the method were systematized, and the factors determining its application in different periods were analyzed and evaluated.

***Keywords:*** *one-sided record, "Risale-i Falakiyya", calculation principle, siyagat method.*

## ЛЕСТНИЧНЫЙ МЕТОД КАК ДРЕВНИЙ МЕТОД БУХГАЛТЕРСКОГО УЧЕТА

***Элай Зейналлы***
*к.э.н., доцент (и.о.о.), кафедра «Бухгалтерский учет и аудит», ADAU*
*E-mail: elayzeynalli@yahoo.com*

**Резюме**
Цель статьи состоит в том, чтобы рассмотреть исторические примеры применения метода лестницы, который является одним из ранних и редких примеров бухгалтерского учета исламской школы бухгалтерского учета. С этой целью в историко-культурном контексте развития и использования лестничного метода систематизируются представления об основных факторах, определяющих переход от Аббасидов к Эльхани и от Эльхани к Османам и Сефевидам. Подчеркиваются уникальные особенности метода, которые делают его пригодным для государственного учета, и объясняется метод использования с применением системного подхода, методов сравнения и логического обобщения, основанных на исторических примерах. Важность исследования заключается в изучении лестничного метода, который считается старейшим из известных методов бухгалтерского учета, с точки зрения истории бухгалтерского учета и его сравнительного анализа с современной системой бухгалтерского учета. Ограничения исследования состоит в том, что предмет требуется изучать на основе обширных историко-архивных материалов, а его научная новизна в том, что оно является одним из редких исследований, посвященных применению данного метода в

отечественной литературе. В результате исследования были систематизированы преимущества и недостатки использования метода, а также проанализированы и оценены факторы, определяющие его применение в разные периоды.

***Ключевые слова:*** *односторонняя запись, «Рисале-и Фалакийя», принцип расчета, метод сиягат.*

## Giriş

Mühasibat uçotunun formalaşması və inkişafı insanın şüurlu fəaliyyətinin meydana gəldiyi dövrdən başlayaraq bütün ictimai-siyasi formasiyaları əhatə etmişdir. Tarixi tədqiqatlar göstərir ki, 6000 il əvvəl Qədim Misirdə, Yunanıstanda və Romada nəzarəti tələb olunan obyektlərin çoxluğu və nəzarətin tam təşkil edilməsi fonunda uçotun istifadəsi olduqca zəruri idi (Əhmədov vd., 2011; Rzayev, 2008). Əlbəttə ki, bu aparılmış uçot təkmil formada deyildi, sistemsiz və konkret əməliyyat (alğı-satqı, ödəniş, borc və s.) ilə bağlı idi. Misal üçün, Qədim Misirdə aparılmış uçot Nil çayından istifadə edərək əkinlərin suvarılması və bununla bağlı vergi mükəlləfiyyətinin yerinə yetirilməsi ilə bağlı idi (Abbasov, 2015).

Cəmiyyətin inkişafının sonrakı dövrlərində mülkiyyət münasibətlərinin formalaşması və ticarətin inkişafı mühasibat uçotunun da bu intibahla uyğunlaşması zərurətini ortaya qoydu. Uçotda bəzi yeniliklər olsa da (uçotun gil lövhələr və kağızdan istifadə olunması, sikkə formasında pul uçotunun aparılması və s.), XII əsrədək mühasibat uçotu bəsit şəkildə aparılır, ciddi metodoloji dəyişikliklər baş vermirdi (Xankişiyev & Əliyev, 2012; Fətullayev, 2016).

Razılaşmaq gərəkdir ki, professor S.Səbzəliyev mühasibat uçotunun başlama tarixi və kimin tərəfindən meydana gəldiyini söyləməyin çətin olduğunu, lakin mühasibat uçotunun 6000 ildən çoxdur ki, mövcud olduğu son 500 ildə idarəetmənin predmeti sayıldığı və son 100 ildə müstəqil elm sahəsi kimi fəaliyyət göstərdiyi fikri aparılmış tədqiqatların ən doğru xülasəsidir (Səbzəliyev, 2014).

İkitərəfli qeyd üsulu formalaşanadək sadə və ya birtərəfli qeyd kimi adlandırılan üsul istifadə olunurdu. Birtərəfli qeyd üsulu VII əsrdən elmi əsaslarla istifadə olunmuşdur, hazırda geniş istifadə edilən ikili qeyd üsulunun ilk nümunələrinə isə XIII əsrdən rast gəlmək mümkündür.

## Mühasibat uçotunda birtərəfli və ikitərəfli qeyd üsulları

Mühasibat uçotunun tarixi inkişafı araşdırıldıqda mühasibat uçotunda istifadə olunan uçot üsullarını birtərəfli və ikitərəfli uçot kimi ümumiləşdirməyin mümkün olduğunu görürük. Bunlardan birincisi birtərəfli qeyddir ki, burada əsasən mühasibat uçotu ilə bağlı məlumatların hamısı deyil, nəzərdə tutulan hissə və ya hissələri qeydə alınırdı.

Birtərəfli uçota misal olaraq debitor borcları, kreditor borcları, gəlir və xərclərin uçotunu göstərə bilərik.
Aydındır ki, ikitərəfli uçotun tətbiqi məqsədi əsasən aktiv, mənbə, gəlir, xərc və nəticə (mənfəət-zərər fərqi) haqqında bütün məlumatları izləmək məqsədi daşıyır. XII əsrdə ticarət əlaqələrinin genişləndiyi İtaliya şəhərlərində bu üsulun ilk nümunələrinə rast gəlinir. Bu üsul bilavasitə Luko Paçolinin adı ilə bağlanır. Lakin aparılmış fərqli tədqiqatlarda müxtəlif fərqli fikirlərə də rast gəlmək olur. Belə ki, Nerro və Gillion ikili qeyd üsulunun ilk tətbiqinin sübutu kimi Qədim Yunanıstandakı gömrük kitablarını sitat gətirir, Yapon tarixçisi İ.Hirayi Koreyada, V.Kiyminodan 1135-ci ildə Siciliyada, E.Forrestize 1339-cu ildə Fransada tətbiq edildiyini, K.P.Klinq isə bu texnikanın XI əsrdə ərəblər tərəfindən kəşf edilərək venesiyalılara satıldığını müdafiə edir (Can, 2007).
Göründüyü kimi, Toskanalı keşiş Luca Pacioli ikili uçot sistemini ixtira etməmişdir. Lakin o, bu sistemi ilk dəfə 1494-cü ildə Venesiyada yazılmış “*Suma de Arithmetica Geometria Proportioni et Proportionalita*” kitabında yazılı şəkildə ifadə etmişdir (Akçay, 2017). Əsasən riyaziyyatdan bəhs edən kitabın cəmi 27 səhifəsi mühasibat uçotu haqqında idi (Örten vd., 2011). L.Paçolinin kitabı ikinci dəfə 1523-cü ildə latın dilində çap olunmuş, XVI əsrdə “Summa” adı ilə Kiyevdə istifadə edilmişdir (Rzayev, 2008).
Heç şübhəsiz, ikitərəfli qeyd üsulu inqilabi bir yenilik idi. Çünki tacirlər öz sərvətlərinin artıb-azalmasını hesablamaq imkanı əldə edirdi ki, bununla da kapitalizmi hərəkətə gətirən əsas amil olan mənfəəti asanlıqla təyin etmək imkanı qazanırdı. Təsadüfi deyil ki, Paçioli də mühasibat uçotunun əsas vəzifəsini “tacirə öz aktivləri və öhdəlikləri haqqında gecikmədən məlumat vermək” olduğunu bildirmişdi (Kaya, 2021).
Birtərəfli qeyd üsulundan fərqli olaraq, ikili qeyd üsulunda bir təsərrüfat əməliyyatı iki müxtəlif uçot obyektinə təsir etməsi baxımından öyrənilir və uçota alınır. Bu da iqtisadi subyektlərin fəaliyyətinin əsas indikatoru hesab olunan gəlir, xərc, mənfəət və kapital göstəricilərinin hərəkəti, artıb-azalmasını daha asan öyrənməyə imkan verir.
Ticarət münasibətlərinin genişlənməsi, özəl uçot subyektlərinin meydana gəlməsi, iqtisadi subyektlərin varlıq və öhdəliklərinin artması, qeyd olunan subyektlərdə təsərrüfat əməliyyatlarına nəzarət və idarəetməyə olan ehtiyacın artması fonunda birtərəfli qeydin çatışmazlığı, eyni zamanda ikitərəfli qeydin üstünlükləri zamanla iqtisadi subyektlərdə, eləcə də iqtisad elmində özünü göstərməyə başlamışdır.

**Nərdivan üsulunun tarixi və mahiyyəti**

Birtərəfli qeydin aparılmasının tanınan ən məşhur üsulu, heç şübhəsiz, 770-1879-cu illərdə geniş istifadə olunan nərdivan üsuludur. Metodun adı “*Merdiban-ı paye*” (Nərdivan pilləsi) bir azdan haqqında söz açacağımız “Risale-i Fələkiyyə”dən götürülmüşdür (Güvemli & Güvemli, 2015). Metodun bu ada sahib olmasının səbəbi isə əsas

məbləğin əvvəldə yazılması və bu əsas məbləği təşkil edən detalların pilləkənlər şəklində pillələrdə qeyd olunmasıdır. Osmanlıda metod "Muhasebe-i umumiye" də adlandırılmışdır.

Nərdivan üsulu, bölgənin şərtlərinə və ehtiyaclarına uyğun olaraq Yaxın Şərqdə formalaşmış və inkişaf etmiş üsuldur. Bu üsul 770-ci illərdə Abbasilər xilafətində formalaşmış, xilafətin Elxanilər tərəfindən işğalından sonra Elxanilərə keçmiş, daha sonra isə Osmanlı İmperatorluğunda XIX əsrin ikinci yarısınadək (1879) istifadə edilmişdir (Aydemir & Erkan, 2011). Metod Elxanilər tərəfindən işlənib hazırlanmış və osmanlılar tərəfindən təkmilləşdirilmişdir. Mahiyyət etibarı ilə üsul ərəb, fars və türk mədəniyyətlərinin ortaq təzahürüdür.

Nərdivan metodunun tətbiqinin əsas xüsusiyyətlərindən biri də tətbiq edilən ölkələrdə uçotu "miqdar metodu"ndan "məbləğ metodu"na keçidi təmin etməsidir. Digər xüsusiyyəti isə əsasən dövlət mühasibatlığı çərçivəsində istifadə olunması və özəl sektorda tətbiqinə çox az rast gəlinməsidir. Aparılmış tədqiqatlardan, günümüzə gəlib çatmış uçot nümunələrindən aydın olur ki, özəl sektorda nərdivan metodu istifadə olunmurdu. Bunun da əsas səbəblərindən biri müəssisələrin mühasibat uçotunun bu metodundan istifadə etmək üçün kifayət qədər böyük olmaması, digəri isə nərdivan metodunun mənfəət məqsədi daşıyan təsərrüfat uçotu (o cümlədən məsrəflərin hesablanması) üçün uyğun olmaması idi.

Metodun digər bir xüsusiyyəti hesablama prinsipinə sadiq qalması idi. Belə ki, vilayətlərdən alınacaq vergi gəliri ilin əvvəlində müəyyən edilir, bu məbləğ müvafiq mühasibat uçotu hesabına yazılır, daha sonra il ərzində toplanan məbləğ ilin əvvəlində hesablanmış məbləğdən çıxılırdı (Karatas, 2017).

Metodun ən məşhur xüsusiyyəti "siyaqət yazısı" ilə tətbiq edilməsi idi. Siyaqət yazısında ərəb əlifbasından istifadə edilir, lakin bu hərflər arasında nöqtə, boşluq qoymadan yazılırdı. Bunun da iki əsas səbəbi mövcuddur ki, bunlardan biri mühasibat uçotunda böyük həcmli məlumatların kiçik tutumlu kağızlara sığışdırmağın mümkün olmaması idi. Çünki ərəb hərflərində durğu işarələri hərflərə bitişik deyil və ayrı-ayrılıqda yazılması çox sıx sətirlərlə yazılan qeydlərdə çətinlik yaradırdı. Digər səbəb isə dövlət mühasibat məlumatlarının məxfi olması və dövlət sirri hesab edilməsi idi (Aydemir & Erkan, 2011; Elitaş vd., 2008).

## Nərdivan üsulunun istifadə metodikası

Bu metodla məbləğ əvvəldə yazılır və bu əsas məbləği təşkil edən detallar pilləkənlər şəklində pillələrdə qeyd olunur. Daha sadə şəkildə ifadə etsək, ümumi məbləğ üstə yazılır və maddələr üzrə məbləğlər bir-birinin altına düzülür. Metod sağdan sola yazı texnikası çərçivəsində yaranıb və inkişaf etdirilib. Metodun daha aydın başa düşülməsi üçün nümunəyə nəzər salaq. Nərdivan metodunun istifadə olunduğu mühasibat uçotu

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 49 - 61
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 49 - 61

sənədlərinin bir qismi bugünkü dövrümüzə qədər gəlib çatmışdır. Şəkil 1-də Abbasilərdə 775 və 786-cı illərdə istifadə edilən dövlət mühasibatlığında uçot sənədi əks olunub.





**Şəkil 1. Abbasilərdə 775 və 786-cı illərdə istifadə edilən dövlət mühasibatlığına dair uçot sənədi**

***Mənbə:*** *(Ertaş vd., 2017)*

**Şəkil 1-in dilimizə tərcüməsi:**

Harun ər-Rəşid dövründə hər il dövlət xəzinəsinə gələn natura və nağd vergilər və onların yerləri.

Draxma 530.312.000

| mal kimi | nağd pul kimi |
|---|---|
| 5.706.000 Dinar | 404.780.000 Draxma |

1 Dinar 22 Draxma
125.532.000 Draxma

| | | | | | |
|---|---|---|---|---|---|
| Nar və heyva | | Kişmiş | | Bal | |
| İrandan 150000 porsiya nar və heyva | Reydən 1000 porsiya nar | Ecnadussam-dan 2300 ritl | Humusdan 1000 ritl | Həmədandan 13000 ritl | Mosuldan 20000 ritl |
| | | | İrandan 1000 ritl | İsfahandan 20000 rıtl | Gilandan 20000 ritl |

| | | |
|---|---|---|
| Duz<br>İrandan | Mum<br>İsfahandan<br>20000 rıtl | Şəkər<br>Əhvəzdən<br>30000 ritl |
| Gavalı<br>Reydən<br>1000 rıtl | Vişnə<br>İrandan<br>20000 rıtl | Şərbət<br>Həmədan və Dəstəbidən<br>1000 men |
| Qida<br>Sind və Kufədən<br>1000000 vakır | Zirə<br>Kirmandan<br>100 ritl | Xurma<br>Kirmandan<br>20000 ritl |
| Qızıl gül suyu<br>İrandan<br>30000 butulka | Parget torpağı<br>Savadan<br>292 ritl | Ətirlər<br>İrandan<br>50000 ritl |
| Fərqli Geyimlər<br>Alhambradan<br>6700 ədəd | Paltar və parçalar<br>İrandan 20 xalça; Gilandan 20 paltar | Ətir, mixək, kokos<br>300 rıtl |
| Alhambradan 900; Bəsrədən 200; Nəcrandan 200 | | Hindistandan 150 ritl; Sinddən 150 ritl |
| Ayaqqabı<br>2200 cüt | At<br>Gilandan<br>100 ədəd | Fil<br>Sind və ətraflarından<br>3 sürü |
| | Quş<br>İrandan 30; Gilandan 15 | |

Emin Bəyin yaratdığı münaqişələr zamanı Hicrətin 204-cü ilində Bağdad Arxivində baş verən böyük yanğından sonra Kudama bin Cafərin məlumatlarına görə bu Bağdaddan gələn gəlir məbləğə bərabər idi [Təcrümə Ertaş, Fatih C., Alparslan, Halil İ. Ve Akdemir Yücel (2017) "Anadolu Muhasebe Kayıt Kültürünün Doğuşu - 1350-1500" əsərinin əsasında aparılmışdır].

Şəkil 1-də əks olunan uçot sənədi Abbasilər xilafətindən dövrümüzə gəlib çatan nərdivan metodunun tətbiq edildiyi ilk və nadir nümunələrdəndir. Nümunə metodun tətbiq olunduğu ilk dövrlərin olduğu üçün son dövrlərə aid təkmilləşmələri müşahidə etmək mümkün olmur. Lakin sənədin ümumi məzmunundan aydın olur ki, sənəddə məbləğ qeyd edilib, lakin müxtəlif malların cəmi hesablanaraq drahma (okanın 400-cü hissəsi) və dinar kimi qeydlərin əvvəlinə yazılıb. Bu illərdə uçotun başlanğıcı ilə bağlı izahatlardan görünür ki, dövlət gəlirləri həm mal, həm də pul kimi toplanıb. Nağd şəkildə toplanan vergi qeydləri haqqında heç bir məlumat yoxdur. Ancaq pul daxilolmalarının ümumi məbləğinin 404.700.000 draxma olduğunu görə bilirik. Malların və nağd pulun ümumi miqdarı 530,312,000 draxmadır.

Göründüyü kimi alların miqdarı üçün müxtəlif növ ölçülərdən istifadə olunub ki, bunlardan biri "ritl"dir (çəkisi 333,6 qram) və əksər mallar bu ölçü vahidi ilə izah olunub. Bundan əlavə, ədəd, sürü, cüt, butulka və s. ölçü vahidlərinə də rast gəlmək mümkündür.

Uçotda məbləğ kimi dövlət gəlirləri ilə əlaqəli maddələr uç qrupda birləşdirilib. Bunlardan birinci qrup meyvələr və meyvələrdən hazırlanmış yeməklərdir. İkinci qrupda içkilər, torpaq və paltarlar. Sonuncu qrup isə dövlət gəlirləri kimi heyvanlardan daxil olan mədaxillərdir.

Şəkil nərdivan metodunun ümumi mahiyyətini anlamağa kömək edir. Belə ki, əsas göstəriciyə başda, əsas göstəriciyə daxil olan izah edici maddələri isə onun altında qeyd olunur. Burada əldə olunmuş ümumi nar və heyvanın 150000 porsiya İrandan, 1000 porsiya narın isə Reydən daxil olduğunu aydın görmək mümkündür, yaxud əldə olunmuş 300 litr ətrin 150 litrinin Hindistandan, 150 litrinin isə Sinddən daxil olduğunu görmək mümkündür.

Osmanlı İmperatorluğunda istifadə olunan nərdivan metodunun tətbiq olunduğu uçot sənədi şəkil 2-də əks olunmuşdur.



**Şəkil 2. Osmanlının Bitola vilayətindən 1587-ci ildən 1588-ci ilə qədər cizyə vergisi ilə bağlı uçot sənədi**

***Mənbə:*** *(Guvemli vd., 2007)*

Şəkil 2-də əks olunmuş uçot sənədi aşağıdakı kimi tərcümə olunur [Təcrümə Guvemli, Oktay & Guvemli, Batuhan & Student, Ph. (2007). The birth and development of the accounting Method in the Middle East (Merdiban Method). The Fifth Accounting History International Conference, Banff Canada. əsərinin əsasında aparılmışdır].

Bitola vilayətindən 1587-ci ilin mübarək Ramazan ayından 1588-ci ilin Şaban ayına qədər yığılan cizyə vergisi, Əhmədin Qalata qüvvələrindən topladığı 10 akçe, silahdar bölməsindən Heydər tərəfindən hər gün üçün 28 akçe toplanan vergi uçotu.

| | | | |
|---|---|---|---|
| Ev | Cizyə vergisi | Təsərrüfat | Cizyə vergisi |
| 2714 | 34741 | 418 | 27223 |
| Ev | Cizyə vergisi | Təsərrüfat | Cizyə vergisi |
| 154 | 6220 | 2 | 330 |
| Evlərdə içki vergisi olaraq qəbul edilir | | | |
| Ev | Cizyə vergisi | Təsərrüfat | Cizyə vergisi |
| 3288 | 168514 | | 49320 |

İlk öncə qeyd edək ki, cizyə Ərəb xilafəti və sonrakı müsəlman dövlətlərdə mövcud olan müsəlman olmayan kişilərdən alınan vergidir (Məmmədov, 2013). Osmanlıda da bu vergi qeyri-müsəlman əhalidən can və mülk təhlükəsizliyinin təmini üçün alınırdı. Bu qeydə vergilərin tutulması tapşırılan iki şəxsin adı, mühasibat uçotu kitablarında hesablama qeydini aparan mühasibin adı və vergilərin yığılması tapşırılan bu şəxslərin gündəlik əməkhaqqı əks olunub.

Sənəddən aydın olur ki, ərazidə hesabat dövrünün əvvəlində 2714 ev və 418 təsərrüfat var idi. Bu rəqəmlərə əlavə olaraq, bu müddətdə 154 ev və 2 təsərrüfat yaradılıb. Beləliklə, vergi mükəlləfiyyəti olan 3288 ev və təsərrüfat olmuşdur. Ev vergisi təsərrüfat vergisindən fərqlənir. Bundan əlavə, bir nəfər üçün ödənilməli vergi məbləği 15 akçedir və hamısından alınır.

Vergi ödəyicilərindən toplanan ümumi məbləğ qeydin sonunda hesablanır. Beləliklə, Bitola vilayətində cizyə vergisi 168514 akçe və içki vergisi 49320 akçe idi. Sənəd hesablama prinsipi əsasında nərdivan metodu ilə yuxarıdan aşağıya doğru tərtib olunub. Vergi ilin sonunda alındıqda, bu yığımlar başqa bir kitabda qeyd olunurdu.

Çox böyük ehtimal ki, metod Səfəvi İmperatorluğunda da istifadə olunurdu. Lakin Səfəvidə mühasibat uçotuna dair günümüzə gəlib çatan uçot sənədlərinin olmaması mövzu haqqında qəti fikir bildirmək ehtimalımızı azaldır.

Metodun tətbiqini izah edən bir neçə əsər mövcuddur ki, bu əsərlərin hamısı bu günümüzə gəlib çatmışdır. Əsərlər 1309-1363-cü illər metodun Elxanlı dövlətində tətbiq edildiyi dövrdə ərsəyə gəlmiş və fars dilində qələmə alınmışdır:

- Səadətnamə (*Saadətname fi't-Teressül ve Kavaidü'd-Defter*) (1309)
- Kanun-u Saadet (1336-1337),
- Cami-ül Hesap (1339-1344)

- Risale-i Felekkiye (*Kitab-us Siyakat*) (1363)

Yaxın Şərqdə ilk yazılı mühasibat kitabı olan "Səadətnamə", 1309-cu ildə yazılmağa başladığı məlumdur. Əfsuslar olsun ki, əsərin müəllifi haqqında dəqiq informasiya yoxdur. Lakin aparılmış tədqiqatlara əsasən deyə bilərik ki, əsər Əli Fələk Əla-i Təbrizi tərəfindən vəzir Məhəmməd Tacəddin Əli Əs-Savecinin oğluna hesabdarlıq sənətini öyrətmək üçün yazıldığı təxmin olunur (Yazan, 2019).

Bu kitablardan ən məşhuru Abdullah əl Mazenderani tərəfindən 1363-cü ildə yazılmış "Risale-i Fələkiyyə"dir. Siyaqət üsulu və rəqəmləri ilə yazılmış dörd kitabdan sonuncusu və ən inkişaf etmiş kitabıdır, səkkiz fəsildən ibarətdir. Əsərdə əvvəlcə riyazi və hesab qaydaları, uçot prosedurları və qaydalarının izahı verilir, sonda isə dövlət maliyyə sisteminin mühasibat uçotu kitablarının nümunələri izah olunur. Kitabın orijinal nüsxələrini İran və Türk kitabxanalarında hələ də görmək mümkündür.

**Nərdivan üsulunu istifadə edən dövlətlərin ümumi aspektləri**

Metod Yaxın Şərqin dövlət quruluşu, gəlir və xərclərin növləri, dövlətin maliyyə idarəetmə şərtləri çərçivəsində ortaya çıxan ehtiyaclara cavab vermək üçün yaradılıb və bu tələblərə uyğun informasiyaların formalaşdırılması üçün zəmin hazırlamışdır. Nərdivan metodunun əsas qayəsi dövlətin qeydiyyat ehtiyacları və bu ehtiyacların ödənilməsi imkanlarında qarşılıqlı əlaqəsidir. Buna görə də, özəl sektordan fərqli olaraq, dövlətdə mövcud olan iqtisadi-siyasi şərait dəyişdikcə və inkişaf etdikcə üsul da dəyişdi. Bu xüsusiyyətlər dövlət mühasibat uçotunun bu metoddan istifadəsini davam etdirilməsini təmin edirdi.

Nərdivan metodunu tətbiq etmiş dövlətlərə nəzər saldıqda görürük ki, hər üç ölkə oxşar tarixi, coğrafi və ideoloji xüsusiyyətlərə malikdir. İslam sivilizasiyası, ortaq dəyərlər, siyasi və hərbi sistemlərin bənzərliyi, iqtisadi mühit və ticarət əlaqələri kimi mühüm amillər hər üç ölkədə, demək olar ki, eynidir və bu xüsusiyyətlər bir növ "katalizator" rolunu oynamaqla nərdivan metodunun Abbasilərdən Elxanilərə, Elxanilərdən isə Osmanlıya və Səfəvi İmperatorluqlarına keçidini şərtləndirən əsas amillər olmuşdur.

**Nəticə**

İnsan zəkasının ən parlaq təzahürlərindən biri hesab edilən mühasibat uçotunun qədim inkişaf tarixi onun öyrənilməsinin müxtəlif metodları ilə həmahəngdir. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının istifadəsinə əsaslanan daha mürəkkəb və operativ uçot sisteminin formalaşması illər boyunca öyrənilmiş nəzəriyyə və toplanmış təcrübə hesabına mümkün olmuşdur.

Bu baxımdan nərdivan metodu mühasibat uçotunun ilkin formalarına maraqlı bir baxış təqdim edir, unikal tarixi və mədəni əhəmiyyəti olan islam sivilizasiyasının ortaq dəyəri kimi çıxış edir. Hər nə qədər ikili qeyd üsulundan daha qədim tarixə malik olsa

da, bu metod dövrün artan inkişaf tendensiyalarına uyğunlaşmadığı üçün getdikcə uçot praktikasından kənarlaşsa da, hələ də mühasibat uçotunun inkişaf tarixində öz rolunu itirməmişdir. Metodun Yaxın Şərqdə yaranması və dövrünün ən böyük dövlətlərində istifadə olunması onun dövlət mühasibatlığı tələblərinə uyğunlaşmasına rəvac vermiş, lakin geniş istifadə olunan ikili qeyd üsulları ilə ziddiyyətə gətirib çıxarmamışdır. Hesablama prinsipinə əsaslanması, "məbləğ" meyarına uyğunlaşması, müxtəlif ölçü vahidlərindən istifadə olunması və məxfi yazı üsulu hesab olunan siyaqət yazı üsulundan istifadəni mümkün etməsi metodun əsas xüsusiyyətləri olmaqla yanaşı, həm də onun müasir ikili qeyd üsulu ilə üst-üstə düşən tərəfləridir. Bu baxımdan, nərdivan metodunu birtərəfli mühasibat uçotu metodu ilə ikitərəfli uçotu metodu arasında körpü rolu oynayan üsul kimi qiymətləndirmək daha doğrudur.

**Ədəbiyyat**


1. Abbasov, Q. (2015). *Mühasibat uçotu*. "İqtisad Universiteti" nəşriyyatı.
2. Akçay, S. (2017). *Merdiven yöntemi ve çift taraflı kayıt yöntemi ekseninde devlet muhasebesinin gelişimi (1299-2017)*. 1875.
3. Aydemir, O., & Erkan, M. (2011). Merdiven kayıt yöntemi ve günümüz muhasebe sistemi. *Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi*, *1*, 110-128.
4. Can, A. V. (2007). Luca Pacioli Muhasebenin Babası mıdır? *Akademik Bakış*, *12*, 1-15.
5. Elitaş, C., Güvemli, O., Aydemir, O., & Erkan, M. (2008). *Osmanlı İmparatorluğu'nda 500 yıl boyunca kullanılan muhasebe yöntemi: Merdiven yöntemi*. T.C. Maliye Bakanlığı Yayınları.
6. Ertaş, F. C., Alpaslan, H. İ., & Akdemir, S. (2017). Anadolu Muhasebe Kayıt Kültürünün Doğuşu—1350-1500. *Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi*, *13*, 51-89.
7. Əhmədov, Y., İsmayılov, M., Bədəlov, Q., & Hüseynov, Z. (2011). *Mühasibat uçotunun nəzəriyyəsi*. "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi.
8. Fətullayev, R. (2016). *Beynəlxalq mühasibatlığa giriş*. "Nurlar" Nəşriyyat Poliqrafiya Mərkəzi.
9. Guvemli, O., Guvemli, B., & Student, P. (2007). The birth and development of the accounting Method in the Middle East (Merdiban Method). *The Fifth Accounting History International Conference, Banff Canada*.
10. Güvemli, O., & Güvemli, B. (2015). Osmanlı Devlet Muhasebesinde Kayıt Düzeni ve Defter Sistemi(*). *Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi*, *9*, Art. 9.
11. Karatas, N. (2017). *813-1814 (1229 H.) Yılı burdur ili çeltikçi ve bucak ilçelerine ait aşar vergisi muhasebe kayıtlarının merdiven kayıt yöntemi çerçevesinde incelenmesi*.
12. Kaya, N. (2021). *Muhasebe tarihi*. İKSAD publishing house.
13. Məmmədov, F. (Ed.). (2013). *Vergi ensiklopediyası*. Çaşıoğlu.
14. Örten, R., Ganite, K., & Torun, S. (2011). Muhasebede çift taraflı kayıtlama ve kitab-us siyakat. *Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi*, *1*, 34-69.
15. Rzayev, Q. (2008). *Mühasibat uçotu və audit*. "Adiloğlu" nəşriyyatı.
16. Səbzəliyev, S. (2014). *Xarici ölkələrdə mühasibat uçotu*. "İqtisad Universiteti" nəşriyyatı.
17. Xankişiyev, B., & Əliyev, Ş. (2012). *Büdcə təşkilatlarında uçot və hesabat*. "Şərq-Qərb" Nəşriyyat evi.
18. Yazan, Ö. (2019). Çift Yanlı Kayıt Yöntemini Esas Alan Öncül Bir Eser: Muğni'l Küttab (1869)'ın Muhasebe Anlayışı ve Saadetname (1306) Vurgusu. *Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi*, *16*, Art. 16.

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 62 - 76
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 62 - 76

# UNİVERSİTET - SƏNAYE ƏMƏKDAŞLIĞININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Daxil olub: 21 iyun 2023-cü il*
*Qəbul olunub: 14 sentyabr 2023-cü il*
*Received: 21 June 2023*
*Accepted: 14 September 2023*

***Əliağa Qasımov*[1], *Nətəvan Bəymməmədli*[2]**
*[1]elmi işçi, İAETİ, UNEC, [2]Böyük mütəxəssis, Keyfiyyət təminatı şöbəsi, UNEC*
*[1]gasimovaliaga@gmail.com,*
*[2]bnnata@yahoo.com.tr*

## Xülasə

Bir çox ölkələr iqtisadi rəqabət qabiliyyətlərini artırmaq məqsədilə biliklər iqtisadiyyatını formalaşdırmağa çalışır. Bu istiqamətdə ən effektli model universitetlə sənaye arasında biliyin transferidir [1]. Universitet-sənaye əməkdaşlığından hər iki təşkilat faydalana bilir: universitetlər tədqiqat üçün önəmli statistik rəqəmlər əldə etməklə praktik əhəmiyyəti olan yeni bilik yarada bilirlər. Sənaye müəssisələri isə universitetlər ilə əməkdaşlıq etməklə istehsal yönümlü problemlərini həll etmək məqsədilə müştərək elm yönümlü tədqiqatlar reallaşdıra bilirlər [2]. Universitet-sənaye əməkdaşlığı innovasiya üçün lazımi baza formalaşdıra bilir. Dünyanın bir sıra ölkələrində universitet-sənaye əməkdaşlığına xüsusi diqqət göstərildiyindən müəyyən irəliləyişlər əldə edilmişdir. Bu sahəyə nisbətən az diqqət göstərən ölkələr isə son illərdə zəruri mühit formalaşdıraraq, universitet-sənaye əməkdaşlığını inkişaf etdirməklə daha çox fayda əldə etməyə çalışırlar. Məhz bu səbəbdən də təqdim edilən məqalənin mövzusu aktual bir sahəni əhatə etmişdir.

Məqalənin əsas məqsədi universitet-sənaye əməkdaşlığının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsidir. Bu məqsədlə tədqiqatın vəzifələri kimi aşağıdakılar nəzərdə tutulmuşdur: universitet-sənaye əməkdaşlığının ölkə və hər iki təşkilat üçün faydalarının müəyyənləşdirilməsi; biliyin yaradılması və ötürülməsi kanallarının araşdırılması; araşdırmaların keyfiyyətinə təsir edən amillərin öyrənilməsi; universitet-sənaye əməkdaşlığı sahəsində dünya təcrübəsinin öyrənilməsi; ölkəmizdə innovasiya fəaliyyəti və universitet-sənaye əməkdaşlığının mövcud durumunun tədqiqi; universitet-sənaye əməkdaşlığının inkişafı məqsədilə müvafiq tövsiyələrin verilməsi. Məqalədə sistemli, müqayisəli və statistik təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın əsas məhdudiyyəti zəruri statistik məlumatların yoxluğudur ki, nəticədə ölkəmizdə universitet-sənaye əməkdaşlığının mövcud durumu və inkişaf amillərinin elastiklik əmsallarının müəyyənləşdirilməsi məqsədilə ekonometrik təhlil metodundan istifadə edilməmişdir. Tədqiqatın aparılması zamanı çoxlu sayda beynəlxalq ədəbiyyatlardan istifadə edilmişdir.

***Açar sözlər:*** *innovasiya, tədqiqat və işləmə, biliyin kommersiyalaşdırılması.*

# DEVELOPMENT DIRECTIONS OF UNIVERSITY - INDUSTRY COOPERATION

***Aliagha Gasimov[1], Natavan Baymmamadli[2]***
*[1]Researcher, SRİES, UNEC*
*[2]Senior specialist, Quality Assurance Department, UNEC*
*[1]gasimovaliaga@gmail.com, [2]bnnata@yahoo.com.tr*

## Abstract

Many countries are trying to build a knowledge based economy in order to increase their economic competitiveness. The most effective model in this direction is the transfer of knowledge between university and industry [1]. Both organizations can benefit from university-industry cooperation: universities can generate new knowledge of practical importance by obtaining important statistics for research. Enterprises can carry out joint science-oriented research in order to solve production-oriented problems by cooperating with universities [2]. University - industry cooperation can form the necessary basis for innovation. In several countries of the world, real progress has been achieved due to the special attention given to university-industry cooperation. Countries that pay relatively little attention to this field are trying to get more benefits by developing the necessary environment and developing university-industry cooperation in recent years. It is for this reason that the topic of the presented article covered an actual field.

The main purpose of the article is to clear the directions of development of university-industry cooperation. For this purpose, the tasks of the research are as follows: determination of the benefits of university-industry cooperation in the country and both organizations; researching the channels of knowledge creation and transmission; the study of factors affecting the quality of research; study of world experience in the field of university-industry cooperation; research on the current state of innovation activity and university - industry cooperation in our country; giving appropriate recommendations for the purpose of development of university-industry cooperation. System, comparative and statistical analysis methods were used in the article. The main limitation of the research is the lack of necessary statistical data, as a result of which the econometric analysis method was not used in order to determine the current state of university-industry cooperation and the elasticity coefficients of developmental factors in our country. A lot of literatures were used during the research.

***Keywords**: innovation, research and development, commercialization of knowledge.*

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 62 - 76
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 62 - 76

# НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СОТРУДНИЧЕСТВА ВУЗ - ПРОМЫШЛЕННОСТЬ

***Алиага Гасымов*[1], *Натаван Байммамедли*[2]**
[1]*научн. работник, НИИЭИ, UNEC*
[2]*старший специалист, отдела обеспечения качества, UNEC*
[1]*gasimovaliaga@gmail.com*, [2]*bnnata@yahoo.com.tr*

## Резюме

Многие страны пытаются построить экономику, основанную на знаниях, чтобы повысить свою экономическую конкурентоспособность. Наиболее эффективной моделью в этом направлении является трансфер знаний между университетом и производством [1]. Обе организации могут извлечь выгоду из этого сотрудничества: университеты могут генерировать новые практически важные знания, получая важные статистические данные для исследований, а предприятия могут проводить совместные научно-исследовательские работы для решения производственных задач. [2]. Сотрудничество между университетами и промышленностью может стать необходимой основой для инноваций. В ряде стран мира удалось добиться реального прогресса благодаря тому, что особое внимание уделяется сотрудничеству между университетами и промышленностью. Страны, уделяющие этой сфере относительно мало внимания, в последние годы пытаются получить больше преимуществ, создавая необходимую среду и развивая сотрудничество между университетами и промышленностью. Именно по этой причине тема представленной статьи является актуальной.

Основная цель статьи - прояснить направления развития университетско-промышленного сотрудничества. В связи с этим задачами исследования являются: определение преимуществ университетско-промышленного сотрудничества в стране и обеих организациях; исследование каналов создания и передачи знаний; изучение факторов, влияющих на качество исследований; изучение мирового опыта в сфере университетско-промышленного сотрудничества; исследование современного состояния инновационной деятельности и сотрудничества между университетами и промышленностью в нашей стране; предоставление соответствующих рекомендаций в целях развития сотрудничества между университетами и промышленностью. В статье использованы системный, сравнительный и статистический методы анализа. Основным ограничением исследования является отсутствие необходимых статистических данных, вследствие чего метод эконометрического анализа не применялся для определения современного состояния вузовско-отраслевого сотрудничества и коэффициентов

эластичности факторов развития в нашей стране. В ходе исследования было использовано большое количество литературы.

***Ключевые слова:*** *инновации, исследования и разработки, коммерциализация знаний.*

## Giriş

Rəqabətin kəskinləşməsi firmaların rəqabət qabiliyyətlərinin gücləndirilməsi, bazar paylarının genişləndirilməsi və mənfəətliliklərinin artırılması məqsədilə innovasiya sahəsinə daha çox diqqət göstərməyə stimullaşdırmışdır. Lakin firmaların innovasiya sahəsində müəyyən çətinliklərlə qarşılaşması onları universitetlərin elmi potensialından yararlanmaq üçün universitetlər ilə əməkdaşlıq etməyə sövq etdirir. Eyni zamanda universitetlərin maliyyələşməsində müəyyən dəyişikliklərin edilməsi onların digər mənbələr axtarmasına sövq etdirmişdir. Bu səbəbdən də keçən illər ərzində dünyanın hər bir ölkəsində müxtəlif səviyyələrdə universitet-sənaye əməkdaşlığının formalaşması və inkişafı müşahidə edilmişdir.

Universitet-sənaye əməkdaşlığında hər iki təşkilat çoxlu sayda faydalar əldə edir. Belə ki, universitetlər firmalar ilə əməkdaşlıq etməklə tədqiqatların maliyyələşməsi, əldə edilmiş nəticələrin kommersiyalaşdırılması, praktiki statistik rəqəmlərin əldə edilməsi, müəssisələri maraqlandıran mövzuların müəyyənləşməsi, müəllimlərin biznes sahəsində təcrübəsinin artması, tələbələrin rahat şəkildə müəssisələrdə təcrübə keçmələri və digər faydalar əldə edirlər. Müəssisələr isə universitetlər ilə əməkdaşlıq etməklə yeni ideyalar əldə etməyə, innovasiya fəaliyyətlərini genişləndirməyə, öz fəaliyyətlərində nəzəri biliklərdən yararlanmağa və universitetlərdə mövcud olan araşdırma infrastrukturuna yaxın olmağa nail olurlar.

Dünya ölkələrində universitet-sənaye əməkdaşlığını tədqiq etməklə hər bir ölkədə eyni səviyyənin olmadığını görmək olar. Mövcud vəziyyətə nəzər yetirdikdə bir çox sahələrdə irəliləyişlərin əldə edilməsinə baxmayaraq bu sahədə nisbətən aşağı mövqedəyik. Ölkələr bu iki təşkilat arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə müxtəlif alətlərdən istifadə edirlər. Həmin alətlərin bəzilərinin ölkəmizdə tətbiqi bu sahənin inkişafını daha da stimullaşdıra bilər.

## Əsas hissə

Universitet-sənaye əməkdaşlığı böyük tarixi keçmişə malikdir və son dövrlərdə dünyanın əksər ölkələrində bu əlaqələr genişlənməkdədir. Universitet-sənaye əməkdaşlığının inkişafına hər iki təşkilatın qarşılaşdığı müəyyən çətinliklər mənfi təsir göstərir [4]. Universitetlərin qarşılaşdığı çətinliklərə xərclərin artması, yeni biliyin əldə edilməsi məqsədilə lazımi maliyyə vəsaitinin təmin edilməsi və başqalarını qeyd etmək

olar. Sənaye baxımından isə qlobal rəqabət, məhsulun həyat dövrünün qısa olması, texnoloji dəyişikliklər və başqalarını qeyd etmək olar.

Hazırkı şəraitdə bir çox ölkələrdə universitetlər tərəfindən reallaşdırılan tədqiqatlar fundamental bilik mənbəyi hesab edilir. Bu səbəbdən də əsasən keçən əsrin 70-ci illərindən başlayaraq inkişaf etmiş ölkələrdə universitetlər ilə sənaye arasında əlaqələrin yaradılması və inkişafına xüsusi diqqət göstərilməyə başlanılmışdır. Belə ki, qeyd edilən istiqamətdə universitetlərin nəzdində elmi parkların və biznes inkubatorların yaradılmasını, habelə ilk dəfə ABŞ-də yaradılan Texnologiya Transfer Mərkəzləri deyilənlərə nümunədir.

Həmin dövrdən etibarən dünyanın bir çox ölkələrində innovasiya fəaliyyətinin genişləndirilməsi məqsədilə unversitetlərdə reallaşdırılan elmi tədqiqatların firmalarda istifadəsinin artırılmasına çalışılmışdır. Biliklərə əsaslanan iqtisadiyyatın əsas hədəflərindən biri ali təhsil sisteminin strateji yönümlü olmasıdır. Bu hədəfin reallaşması üçün universitet-sənaye əlaqələrinin gücləndirilməsi və texnologiya transferinin artırılması labüddür.

Keçən əsrin 70-ci illərindən etibarən dünyanın bir çox ölkələrində dövlət tərəfindən universitetlərin maliyyələşməsində müəyyən problemlər yaranmışdır ki, nəticədə həmin ölkələrin universitetləri başqa maliyyə mənbələri əldə etmək üçün müəyyən tədbirlər reallaşdırmışlar. Belə ki, 1979-1991-ci illər ərzində ABŞ-də dövlətin dəqiq elmlərə və mühəndislik sahələrinə daha çox diqqət göstərməsi başqa sahələri əhatə edən universitetlərdə fəaliyyət göstərən tədqiqatçılara ödənilən maliyyə vəsaiti həcminin təqribən 9,4% azalmasına səbəb olmuşdur [4]. Həmin dövrdə Avstraliya və Böyük Britaniyada da universitetlərə ayrılan maliyyə vəsaiti azaldılmışdı. Həmin dövlətlər tərəfindən universitetlər üçün nəzərdə tutulan maliyyə vəsaitinin azaldılması universitet tədqiqatçıları arasında başqa maliyyə mənbələri əldə etmək məqsədilə rəqabətin güclənməsi baş vermişdir. Universitetlərin rəhbər vəzifəli şəxsləri tədqiqatların maliyyə baxımından dəstəklənməsi üçün sənaye müəssisələri ilə əməkdaşlıqların genişləndirilməsinə səy göstərmiş və bu məqsədlə universitetlərdə reallaşdırılan araşdırmaların tədbiq yönümlü və real iqtisadi faydalara səbəb olmasına çalışmışdılar.

Qeyd etmək lazımdır ki, universitetlə sənaye arasında bilik transferi müxtəlif rəsmi və qeyri-rəsmi kanallar vasitəsilə reallaşır [5,6]. Rəsmi kanallar aşağıdakılardan ibarətdir:

- müştərək tədqiqat: tədqiqat mərkəzləri ilə özəl firmalar arasında birgə həyata keçirilən tədqiqat layihələrini əhatə edir. Bu layihələr bütünlükdə, yaxud da əsasən sənaye müəssisələri tərəfindən maliyyələşdirilir və ən kiçik həcmdən tutmuş strateji tərəfdaşlıq layihələrini əhatə edir;

- müqavilə əsaslı tədqiqat: özəl firmaların sifarişi əsasında elm mərkəzlərinin icra etdiyi tədqiqatdır. Bu, əsasən firmaların hədəfləri və məqsədlərinə uyğun olaraq, yeni biliyin yaradılmasını əhatə edir;

- akademik məsləhət: elm mərkəzləri tərəfindən firmalar üçün hazırlanan tədqiqat və məsləhət xidmətləri.

- əqli mülkiyyət mübadilələri: elm mərkəzləri tərəfindən yaradılmış əqli mülkiyyətin sənaye müəssisələrinə lisenziya əsasında satılması;

- tədqiqat mobilliyi – müvəqqəti dövr ərzində universitet tədqiqatçılarının sənayedə və sənaye əməkdaşlarının universitetlərdə fəaliyyət göstərmələri;

- işçi mobilliyi – universitet məzunlarının sənayedə fəaliyyətlərini əhatə edir.

Universitetlərdən sənayeyə biliyin diffuziyasına xidmət edən qeyri-rəsmi kanallar aşağıdakılardan ibarətdir:

- universitetlərdə reallaşdırılan tədqiqatların nəticələrinin elmi jurnallarda və xüsusi informasiya vasitələrində çap edilməsi;

- konfransların təşkili: rəsmi təşkil edilən konfranslarda araşdırmaçılar ilə sənaye əməkdaşlarının əlaqələrinin yaradılması;

- coğrafi yaxınlıq vasitəsilə şəbəkə əlaqələrinin qurulması: universitetlərin yaxınlığında elmi parkların və laboratoriyaların yaradılması;

- universitetlərin sənaye müəssisələri üçün reallaşdırdığı kurslar və davamlı təhsil proqramları, universitetlərdə sənaye işçiləri tərəfindən mühazirələrin aparılması.

**Universitetlər və tədqiqat mərkəzləri tərəfindən reallaşdırılan araşdırmaların keyfiyyətinə təsir edən amillər**

Dünyanın bir çox ölkələri icra edilən tədqiqatların nəticəliyini yüksəltmək və onların kommersiyalaşdırılması imkanlarının artırılması məqsədilə əsasən qeyd edilən dörd amildən yararlanırlar: tədqiqatlar üçün lazımi şəraitin yaradılması; tədqiqatların məqsədli olması; universitetlər ilə firmalar arasında əməkdaşlığın formalaşması və inkişafı; sahibkarlıq fəaliyyəti.

<u>Tədqiqatlar üçün lazımi şəraitin yaradılması.</u> Tədqiqatların yüksək keyfiyyətə malik olması ölkədə innovasiyanı stimullaşdırır. Tədqiqatlar əsasən bu sahədə peşəkar olan mütəxəssislər tərəfindən reallaşdırılır. Tədqiqat nəticəsində biznes fəaliyyəti üçün yeni ideyalar yaradılır. Tədqiqatların keyfiyyətinə müsbət təsir edən amillərdən ən önəmlisi lazımi infrastrukturun və peşəkar mütəxəssislərin mövcudluğudur. Eyni zamanda tədqiqat prosesində sənaye müəssisələri ilə birgə iştirak araşdırmaların səviyyəsini artıran amillərdəndir.

<u>Məqsədli olması.</u> Dünyanın inkişaf etmiş ölkələrində, o cümlədən Böyük Britaniya, Almaniya, Kanada, Yeni Zelandiyada araşdırmalar ölkənin bu günü və gələcəyi üçün önəmli hesab edilən sahələr üzrə reallaşdırılır. Avropa Birliyi ölkələri tədqiqatların hədəflərini seçərkən ölkə iqtisadiyyatı üçün ehtiyac duyulan texnologiyaların yaradılması istiqamətində firmalarla müzakirələr aparmaqla qərar qəbul edirlər. Belə ki, inkişaf etmiş ölkələrdə tədqiqat mövzuları əsasən makro səviyyədə ölkə iqtisadiyyatı üçün

önəmli olan sahələri, mikro səviyyədə isə firmaları düşündürən məsələləri əhatə etdiyindən, real və tətbiqi xarakterli olduğundan daha keyfiyyətli hesab edilir.

Universitet və sənaye müəssisələri arasında əməkdaşlıq. Qeyd edildiyi kimi, universitet və sənaye sektoru arasında əməkdaşlığın formalaşması və inkişafı innovasiya fəaliyyəti məqsədilə önəmlidir. Beynəlxalq səviyyədə aparılmış tədqiqatlardan aydın olur ki, araşdırmaçıların və müəssisələrin coğrafi məkan baxımından eyni yerdə qərarlaşması tədqiqatların keyfiyyətinə müsbət təsir edir. Kembric Universitetində yaradılmış Kembric Elm Parkı buna misaldır. Bu elm parkında kompüter, proqram təminatı və elektron məhsullar istehsalı ilə məşğul olan sənaye müəssisələri ilə universitet tədqiqatçıları birgə fəaliyyət göstərirlər.

Sahibkarlıq. İnnovasiya fəaliyyətini genişləndirmək məqsədilə bir çox ölkələr universitet və sənaye müəssisələrində yüksək dərəcəli sahibkarlıq mühiti formalaşdırmışlar. Bu istiqamətdə zəruri qanunvericilik bazasının təkmilləşdirilməsi və lazımi maliyyə mənbələrinə əlçatanlığın artırılması sahibkarlıq fəaliyyətinin genişləndirilməsində müstəsna rola malikdir.

## Universitet-sənaye əməkdaşlığının təsirləri

Universitetlər ilə əməkdaşlıq müəssisələrə fundamental və tətbiqi tədqiqatlara çıxış əldə etməklə elmi tədqiqatların nəticəliyini gücləndirə bilir. İki təşkilat arasında əməkdaşlıq tədqiqat mövzularının genişlənməsinə və araşdırma ideyalarının bağlılığına səbəb ola bilir. Əməkdaşlıq universitetlərdə aparılan tədqiqatlara yeni nəfəsin verilməsi və onların nəticələrinin praktikada tətbiqinə imkan yaradır [8].

Universitet-sənaye əməkdaşlığı universitetlərdə reallaşdırılan araşdırmaların məqsədyönlüyünü artırır, bu tədqiqatların kommersiyalaşdırılmasını stimullaşdırır və universitet-sənaye arasında işçilərin mobilliyinə səbəb olur [9].

Universitet-sənaye əməkdaşlığı universitetlərin maliyyə imkanlarına çıxışını artıra bilir. Belə ki, son illərdə dünyanın bir sıra ölkələrində universitetlər tərəfindən həyata keçirilən tədqiqatların əksər hissəsi sənaye müəssisələri tərəfindən maliyyələşdirilmişdir. Eyni zamanda universitet məzunlarının sənaye müəssisələrində işlə təmin olunmasını asanlaşdırır və universitetlərin laboratoriya avadanlıqları ilə təminatını gücləndirir [10].

Universitet-sənaye əməkdaşlığı elmi məhsuldarlığa önəmli müsbət təsir göstərə bilir. Elmi məhsuldarlıq əsasən elmi məhsulların buraxılış həcmi ilə ölçülür. Elmi məhsullara elmi ədəbiyyatlarda nəşr olunan əsərlərin, əldə edilmiş istehsal nümunəsi və patentlərin sayı aid edilir. Lakin elmi məhsulların hesablanması heç də asan vəzifə hesab edilmir. Bəzi ədəbiyyatlarda elmi məhsullar dedikdə mötəbər mənbələrdə nəşr olunan əsərlər hesab edilir [11].

Universitet-sənaye əməkdaşlığı sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq gücündədir. Belə ki, sənaye müəssisələri davamlı olaraq öz məhsullarını gücləndirmək

niyyətindədirlər. Universitet-sənaye əməkdaşlığı çərçivəsində universitetlər firmaların məhsullarının yeni dizaynının yaradılmasında və innovativ məhsulların formalaşmasında mühüm rol oynaya bilirlər. Bundan əlavə, əməkdaşlıq nəticəsində reallaşdırılan tədqiqatların nəticələrini (yeni innovativ məhsulların yaradılması, istehsal zamanının optimallaşdırılması, istehsal avadanlıqlarının müasirləşdirilməsi, səmərəli menecment kimi) tətbiq etməklə müəssisələrin daha effektiv idarə edilməsinə nail olmaq mümkündür [11].

İki təşkilat arasında əməkdaşlıq sənaye yönümlü tədris proqramlarının formalaşmasına və nəticədə universitetlər öz tələbərini tərəfdaş olduqları sənaye müəssisələrinə göndərərək mühüm bacarıq və iş təcrübəsi əldə etmələrinə şərait yaradırlar. Sənaye müəssisələri isə universitetlərin yardımı ilə bacarıqlı məzunları işə cəlb etməklə sənaye yönümlü tədris proqramlarından faydalanırlar.

Universitet-sənaye əməkdaşlığı hər iki tərəfin prestij və nüfuzunun artmasına səbəb olur. Belə ki, universitet məzunlarının tətbiqi və praktiki biliklər əldə etməklə sənaye müəssisələri üçün daha cəlbedici olmaqla universitetlərin nüfuzunun artmasına, sənaye müəssisələri isə daha keyfiyyətli, innovativ və bazar tələblərinə uyğun məhsullar təklif etməklə bazar payının artmasına nail olurlar. Eyni zamanda iki təşkilat arasında əməkdaşlığın mövcudluğu tədqiqatların keyfiyyətinin artmasına və araşdırmaya sərf olunan zamanın azalmasına səbəb ola bilər [12].

## Universitet-sənaye əməkdaşlığı istiqamətində beynəlxalq təcrübə

Amerika Birləşmiş Ştatlarında universitetlər ilə sənaye müəssisələri arasında əməkdaşlığa keçən əsrin əvvəllərindən başlanılmasına baxmayaraq 1980-ci illərə qədər universitetlərin əqli mülkiyyətinin kommersiyalaşdırılması və müvafiq patent əldə edilməsi çox nadir hallarda olurdu. 1980-ci ildə dövlət tərəfindən maliyyələşən tədqiqatlar üzrə universitetlərin və kiçik sənaye müəssisələrinin patent ala bilmək haqqında ABŞ Konqresi tərəfindən qəbul edilən qanun layihəsi nəticəsində universitetlər öz patentlərini lisenziya yolu ilə müəssisələrə təklif etməyə başladılar. Universitetlərin kommersiyalaşdırma vasitəsilə əldə etdikləri maliyyə vəsaitləri onların daha çox sayda tədqiqatlar həyata keçirmələrinə səbəb olmuşdu [13]. Dünyanın bir sıra ölkələrinin, o cümlədən Böyük Britaniya, Almaniya, Yaponiya və Fransada yerləşən universitetlərə nisbətən son əsrdə ABŞ-nin təhsil sistemi daha da genişlənmişdir. Statistik rəqəmlərdən aydın olur ki, ABŞ-də tələbələrin və universitetlərin sayı daha çox artmışdır.

1980-ci illərdə ABŞ dövlətinin universitet-sənaye əməkdaşlığının gücləndirilməsi istiqamətində ən əsas innovativ siyasəti hesab edilən Milli Elm Fondunun Mühəndislik Tədqiqat Mərkəzləri akademik səviyyədə mühəndislik tədqiqatlarının reallaşdırılmasında önəmli rol oynamışdır. ABŞ Milli innovasiya sistemindəki boşluğu doldur-

maq üçün yaradılan Mühəndislik Tədqiqat Mərkəzləri yeni texnologiyaların yaradılması tədqiqatlarını reallaşdırmaqla universitet-sənaye əməkdaşlığının inkişafına təkan vermişdir.

1960-cı illərdə ardıcıl olaraq bir sıra amillərin baş verməsi nəticəsində keyfiyyət və kəmiyyət baxımından Kanadada universitetlərin artmasına səbəb olmuşdur. Bu amillərə dövlətin universitetlərdə tədqiqat və işləmə layihələrinə investisiya yatırmaq üçün sənaye müəssisələrinə vergi güzəştləri tətbiq etməsi, müharibədən sonrakı dövrdə əhalinin artım sürətinin yüksəlməsi nəticəsində universitetlərə qəbul olmaq istəyənlərin sayında artımın müşahidə edilməsi, universitetlərə bir neçə sahələr üzrə genişlənmə tapşırığının verilməsi, dövlət tərəfindən universitetlərə böyük həcmdə maliyyə vəsaitinin ayrılmasını qeyd etmək olar. Nəticədə tədqiqat və texnologiya mübadiləsi istiqamətində Universitet-Sənaye Əməkdaşlıq Proqramlarının genişlənməsi baş vermişdir. 1970-ci illərdə bu istiqamətdə maliyyə vəsaitinin azalması federal və yerli hökumət orqanlarının digər sosial və iqtisadi proqramları daha çox dəstəkləməsinə səbəb olmuşdur. Lakin elə bu dövrdə də yerli idarəetmə orqanları inkişaf proqramlarını davam etdirərək elm və texnologiya sahələrində universitet-sənaye əlaqələrinin dəstəklənməsini dayandırmamışdılar. 1980-ci illərdən başlayaraq Kanada universitetləri patentləşdirmə fəaliyyətlərini artırmaqla sənaye müəssisələri üçün müqavilə əsaslı tədqiqatlar reallaşdırmağa və başqa yollarla sənaye müəssisələrinin tədqiqatçıları ilə əməkdaşlıqlarını genişləndirməyə səy göstərirdilər. 1980-ci illərdə universitet-sənaye əməkdaşlığının əsasən iri firmaları əhatə etməsinə baxmayaraq, 1990-cı illərdə federal və yerli idarəetmə orqanları kiçik və orta müəssisələri də bu istiqamətdə dəstəkləməyə başladılar [14]. 1980-ci illərdən başlayaraq Kanada biznes qurumlarının milli tədqiqat və işləmə fəaliyyətlərində iştirakının davamlı olaraq artmasına baxmayaraq hələ də ABŞ, Yaponiya və Cənubi Koreyada olduğu səviyyəyə çatmamışdır. Belə ki, hazırkı şəraitdə Kanada biznes müəssisələrinin ümumi tədqiqat və işləmə xərclərində payı təqribən 50-60% arasında dəyişir.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində bir sıra sənaye ölkələrində məhsuldarlığın azalmasına baxmayaraq Avropa Komissiyası tərəfindən yeni innovasiya paradiqması icra edilməyə başlamışdır. Ölkə səviyyəsində iqtisadi siyasətin sənaye yönümlüyü perspektivindən uzunmüddətli dövrdə texnologiyaların əldə edilməsinə səbəb olan siyasətlə əvəzlənməsi və 1984-cü ildə Tədqiqat və Texnologiya İnkişaf Proqramının formalaşması və inkişafı Avropa Birliyində rəqabət qabiliyyətinin artımına, güclü elmi, texnoloji bazanın yaranmasına, tədqiqat və işləmə əməkdaşlığının dəstəklənməsinə səbəb olmuşdur [15].

Böyük Britaniyada biznes və universitetlərdə araşdırma sahəsində mövcud olan tədqiqatın kommersiyalaşdırılması, texnologiyanın lisenziyalaşdırılması və transferi tədqiqat yönümlü universitetlərin sahibkarlıq fəaliyyətinə start verməsinə səbəb olmuşdur.

Dünya səviyyəli universitetlərdə, xüsusilə də Böyük Britaniya kimi rəqabətli mühiti olan ölkələrdə elmi yönümlü araşdırmaların kommersiyalaşması baş verir. Universitetlərin tədris və elmi fəaliyyətləri sosial-iqtisadi təsirlər və faydaların əldə edilməsinə istiqamətlənmişdir. Böyük Britaniyada son dövrlərdə həyata keçirilən tədqiqatlardan aydın olur ki, universitet tədqiqatçılarının problem yönümlü məsələlərdə iştirakı çox önəmlidir.

Yaponiyada universitet-sənaye əməkdaşlığına 1960-cı illərdən əvvəl başlanılmışdır. Bu istiqamətdə əsas iki önəmli məsələyə daha çox diqqət yetirilir: dünyada ilk dəfə olaraq Tokio Universitetində Mühəndislik departamentinin yaradılması, habelə Fizika və Kimya Tədqiqatlar İnstitutunun böyük sənaye müəssisəsində fəaliyyətə başlaması II Dünya müharibəsindən öncə reallaşdırlan əsas böyük hadisələrdir [16].

Yaponiyanın modernizasiyasının əvvəllərində ölkəyə texnologiyalar Qərbdən idxal olunurdu. Xaricdən avadanlıq idxal etməklə yanaşı, dövlət bir çox xarici mühəndis ölkəyə dəvət etmişdi. Bu mühəndislər dəmiryol, teleqraf xətlərinin çəkilməsi, infrastrukturun yaradılmasında, müasir zavodların tikilməsində istifadə edilirdilər. Xarici mühəndisləri uzunmüddətli dövrdə ölkədə işə cəlb etmək böyük xərc tələb etdiyindən Yaponiya dövləti tədricən onları yerli mütəxəssislərlə əvəzləməyə başladı. Hökumət çoxlu sayda gənci təhsil məqsədilə xaricə göndərdi və daxildə mühəndislik məktəbi yaratdı. 1873-cü ildə Mühəndislik nazirliyi nəzdində Dövlət Mühəndislik Kolleci yaradıldı və 1886-cı ildən Dövlət Universiteti (indiki adı Tokio Universiteti) kimi fəaliyyətə başladı. Beləliklə bu kollecin məzunları sənaye müəssisələrində, dövlət idarələrində və universitetlərdə fəaliyyət göstərməyə başladılar.

Dünyada ilk dəfə olaraq sənaye müəssisəsində yaradılan Fizika və Kimya Tədqiqat İnstitutu (RİKEN) müəssisənin mənfəətliliyində önəmli rol oynamışdır. Sonralar RİKEN Sənaye Qrupu yaratmaqla bir neçə sənaye müəssisəsini özünə birləşdirmişdi. Bu müəssisələrdən bəziləri uğur qazanmışdı. RİKEN tədqiqatçılarının çoxu universitet müəllimləri kimi fəaliyyət göstərdiyindən universitet-sənaye əməkdaşlıq nümunəsi kimi tanınmışdır. 1917-ci ildə RİKEN dövlət dəstəyi ilə ilk milli tədqiqat mərkəzinə çevrilmiş və həmin dövrdən başlayaraq çoxlu sayda fundamental tədqiqatların kommersiyalaşdırılmasına şərait yaratmışdır.

1960-1970-ci illərdə Yaponiyada mühəndislik universitetlərində universitet-sənaye əməkdaşlığı lazımi şəkildə dəstəklənmirdi. Buna baxmayaraq, 1980-ci illərdə vəziyyət dəyişmiş və dövlət universitet-sənaye əməkdaşlığının inkişafı məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlər reallaşdırmışdır. Müştərək şəkildə biliyin yaradılması məqsədilə 1987-ci ildə milli universitetlərdə Əməkdaşlıq Tədqiqat Mərkəzləri yaradılmağa, 1999-cu ildən isə universitet-sənaye əməkdaşlığının inkişafı məqsədilə dövlət qrantlar ayırmağa başlamışdır.

2004-cü ilin aprelində Yaponiya dövləti tərəfindən universitetlərin milli universitet agentliyinə çevrilməsi nəticəsində hər bir milli universitet agentliyinə müstəqil hüquqi status verilmiş, bunun nəticəsində menecment qərarlarının və tərəf-müqabilləri ilə müvafiq müqavilələr imzalamaq imkanı yaradılmışdır.
Çində universitet-sənaye əməkdaşlığına 1950-ci illərin əvvəllərindən başlanılmışdır. Son onillik ərzində Çinin tədqiqat və işləmə xərcləri davamlı olaraq artmışdır, lakin ölkə əsasən xarici texnologiya idxalından istifadə edir. Bu da universitet və tədqiqat sisteminin inkişafına, ildə 350 min mühəndisin məzun olmasına səbəb olmuşdur. İndiki şəraitdə bir sıra sahələrdə patentləşdirmə sisteminin zəif olması daha genişhəcmli investisiyanın qarşısını alır.

**Azərbaycanda innovasiya fəaliyyəti və universitet-sənaye əməkdaşlığı**
Respublikamızda son dövrlərdə iqtisadiyyatın bir çox sahələrində əldə edilən inkişaf başqa sahələrə də sirayət etmişdir ki, nəticədə bir çox sektorlarda böyük irəliləyişlər əldə edilmişdir. Statistik rəqəmlərə nəzər yetirdikdə ölkəmizdə universitetlərin fəaliyyətində və missiyalarının müəyyənləşdirilməsində dəyişiklik baş vermiş, təhsilin və aparılan tədqiqatların keyfiyyəti istiqamətində çoxlu sayda tədbirlər reallaşdırılmış və lazımi nəticələr əldə edilmişdir. Eyni zamanda ölkəmizin elm sahəsinin inkişafının dövlətin prioritet sahəsi hesab edildiyindən Elm və Təhsil Nazirliyinin yaradılması bu istiqamətdə atılan ən önəmli addımdır. Artıq neçə illərdir ki, universitetlərdə və ümumiyyətlə elm sektorunda həyata keçirilən tədqiqatların keyfiyyətinin artırılması məqsədilə həmin araşdırmaların praktik yönümlü olması üçün müxtəlif struktur bölmələr yaradılmışdır. Bunlara texnologiya transfer mərkəzləri, startap və başqalarını misal göstərə bilərik. Lakin qeyd edilən böyük irəliləyişlərə baxmayaraq bəzi problemlər innovasiya fəaliyyətinin inkişafında maneə hesab edilir. Nəticədə universitetlər ilə sənaye arasında əlaqələrin inkişafını ləngidərək ümumilikdə tədqiqatların keyfiyyətinin daha yüksək olmasının qarşısını alır, kommersiyalaşma potensialının azalmasına, daha çox fundamental xarakterli araşdırmaların həyata keçirilməsinə səbəb olur. Statistik rəqəmlərə nəzər yetirdikdə ölkəmizdə son illərdə tədqiqat və işləmələrə ayrılan maliyyə vəsaitinin həcmi davamlı olaraq artmışdır. Lakin bu istiqamətdə əsas çətinlik maliyyə vəsaitinin əsasən fundamental xarakterli tədqiqatlara ayrılmasıdır (Cədvəl 1). Cədvəl 1-dən aydın olur ki, 2011-2021-ci illər ərzində ölkəmizdə elmə ayrılan maliyyə vəsaitinin əsas hissəsi fundamental tədqiqatlara ayrılmışdır və həcmdə fundamental tədqiqatların payı hələ də artır. Belə ki, 2011-ci ildə Azərbaycanın tədqiqat və işləmələrə ayrılan maliyyə vəsaitinin 51,1%-i fundamental tədqiqatlara ayrılmışdısa, 2021-ci ildə bu rəqəm daha da artaraq 56,4%-ə çatmışdır. Nəticədə tətbiqi tədqiqatlara və işləmələrə ayrılan maliyyə vəsaitinin ümumi məbləğdə payı azalmışdır. Ölkəmizdə bu durumun nisbətən zəif olmasını sübut etmək məqsədiylə MDB-yə üzv olan ölkələrlə müqayisə aparaq (cədvəl 2).

**Cədvəl 1. Azərbaycanda elmi-texniki fəaliyyətin istiqamətləri üzrə tədqiqat və işləmələrə çəkilən xərclərin bölgüsü (faizlə)**

| İllər | Cəmi (faizlə) | Fundamental tədqiqatlar | Tətbiqi tədqiqatlar | İşləmələr |
|---|---|---|---|---|
| 2011 | 100 | 51.1 | 33.9 | 15.0 |
| 2012 | 100 | 51.1 | 26.3 | 22.6 |
| 2015 | 100 | 51.4 | 19.9 | 28.7 |
| 2016 | 100 | 55.5 | 17.5 | 27.0 |
| 2017 | 100 | 53.8 | 18.8 | 27.4 |
| 2018 | 100 | 55.5 | 17.9 | 26.6 |
| 2019 | 100 | 53.7 | 24.1 | 22.2 |
| 2020 | 100 | 55.7 | 22.4 | 21.9 |
| 2021 | 100 | 56.4 | 20.4 | 23.2 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən hesablanmışdır.*

**Cədvəl 2. MDB-yə üzv olan bir sıra ölkələrdə elmi-texniki fəaliyyətin istiqamətləri üzrə tədqiqat və işləmələrə çəkilən xərclərin bölgüsü (faizlə)**

| | Cəmi | Fundamental tədqiqatlar | Tətbiqi tədqiqatlar | İşləmələr |
|---|---|---|---|---|
| **Azərbaycan** | | | | |
| 2019 | 100 | 53.7 | 24.1 | 22.2 |
| 2020 | 100 | 55.7 | 22.4 | 21.9 |
| 2021 | 100 | 56.4 | 20.4 | 23.2 |
| **Belarus** | | | | |
| 2019 | 100 | 13.8 | 26.5 | 59.7 |
| 2020 | 100 | 14.3 | 31.3 | 54.4 |
| 2021 | 100 | 15.6 | 31.0 | 53.4 |
| **Qazaxıstan** | | | | |
| 2019 | 100 | 13.4 | 63.4 | 23.2 |
| 2020 | 100 | 15.7 | 61.2 | 23.1 |
| 2021 | 100 | 18.3 | 62.4 | 19.3 |
| **Moldova** | | | | |
| 2019 | 100 | 28.5 | 56.4 | 15.1 |
| 2020 | 100 | 10.6 | 75.0 | 14.4 |
| 2021 | 100 | 8.9 | 77.5 | 13.6 |
| **Rusiya** | | | | |
| 2019 | 100 | 17.1 | 20.1 | 62.8 |
| 2020 | 100 | 18.8 | 19.9 | 61.3 |
| 2021 | 100 | 18.7 | 19.5 | 61.8 |
| **Özbəkistan** | | | | |
| 2019 | 100 | 19.4 | 31.9 | 48.7 |
| 2020 | 100 | 14.1 | 36.9 | 49 |
| 2021 | 100 | 16.3 | 21 | 62.7 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəlliflər tərəfindən hesablanmışdır*

Cədvəl 2-dən aydın olur ki, 2019-2021-ci illərdə Belarus, Moldova, Qazaxıstan, Rusiya və Özbəkistanda tədqiqat və işləmələrə ayrılan vəsaitin böyük hissəsi fundamental tədqiqatlara deyil, tətbiqi xarakterli tədqiqatlara və işləmələrə ayrılmışdır.
Ölkəmizdə tədqiqat və işləmələrə ayrılan maliyyə vəsaitinin çox hissəsinin fundamental tədqiqatlara ayrılmasının əsas səbəbi kimi nəzəriyyələrdən də aydın olduğu kimi ümumi məbləğin sahibkarlıq sektoru tərəfindən deyil, əsasən dövlət sektoru tərəfindən təmin edilməsidir (cədvəl 3).

**Cədvəl 3. Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclərin sektorlar üzrə bölgüsü (min manatla)**

| | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə tədqiqat və işləmələrə çəkilən daxili xərclər: | 29 042.2 | 92 778.2 | 120 943.6 | 163 890.4 | 162 452.5 | 194 197.3 |
| Dövlət sektoru üzrə | 21 508.7 | 68 287.2 | 104 135.7 | 134 892.0 | 139 115.9 | 158 679.4 |
| Sahibkarlıq sektoru üzrə | 5 749.1 | 17 982.8 | 6 470.5 | 6 094.8 | 5 478.4 | 5 729.3 |
| Ali təhsil sektoru | 1 784.4 | 6 508.2 | 10 337.4 | 22 903.6 | 17 858.2 | 29 788.6 |

***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Cədvəl 3-ün məlumatlarına əsasən, 2005-2021-ci illərdə ölkəmizdə tədqiqat və işləmələrə ayrılan maliyyə vəsaitinin həcmi böyük həcmdə artmışdır. Belə ki, 2005-ci ildə bu rəqəm 29042,2 min manat olduğu halda, 2021-ci ildə altı dəfədən çox artaraq 194197,3 min manata çatmışdır. Lakin cədvəl məlumatlarından aydın olur ki, bu böyük həcmdə artımın əsas hissəsi dövlət sektoru və ali təhsil sektoru tərəfindən ayrılan vəsaitin artımı nəticəsində olmuşdur, sahibkarlıq sektoru tərəfindən ayrılan vəsaitdə demək olar dəyişiklik yoxdur. Bu səbəbdən də qeyd etmək olar ki, tədqiqat və işləmələrə ayrılan vəsaitin həcminin artırılması və aparılmış tədqiqatların tətbiqi xarakterli olması məqsədilə biznes sektorunun tədqiqat və işləmə fəaliyyətinə daha çox cəlb edilməsi, ölkədə universitet-sənaye əməkdaşlığının inkişafı məqsədilə müəyyən tədbirlər reallaşdırmaq məqsədəuyğun olardı.

## Nəticə və təkliflər

Aparılmış araşdırmalardan aydın olur ki, innovasiya fəaliyyətinin genişlənməsində, aparılmış tədqiqatların keyfiyyətinin artırılmasında və ölkədə elm sahəsinə ayrılan maliyyə vəsaitinin artırılmasında universitet-sənaye əməkdaşlığının rolu danılmazdır. Eyni zamanda universitet-sənaye əməkdaşlığı hər iki təşkilatın mənafeyinə xidmət edərək onların faydalarının artımına səbəb olur.
Elmi tədqiqatların keyfiyyətinin artırılmasına, tətbiqi xarakterli olmasına və kommersiyalaşma potensialının artımına universitetlər ilə sənaye müəssisələri arasında əməkdaşlığın böyük təsiri vardır. Dünyanın bir çox ölkələrinin təcrübələrini araşdırmaqla

onların müxtəlif dövrlərdə fərqli siyasətlər yürütməsinə baxmayaraq, ümumilikdə eyni istiqamət tutduqlarını müşahidə etmək mümkündür. Ölkəmizdə universitet-sənaye əməkdaşlığının hazırkı səviyyəsini və inkişaf perspektivlərini müəyyənləşdirmək üçün lazımi statistik rəqəmlərin yoxluğu müvafiq ekonometrik modellərin qurulmasına və təsiredici amillərin elastiklik əmsallarının müəyyənləşdirilməsini qeyri-mümkün edir. Lakin beynəlxalq təcrübədən və mövcud olan statistik təhlildən aydın olur ki, hazırkı şəraitdə universitet-sənaye əməkdaşlığı ürəkaçan səviyyədə deyildir və bunun inkişafı labüddür. Bu istiqamətdə hesab edirik ki, indiki şəraitdə vasitəçi təşkilatların formalaşması və sayının artırılması, müvafiq internet portalının yaradılması, mükafat sisteminin tətbiqi və kommersiyalaşdırmadan öncə dövlətin tədarük etməsi daha təsirli ola bilər.

1. Universitet-sənaye əməkdaşlığını stimullaşdıran vasitəçi təşkilatların yaradılması. Belə təşkilatların əsas vəzifəsi universitet-sənaye əməkdaşlığının genişləndirilməsi məqsədilə tətbiqi və biznes yönümlü tədqiqatların gücləndirilməsidir. Həmin təşkilatların əsas xüsusiyyəti sənaye müəssisələri ilə geniş əlaqələrə malik olmaqdır. Vasitəçi təşkilatlar universitet-sənaye əməkdaşlığının zəif tərəflərini müəyyənləşdirir və hər iki təşkilatın maraqları çərçivəsində fəaliyyət göstərirlər. Bu təşkilatlar ədatən universitetlərdə yaradılır, firmalarla geniş əməkdaşlıq etməklə tətbiqi araşdırmaların reallaşdırılmasına fokuslanırlar. Vasitəçi təşkilatlar tərəfindən universitet-sənaye əməkdaşlığı aşağıdakı formalarda stimullaşdırılır:

- təşkilatın idarəetməsində özəl sektor nümayəndələrinin təmsil olunması;
- özəl sektora araşdırma xidmətlərinin ötürülməsi;
- universitetlərdə reallaşdırılan tədqiqatların təcrübi yönümlü olmasının təmin edilməsi;
- müəssisələrin iştirakı ilə qarşılıqlı əlaqələrin inkişafının təmin edilməsi.

2. Universitet-sənaye əməkdaşlığını istiqamətləndirən internet-platformanın yaradılması. Təklif edilən platforma vasitəsilə araşdırmalar haqqında informasiyalar verilməklə iki təşkilat arasında hazırkı və gələcək əməkdaşlığı genişləndirmək mümkündür. Belə ki, müəssisələr internet-platforma vasitəsilə universitetlərdə icra edilən araşdırmalar haqqında geniş informasiya əldə edə bilərlər.

3. "Kommersiyalaşdırmadan öncə alış"-dan istifadə. Belə metoddan istifadə riskli və qeyri-müəyyən araşdırma layihələrinin reallaşdırılmasında effektiv olmaqla universitet-sənaye əməkdaşlığının inkişafını təmin edə bilər.

4. Universitet-sənaye əməkdaşlığının inkişafı məqsədilə mükafat sisteminin tətbiqi. Bu sistem hər iki təşkilat üçün icra edilə bilər. Belə ki, universitetlərin maliyyələşdirilməsində ənənəvi formadan istifadə ilə yanaşı onların sənaye ilə əməkdaşlıqlarını yüksək qiymətləndirmək universitetlərin bu sahədə stimullaşmasına səbəb ola bilər. Eyni zamanda firmalara universitetlər ilə əməkdaşlığın səviyyəsinə uyğun vergi güzəştlərinin tətbiqi onları tədqiqat sahəsinə daha çox diqqət göstərməyə həvəsləndirə bilər.

**Ədəbiyyat**

1. Acworth, E.B. (2008). “University–industry engagement: The formation of the Knowledge Integration Community (KIC) model at the Cambridge-MIT Institute” Research Policy, Elsevier, Vol. 37, 2008, pp. 1241–1254.
2. Kaymaz, K. and Eryiğit, K.Y. (2011). “Determining Factors Hindering University-Industry Collaboration: An Analysis from the Perspective of Academicians in the Context of Entrepreneurial Science Paradigm” International Journal of Social Inquiry Vol. 4, 2011 pp. 185-213.
3. Meyer-Krahmer, F. and Schmoch, S. (1998) Science-based technologies: university-industry interactions in four fields, Research Policy, 27(8), pp. 835-851.
4. Ankrah, S. (2007) University-Industry Interorganisational Relationships for Technology/Knowledge Transfer: A Systematic Literature Review, Leeds University Business School Working Paper Series, 1(4), June.
5. Cohen, L. Manion L. and Morrison, K. (2018). “Research methods in education” Description: Eighth edition. New York: Routledge, 2018.
6. OECD (2013), Education at a Glance 2013: OECD Indicators, OECD Publishing. http://dx.doi.org/10.1787/eag-2013-en.
7. Paunov, C. & Planes-Satorra, S. & Moriguchi, T. (2017). "What role for social sciences in innovation?: Re-assessing how scientific disciplines contribute to different industries," OECD Science, Technology and Industry Policy Papers 45, OECD Publishing.
8. Banal-Estanol, A. Jofre-Bonet, M. and Meissner, C. (2003). “The Double-Edged Sword of Industry Collaboration: Evidence from Engineering Academics in the UK” (Report No. 13/03). London, UK: Department of Economics, City University London, 2003, pp. 39.
9. Guimón, J. (2013). “Promoting University-Industry Collaboration in Developing Countries” World Bank, 2013, pp. 11.
10. Cyert, R.M. and Goodman, P.S. (1997). “Creating Effective University-Industry Alliances: An Organizational Learning Perspective” Tepper School of Business, Carnegie Mellon University, 1997, pp. 14.
11. Sahama, R.T. and Pillay, H. (2016). “Realisation of University- Industry Collaboration through Industry-Based Learning at Indonesian Higher Education” Proceedings of INTED 2016 Conference 7th-9th March 2016, Valencia, Spain, pp. 3853-3863.
12. Petruzzelli, A.M. (2011). “The impact of technological relatedness, prior ties, and geographical distance on university–industry collaborations: A joint-patent analysis” Technovation, Elsevier, Vol. 31, 2011, pp. 309–319.
13. Maldonado, M.U. and Maldonato, M. and Chaim, R.M. and Pietrobon R. and Varvakis, G. (2010). “University-Industry partnerships with a focus on BRIC countries: A systems perspective on the good, the bad and the ugly” The 28th International Conference of The System Dynamics Society, 25th July, 2010, Seoul, Korea, pp. 10.
14. Liévana, C.M. (2010). “The Relationship between Industry and Universities” Cuadernos de Estudios Empresariales, vol. 20, 2010, pp. 81-105.
15. Cunningham, J.A. and Link, A. N. (2014). “Fostering University-Industry R&D Collaborations in European Union Countries” The Whitaker Institute, 2014, pp. 19.
16. Kondo, M. (2006). “University-Industry Partnerships in Japan” Symposium on “21st Century Innovation System for Japan and the United States” Tokyo, January 10-11, 2006, pp. 34.
17. Tijssen, R. and Lamers, W. and Yegros, A. (2017). “UK universities interacting with industry: patterns of research collaboration and inter-sectoral mobility of academic researchers” Working paper no. 14, March 2017, pp. 35.
18. Neru, R. (2005). “An Overview of University-Industry Collaborations in Asian Countries: Towards Effective University-Industry Partnerships” 2005, pp. 59.

# DÜNYA TƏCRÜBƏSİNDƏ MÜNAQİŞƏ SONRASI İQTİSADİ BƏRPANIN BƏZİ MƏSƏLƏLƏRİ

*Daxil olub: 26 aprel 2023-cü il*
*Qəbul olunub: 7 sentyabr 2023-cü il*
*Received: 26 April 2023*
*Accepted: 7 September 2023*

***Nazim Məmmədov***
*elmi işçi, İAETİ, UNEC*
*nazim_mammadov@unec.edu.az*

**Xülasə**

Məqalədə münaqişə sonrası iqtisadi bərpa məsələləri müxtəlif aspektlərdən araşdırılır. Münaqişə sonrası iqtisadi bərpa məsələlərinin böyük əhəmiyyəti xüsusi olaraq vurğulanır. Məqalədə münaqişə sonrası iqtisadi bərpa məsələlərinə təsir edən amillərin məzmunu açıqlanır və təhlili verilir. Məqalə elmi sistemli təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Nəticə olaraq münaqişə sonrası iqtisadi bərpa məsələləri təhlil edilmiş, ən müasir yanaşmalar və yenilikçi əsas istiqamətlər göstərilmişdir. Məhdudiyyətlər: bir sıra hallarda statistik məlumatlara çıxış imkanlarının məhdudluğu və daha müfəssəl və etibarlı məlumatların əldə edilməsi zəruriyyəti. Praktiki əhəmiyyət: məqalə Azərbaycan hökumətinin münaqişə sonrası iqtisadi bərpa məsələləri ilə bağlı siyasətinə töhfə verməklə yanaşı, yerli və xarici elmi tədqiqatçılar üçün də əhəmiyyətli hesab oluna bilər. Məqalənin elmi yeniliyi və orijinallığı: münaqişə sonrası iqtisadi bərpa məsələlərinə təsir edən amillərə fərqli aspektdən yanaşma tədqiqatın elmi yeniliyini təşkil edir. Orijinallıq isə tədqiqat zamanı yeni ideya və fikirlərdən istifadə olunmasıdır.

***Açar sözlər:*** *post-conflict, münaqişə sonrası iqtisadi bərpa.*

# SOME ISSUES OF POST-CONFLİCT ECONOMİC RECONSTRUCTİON IN WORLD PRACTICE

***Nazim Mammadov***
*researcher, SRIES (UNEC)*
*nazim_mammadov@unec.edu.az*

**Abstract**

The article examines the issues of post-conflict economic reconstruction in various aspects. The growing importance of issues of post-conflict economic reconstruction is emphasized. The article describes and analyzes the content of the factors influencing the issues of post-conflict economic reconstruction. The article is based on research methods such as scientific systematic analysis and logical generalization. As a result, the issues of post-conflict economic reconstruction were analyzed, the most modern approaches were highlighted, the most demanded areas of development were identified and the main areas of activity were identified. Limitations: In some cases, limited

access to statistics and the need for more detailed and reliable information. Practical significance: The article not only contributes to the Azerbaijani government's post-conflict economic reconstruction policy, but can also be considered important for local and foreign researchers. Scientific novelty and originality of the article: a different approach to factors affecting post-conflict economic reconstruction constitutes scientific novelty of research. Originality is the use of new ideas and thoughts in research.

***Keywords:*** *post-conflict, post-conflict economic reconstruction.*

## НЕКОТОРЫЕ ВОПРОСЫ ПОСТКОНФЛИКТНОГО ЭКОНОМИЧЕСКОГО ВОСТАНОВЛЕНИЯ В МИРОВОЙ ПРАКТИКЕ

***Назим Маммадов***
*научный сотрудник, НИИЭИ, UNEC*
*nazim_mammadov@unec.edu.az*

**Резюме**
В статье в разных аспектах рассматриваются вопросы постконфликтного восстановления экономики. Подчеркивается все большая значимость вопросов постконфликтного восстановления экономики. В статье разъясняется и анализируется содержание факторов, влияющих на вопросы постконфликтного восстановления экономики. Статья написана на основе таких исследовательских методов, как научный системный анализ и логическое обобщение. Как результат работы были проанализированы вопросы постконфликтного восстановления экономики, показаны самые современные подходы, выделены наиболее востребованные направления развития и обозначены основные направления деятельности. Ограничения: ограниченность в ряде случаев доступности статистических данных, а также необходимость более детального и надежного получения информации. Практическое значение: статью можно считать важной для отечественных и зарубежных научных исследователей, а также вносящей вклад в политику правительства Азербайджана по вопросам постконфликтного восстановления экономики. Научная новизна и оригинальность статьи: иной подход к факторам, влияющим на вопросы постконфликтного восстановления экономики составляет научную новизну исследования. Оригинальность же заключается в том, что в исследовании были представлены также новые идеи и мысли.

***Ключевые слова:*** *post-conflict, постконфликтное восстановление экономики.*

## Giriş

Münaqişə sonrası bərpa sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə və müharibədə dağıdılmış ölkə ərazisinin davamlı sosial-iqtisadi inkişafına nail olmağa yönəlmiş bir prosesdir. Münaqişə sonrası (post-conflict) termini münaqişənin yaranmasının köklü səbəblərinin silinməsini heç də nəzərdə tutmur. Bu, hətta sülh sazişinin imzalanmasından və ya seçkilərin keçirilməsindən sonra da tez-tez təkrar edilən hərbi əməliyyatların tam dayandırılması demək deyil. Bu, daha çox, sadəcə hərbi hərəkətlərin zəifləməsi və ya yanlış idarə olunduğu təqdirdə yenidən gərginləşdirilə bilən münaqişə zamanı sülh üçün "imkanlar pəncərəsi" deməkdir [5,6]. Münaqişə sonrası bərpa geniş mənada hərbi (qanun-qaydanın bərpası), siyasi (idarəetmə), iqtisadi (bərpa və inkişaf) və sosial şəraitin (ədalət və barışıq) yaxşılaşdırılması səylərini əhatə edən mürəkkəb, bütöv və çoxplanlı proses kimi başa düşülür. Münaqişə sonrası bərpanın iqtisadi ölçüləri, adətən, fövqəladə yardımın paylanması, fiziki infrastrukturun və obyektlərin bərpası, sosial xidmətlərin bərpası, özəl sektorun inkişafı üçün lazımi şəraitin yaradılması və makroiqtisadi sabitliyin və dayanaqlı artımın təmin edilməsi üçün zəruri struktur islahatlarının həyata keçirilməsi kimi məsələləri əhatə edir.

*Nəzəri aspektlər*

Münaqişə sonrası bərpaya dair ədəbiyyat əksər hallarda təhlükəsizlik məsələlərinə və sülh quruculuğu əməliyyatlarının siyasi aspektlərinə yönəlib. Tədqiqatların əksəriyyəti tarix, politologiya və dövlət siyasəti fənləri ilə məhdudlaşır [4]. Yenidənqurmaya, bərpaya həsr olunmuş tədqiqatların əksəriyyəti iqtisadi məsələlərə, bir analitikin ifadə etdiyi kimi "yalnız dolayı və ya gecikmiş fikir kimi, həmçinin kiçik iqtisadi qətilik, konkretlik və ya hərtərəfli yanaşma ilə" toxunur [1]. Əlbəttə ki, müharibədən zərər çəkmiş ölkələrin xarici yardım və maliyyələşmə ehtiyacını heç kəs inkar etmir. Münaqişələr davamlılıq və intensivliyə görə fərqlənsə də, onların nəticələri əksər hallarda insan, sosial və fiziki kapital baxımından dağıdıcıdır. Onların nəticələri aşağıdakıları əhatə edə bilər:

- insan inkişafı və təhlükəsizliyi göstəricilərinin pisləşməsi (məsələn, gözlənilən ömür müddəti, körpə ölümü, səhiyyə və təhsil xidmətlərinə çıxış);
- infrastrukturun dağılması (məsələn, nəqliyyat, rabitə, su və enerji infrastrukturu və mənzil fondu);
- əhalinin daxili miqrasiyası və beyinlərin axınına səbəb olan mühacirət;
- sosial yardıma ehtiyacı olan insanların sayının kəskin artması (məsələn, əlillər, yaşlı insanlar, uşaqlar, daxili məcburi köçkünlər və müharibə veteranları);
- iqtisadi tənəzzül, bəzən müharibədən əvvəlki səviyyədən də xeyli aşağı olur;
- yüksək hərbi xərclərdən (sosial xərclər daxil) və müharibə dövründə zəif gəlirlərdən irəli gələn böyük büdcə kəsiri;

• pul çap etməklə müharibənin maliyyələşdirilməsinə görə inflyasiyanın artması;
• ölkədən investisiyalaşmış aktivlərin geri çəkilməsi;
• müharibə dövründə xidmət göstərilməyən borcların artması;
• xarici ticarətin pozulması [9,10].

Münaqişə sonrası iqtisadi bərpa üzrə ədəbiyyatda ümumi əsas kimi hər bir bərpa olunma cəhdlərinin unikal olması ehtimalı istifadə olunur. Hər bir müharibədən sonrakı vəziyyət aşağıdakı kimi amillərə görə fərqlənir: münaqişənin yaranma səbəbləri və onun həlli üsulu; ölkənin bütün ərazisində hərbi əməliyyatların tam (və ya qismən) dayandırılması; ölkənin ilkin iqtisadi şərtləri və inkişaf səviyyəsi; nizamasalmanın beynəlxalq siyasi dəstək dərəcəsi; donorların ölkəyə marağı [1]. Nəticədə bərpa işləri hər bir ölkənin konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır.

*Təcrübələr*

Donorların son zamanlar çoxsaylı münaqişə sonrası bərpa proqramlarında iştirak etməsinə baxmayaraq, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Qərbi Avropanın bərpası daha uğurlu tarix hesab olunur. Bu, Qərbi Avropa ölkələrinə verilən pulların miqdarı ilə bağlı deyildir. Məsələn, Bosniya və Herseqovina məlum Deyton sazişinin (1995) imzalanmasından sonra ilk iki il ərzində adambaşına Almaniyaya müharibədən (1945) sonrakı dövrdə ödənilən vəsaitdən 7 dəfə çox vəsait almışdır [7]. Həqiqətən də, Bosniyada belə geniş yardımın olması yerli iqtisadiyyatı yardımdan asılı vəziyyətə salaraq mənfi yan təsir göstərmişdir [8]. Bundan başqa, Birləşmiş Ştatlar Marşal planını elan etdikdə, İkinci Dünya müharibəsinin nəticəsi ümumi şəkildə tanındı. Əksinə, müasir zamanda bərpa işləri daha çox hərbi əməliyyatların bərpası hələ də çox ehtimal olunan son dərəcə tənzimlənməmiş münaqişə sonrası şəraitində başlanır [3]. Nümunə kimi hərbi əməliyyatların yenidən bərpasının iki halı Anqola və Liberiyadır. Müharibədən əziyyət çəkən bu və digər ölkələrdə silahlı toqquşmaların dayandırılmasından sonra keçmiş döyüşçülərin tərxisi, tərksilah edilməsi və reinteqrasiyasının təxirə salınmamasının nə qədər əhəmiyyətli olduğunu nümayiş etdirdi [2]. Bundan başqa, Kosovonun təcrübəsi göstərdi ki, yekun status və mülkiyyət hüquqları tam tənzimlənməyincə özəlləşdirmə prosesini başlatmaq və xarici investorları cəlb etmək çox çətindir. Siyasətin nəticələrindəki fərqlər də əlavə olaraq idarəetmə potensialını bərpa etmək lazım olan müflis və ya zəif dövlətlərin bərpasının çətinliyinin artması ilə bağlıdır. Məsələn, Bosniyanın bərpası göstərdi ki, beynəlxalq birliyin iqtisadiyyatının idarə olunmasında üstün rol almasının yan təsiri kimi "yerli mülkiyyətin" olmaması və islahat prosesinə münasibətdə passivliyin inkişafı ola bilər [8]. Bosniya nümunəsi bir daha bir neçə donorun bərpa səylərində iştirak etdiyi və hər birinin öz yardım proqramlarını müstəqil olaraq müəyyənləşdirdiyi zaman koordinasiya ilə bağlı ciddi problemlərin ortaya çıxa biləcəyini göstərdi. Nəhayət, müasir yenidənqurma proqramlarının

məhdud uğuru “yardım və yenidənqurma kompleksi”-nin (RRC - relief and reconstruction complex) meydana gəlməsi ilə izah olunur. Əfqanıstan, Bosniya, Kamboca, Şərqi Timor və İraq kimi yerlərdə özəl korporasiyalar və QHT-lər yerli hakimiyyət orqanlarını sıxışdıraraq bir çox bərpa funksiyalarını yerinə yetiriblər. Nəticədə xarici yardımın böyük bir hissəsi yerli əhaliyə çatmırdı. Bundan başqa, iri beynəlxalq missiyaların genişləndirilməsi yerli iqtisadiyyatda təhriflərə gətirərək “Holland xəstəliyi”nin (Dutch disease) yaranmasına səbəb olub. Əlavə olaraq, xarici podratçıların qanunsuz hərəkətləri hallarının təsadüfi şəkildə ifşa olunması beynəlxalq missiyaların legitimliyinə xələl gətirir, həmçinin onların hesabatlılıq məsələlərini qaldırır.

*Yenidənqurma siyasəti*

Öz-özlüyündə yenidənqurma geniş spektr üstüörtülü fərziyyələr daşıya bilən yüklənmiş bir termindir. Kimsə belə qənaətə gələ bilər ki, yenidənqurma əvvəlki status-kvonun bərpası deməkdir ki, bu da nə normativ arzuolunan, nə də siyasi cəhətdən mümkün deyildir.

Digərləri isə, bərpanın münaqişənin hər hansı davamlı dəstəyinin dayandırılmasına məcbur etmənin siyasi cəhdi olaraq düşünməyə başalamaq üçün təkan kimi görə bilərlər.

Yenidənqurma işlərinin maliyyələşdirilməsini təmin edilə biləcək institusional mexanizmlərlə bağlı hələlik dəqiq mövqe yoxdur. Yəni hansı yeni institutlar və nəzarət mexanizmləri lazımdır və hansı mövcud institutların yenidən qurulmağa və ya sadəcə dəyişməyə ehtiyacı var sualı açıq olaraq qalır.

Bərpa məsələlərinin müzakirəsi zərərçəkmiş şəxslərlə qarşılıqlı əlaqədə və ya xüsusilə vətəndaş münaqişəsindən sonra yerlərdə reallıqlarla deyil, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan iqtisadi ehtiyacların və şablonların qiymətləndirilməsindən başlanır. Faktiki olaraq, yenidənqurma münaqişədən çıxan bu cəmiyyətlərdə hakimiyyətlə münasibətlərinin rekonfigurasiyası ilə sıx bağlıdır.

Beynəlxalq ictimaiyyət arasında müxtəlif münaqişələrə necə son qoyulacağına dair konsensusun az olması və seçilmiş hökumətlərə öz ölkələrindən kənarda deyil, daxildə investisiya qoymaq üçün təzyiqlər artdıqca, bu maliyyələşmənin haradan əldə ediləcəyi sualı böyük əhəmiyyət kəsb edir.

*Qaçqınların qayıdışı və repatriasiya*

Qaçqınların repatriasiyası və məcburi köçkünlərin öz doğma evlərinə qayıtması münaqişədən sonrakı hər hansı yenidənqurma planı üçün əsas problem olaraq qalır. Təhlükəsizlik zəmanəti ilə yanaşı, regiondakı münaqişələrin xarakteri o deməkdir ki, istənilən davamlı sülh münaqişədən sonrakı istənilən ssenarıdə köçkünlərin və qaçqınların ehtiyaclarını nəzərə almalıdır. Fiziki təhlükəsizlik və əsas xidmətlərə çıxışın beynəlxalq təminatları da bura daxildir.

Əhalini başqaları ilə yanaşı, ən çox narahat edən də odur ki, keçid dövründə ədalətin bərpası və ya siyasi hesabatlılıq üçün heç bir mexanizm yoxdur. Münaqişədən çıxan bütün ölkələrdə ədalətin, yoxsa yenidən qurulmanın birinci yerdə olması məsələsi son dərəcə vacibdir. Bərpa ilə məşğul olan dövlətlər yeni kövrək sabitliyin qorunub saxlanması naminə keçid dövrünün tarixi qisas hesabını və ya ədalətini təxirə salmağa təşviq edilməlidirmi? Yoxsa onlar ədalət mühakiməsinin hansısa əsas tədbirlərində israr etməlidirlər? Hesabatlılıq və ədalət mexanizmlərinin olmaması qiyamların başlanğıcında mühüm rol oynaya bilər və münaqişədən sonrakı dövrdə bu çatışmazlıq xüsusi narahatlıq doğurur. Qısa müddətdə bu fərdləri ayrı-ayrı qisas aktlarına təşfiq edə bilər, uzun müddətdə isə bu, yəqin ki, hər hansı bir məskunlaşmanın davamlılığına xələl gətirəcək.

**Nəticə**

Müharibədən sonrakı uğurlu yenidənqurma həm nizamlı ola bilər, həm də proqnozlaşdırıla bilər. Bununla belə, bunu ölçmək çətindir və tətbiq olunan strategiyalar azdır. Çoxsaylı ədəbiyyatlarda bir çox problemlər müəyyən edilmiş olsa da, effektiv xarici müdaxilə üçün məlum olan plan yoxdur.

Xarici yardımın riskləri, məhdudiyyətləri və öhdəlikləri çoxdur və uğursuzluğun ölçüsü yüksəkdir. Yanlış növ yardım yerli bərpa proseslərinə mane olur, yerli peşəkar potensialı inhisarlaşdırır, asılılıq doğurur, daha uyğun yerli həll yollarını üstələyir, yerli hakimiyyət orqanlarını özündən uzaqlaşdırır və alçaldır, acizlik hisslərini gücləndirir, ənənəvi yarışı təşviq edir və paxıllıq yaradır. Bu, ikinci dərəcəli fəlakət yarada bilər.

Həm müharibə, həm də onun nəticəsində insan travması daha ciddi xəstəliyin əlamətləridir. Bəzi müharibələr elan edilməmiş olur, bəzi nəticələri isə dəqiq ölçmək olmur. Bir çox siyasətçilər və təcrübəli mütəxəssislər psixoloji travma, münaqişələrin yumşaldılması və hətta insan hüquqlarının müdafiəsi kimi daha ziddiyətli sahələri araşdırmaq istəmirlər. Ənənəvi su təchizatı, kanalizasiya, səhiyyə, mənzil və ərzaq yardımı sektorlarından fərqli olaraq, onlar daha az ölçülə bilər və uğurları göz qabağında olmaya bilər. Səmərəli cavab tədbirləri bu komponentlərin hamısını nəzərdən keçirir, yerli dinamikanı və əsas səbəbləri əks etdirir və resursları lazım olan yerlərə çatdırır.

Bərpa sxemi fövqəladə vəziyyət mərhələsindən daha çoxunu əhatə etdikdə yaxşı işləyir və zaman keçdikcə xarici işçilərin, maliyyələşdirmənin və rəhbərlik səviyyəsinin azalması ilə xarakterizə olunur.

**Ədəbiyyat**

1. Graciana del Castillo. 2008. *Rebuilding War-Torn States: The Challenge of Post-Conflict Economic Reconstruction*. Oxford: Oxford University Press.

2. Graciana del Castillo. 2010. Peace through Reconstruction: An Effective Strategy for Afghanistan. *Brown Journal of World Affairs* 16, no. 2: 195-211.
3. Simon Chesterman. 2004. *You, the People: The United Nations, Transitional Administration, and State-Building*. Oxford: Oxford University Press, 2004.
4. Christopher J. Coyne. 2007. Reconstruction and Reconciliation: What's Economics Got to Do With It? *The Whitehead Journal of Diplomacy and International Relations* 8, no. 1: 1-15.
5. Martina Fischer. 2004. *Recovering from Violent Conflict: Regeneration and (Re-) Integration as Elements of Peacebuilding*. Berlin: Berghof Research Center for Constructive Conflict Management.
6. John J. Hamre and Gordon R. Sullivan. 2002. Toward Postconflict Reconstruction. *The Washington Quarterly* 25, no. 4: 85-96.
7. Stephen Lewarne and David Snelbecker. 2004. *Economic Governance in War Torn Economies: Lessons Learned from the Marshall Plan to the Reconstruction of Iraq*. USAID, The Services Group (TSG).
8. Nikolaos Tzifakis and Charalambos Tsardanidis. 2006. Economic Reconstruction of Bosnia and Herzegovina: The Lost Decade. *Ethnopolitics* 5, no. 1: 67-84.
9. World Bank. 1998. *Post-Conflict Reconstruction: The Role of the World Bank*. Washington DC: The World Bank.
10. World Bank. 1999. *The Transition from War to Peace: An Overview*. Washington DC: The World Bank.

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 84 - 95
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 84 - 95

# AĞILLI ŞƏHƏR: KONSEPSİYADAN REALLIĞA DOĞRU FƏALİYYƏT TƏCRÜBƏSİNİN TƏHLİLİ VƏ İMKANLARA BAXIŞ

*Daxil olub: 16 may 2023-cü il*
*Qəbul olunub: 12 iyun 2023-cü il*
*Received: 16 May 2023*
*Accepted: 12 June 2023*

***Şirin Ramazanova***
*doktorant, UNEC*
*ramazanova.shirin@mail.ru*

## Xülasə

Tədqiqatın məqsədi "Ağıllı şəhər" modelinin reallaşdırma təcrübəsinin və şəhərin struktur elementlərinin təhlil edilməsidir. Müasir dövrün çağırışlarına əsasən dayanıqlı iqtisadiyyata malik olmaq üçün ölkələr yeni inkişaf modelini tətbiq edir. İşğaldan azad edilmiş ərazilərdə bərpa işlərini aparmaq üçün rəqəmsallaşmanın üstünlüklərindən istifadə edilir. Bu baxımdan "Ağıllı şəhər" konsepsiyasının təhlili aktual hesab olunur. Məqalədə "Ağıllı şəhər"lərin təkamülü və müasir şəhər quruluşunda vacibliyi nəzərdən keçirilmiş, elementləri şərh edilmişdir. Əşyaların internetinin (*IoT*), böyük verilənlərin (*Big data*) və digər texnoloji kəşflərin şəhərlərin inkişafındakı rolu araşdırılmışdır. London şəhəri əsasında şəhərlərin inkişafında əhalinin rolu tədqiq edilmişdir. Məqalədə müşahidə, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə**,** sistemli təhlil, ekspert metodları tətbiq olunmuşdur.

***Açar sözlər:*** *ağıllı şəhər, əşyaların interneti, böyük verilənlər, dayanıqlı inkişaf, İKT.*

# SMART CITY: FROM CONSEPT TO REALITY, OPERATIONAL EXPERIENCE ANALYSIS AND OPPORTUNITY REVIEW

***Shirin Ramazanova***
*PhD student, UNEC*
*ramazanova.shirin@mail.ru*

## Abstract

The purpose of the study is to analyze the implementation experience of the "Smart City" model and the structural elements of the city. In order to have a sustainable economy based on the challenges of the modern era, countries are applying a new development model. The advantages of digitalization are being used to carry out restoration work in our liberated territories. In this regard, the analysis of the "Smart city" concept is considered relevant. In the article, the evolution of "Smart cities" and their importance in the modern urban structure were considered, and their elements were interpreted. The role of the Internet of Things (IoT), Big data and other technological discoveries in the development of cities has been investigated. Based on

the city of London, the role of population in urban development was studied. Observation, comparative analysis, logical generalization, systematic analysis, expert methods were applied in the article.

***Keywords***: *Smart City, Internet of things, big data, sustainable development, information communication technologies.*

## УМНЫЙ ГОРОД: ОТ КОНЦЕПЦИИ К РЕАЛЬНОСТИ, АНАЛИЗ ОПЫТА ЭКСПЛУАТАЦИИ И ОБЗОР ВОЗМОЖНОСТЕЙ

***Ширин Рамазанова***
*докторант, UNEC*
*ramazanova.shirin@mail.ru*

**Резюме**

Цель исследования - проанализировать опыт внедрения модели «Умный город» и структурных элементов города. Чтобы иметь устойчивую экономику, основанную на вызовах современной эпохи, страны применяют новую модель развития. Для проведения восстановительных работ на освобожденных территориях используются преимущественно цифровизация городов. В связи с этим анализ концепции «Умный город» считается актуальным. В статье рассмотрена эволюция «Умных городов» и их значение в современной городской структуре, а также дана интерпретация их элементов. Исследована роль Интернета вещей (*IoT*), больших данных и других технологических открытий в развитии городов. На примере города Лондона была изучена роль населения в развитии городов. В статье применены: наблюдение, сравнительный анализ, логическое обобщение, систематический анализ, экспертные методы.

***Ключевые слова:*** *умный город, интернет вещей, большие данные, устойчивое развитие, ИКТ.*

### Giriş

Dünya ölkələri elmi texniki tərəqqinin ən son yeniliklərini tətbiq etməklə rəqəmsallaşan dünyada dayanıqlı iqtisadiyyat qurmağa çalışırlar. Rəqəmsallaşma hazırda bütün dünyanı bürüyür. Artıq rəqəmə çevrilə bilən hər bir şey rəqəmsallaşır. Yaşadığımız yeni dövrdə yeni tələblər yaranır. Rəqəmsallaşma həyatımıza o qədər nüfuz edir ki, artıq yaşadığımız şəhərlər bütövlükdə innovativ şəhərlərə - "Ağıllı şəhərlər"ə çevrilir. "Ağıllı şəhər" rəqəmsallaşmanın ən mühüm elementlərindən biridir.

Ağıllı şəhər (*smart city*) nədir? Ağıllı şəhər ağıllı cihazlarla və ağıllı avadanlıqlarla əhatə olunmuş və ya qurulmuş şəhərdir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı şəhərlərin inkişafı üçün yeni ideya meydana gətirdi. "Ağıllı şəhəri həm də İKT əsasında qurulmuş meqapolis böyüklüyündə ərazi adlandırırlar" (Leonidas, 2017). Lakın ağıllı şəhər təkcə İKT ilə təchiz olunmaqla kifayətlənməməlidir. ""Ağıllı şəhər"in əsas prinsiplərindən biri şəhərin resurslarını qənaətlə istifadə etməklə qarşıya qoyulmuş məqsədə effektiv nail olunmasıdır" (Elanda, 2022).

Ağıllı şəhərlər ağıllı enerji istehlakı, ağıllı nəqliyyatın idarə edilməsi, innovasiyanın həyata keçirilməsi üçün bir növ canlı labaratoriyadır. Eyni zamanda vətəndaşların gündəlik həyatını rahatlaşdırır, ətraf mühiti qoruyur, iqtisadiyyatın inkişafına təkan verir. Ağıllı şəhərə həm də əhalinin birgə yaradıcılıq qabiliyyətinə marağı artıran açıq platforma kimi baxılır. İnsanlar, xidmətlər, infrastruktur və texnologiya arasinda olan müxtəlif əlaqə formalarını əhatə edir. Bu cür açıq innovativ sistemlər ictimai məsələlərə əhalini cəlb etməklə yüksək səviyyəli sosial əlaqələrin yaranmasına və birgə qərar qəbul etməyə səbəb olur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərini inkişaf etdirmək üçün "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin tətbiqinə başlanılmışdır. Bu layihələr müasir çağırışlara və beynəlxalq standartlara cavab verir. ""Ağıllı" şəhər və "ağıllı" kənd texnologiyalarının tətbiqi Qarabağ və Şərqi Zəngəzur regionlarını dünyanın süni intellekt və təbiət gözəlliyinin vəhdətindən yaranan turizm incisinə və eyni zamanda Azərbaycanı innovasiya startap fabrikinə çevirə bilər" [12].

**"Ağıllı şəhər" konsepsiyasının təkamülü və dünya təcrübəsi**

"Hazırda dünya ölkələri əhalisinin 55%-i şəhərlərdə yaşayır. BMT-nin məlumatına görə, 2050-ci ildə bu göstəricinin 68%-ə çatacağı praqnozlaşdırılır" (Afolabi, 2023). Urbanizasiya ildən-ilə daha da artır. Belə bir şəraitdə "ağıllı şəhər" konsepsiyası mövcud problemlə mübarizə apara biləcək ən uğurlu vasitələrdən birinə çevrilir.

İnformasiya-kommunikasiya texnologiyaları və mühəndislik sahəsindəki kəşflərdən ilhamlanaraq şəhər qurucuları urbanizasiyanın mənfi nəticələri ilə mübarizə aparmaq üçün daha yeni ağıllı üsullar axtarırlar. Eyni zamanda şəhərlərin çoxu özlərini innovasiyanın, tədqiqatların, təhsil və siyasətin mərkəzi kimi doğruldur. Bu üsulla şəhərlər cəmiyyətə və iqtisadiyyata daha çox təsir edirlər. "Ağıllı" şəhərlərin fəaliyyətini, insanları cəlb etməklə daha proqressiv etmək olur. "İri şəhərlərin merləri sorğuların aparılmasında, qərar qəbul edilməsində vətəndaşları cəlb edir. Gündəlik məsələləri həll etmək üçün müxtəlif formalarda şəhər və əhali arasında yeni kanallar öyrənilir" (Jurgen, 2017). Bir sözlə, "ağıllı" şəhərlərin inkşafında vətəndaşların iştirakı çox vacibdir.

**"Ağıllı" şəhərlərin təkamülü.** İlk "ağıllı" şəhərlər 90-cı illərdə yaradılmağa başlanıldı. İlk əvvəllər alimlər tərindən "ağıllı şəhər" ifadəsi istifadə olunmurdu. "90-cı

illərin axırında alimlər şəhər və İKT anlayışlarının vəhdətini fərqli nöqteyi-nəzərdən müzakirə edirdilər" (Petrenko, 2021). İKT-ni şəhər mühitində yerləşdirmək və yerli tələbatı ödəmək üçün fəqli terminlər işlətməyə başladılar.

İlk dəfə 90-cı illərin sonu yerli şəbəkədə "virtual şəhər" meydana gəldi. Bu tendensiya "virtual şəhərlər" və ya "veb şəhərlər" kimi ifadə olunurdu. Virtual şəhərlər Ümumdünya İnternet Şəbəkəsində yaradılmışdı. Bu şəhərlər əsl şəhərlərin prototipi kimi çıxış edirdi və interaktiv ictimai arena formasında yaradılmışdı. Şəhərdə baş verən bütün elektron fəaliyyət burada öz əksini tapırdı. Başqa sözlə, bu şəhər növü real şəhərin imitasiyası idi. Bu "elekton şəhər"də məlumat bazası yığılırdı. Nəqliyyat, turistik bələdçilər və mədəni tədbirlər haqqında məlumatlar var idi. Şəhər əhalisinin monitorinqinin qurulması, xidmətlərin göstərilməsinin yeni elektron formalarını təqdim etmək, yerli firmalararası şəbəkələrin yaranması, həmçinin sosial-ictimai inkişaf "ağıllı" şəhərlər yolunda inernetden istifadənin ilk cəhdləri idi. Lakin "virtual şəhər"lərin inkişafı üçün vacib olan əsas element - istifadəçilərin (əhalinin) sayı az idi (Leonidas, 2017).

Virtual şəhərlərdən sonra "Rəqəmsal şəhər" anlayışı istifadə olunmağa başlanıldı. "Rəqəmsal şəhər" sosial cəhətdən daha inklüziv və idarə edilə bilən virtual şəhər növü idi. Rəqəmsal şəhərlərin ilk formaları əhalinin qarşılıqlı əlaqəsi üçün tematik məkanlara sahib idi. İlk rəqəmsal şəhər praktikada aktivistlər və siyasətçilər arasında dialoq yaratmaq üçün Amsterdamda 1994-cü ildə reallaşdırıldı. Vətəndaşların maraq göstərdiyi bu proses uğurla nəticələndi. Bu hadisə internetin bütün şəhərə nüfuz etməyinə səbəb oldu. Virtual və rəqəmsal şəhərlər oxşar texnoloji vasitələrlə eyni problemlərin həllinə çalışırdılar. Onlar İKT vasitəsi ilə insanları sosiallaşdırmaq, yerli idarəetmə orqanlarını demokratikləşdirmək və virtual şəbəkəni istifadə etmək üçün ictimai birliklər yaratmağa çalışırdılar. Ümumdünya İnternet Şəbəkəsində şəhər infrastrukturunun alternativ xidmətlər təklif edən formaları saytlar qismində işlənib hazırlanırdı. Burada əsasən informasiya axtarışı, şəhər üzrə bələdçi, nəqliyyat haqqında informasiya, dövlət və siyasi informasiyanın mübadiləsi, məşğulluq və ya işədüzəltmə imkanları özünü doğruldurdu. Ağıllı şəhərə bu cür yanaşma rəqəmsal şəhər mühitini formalaşdırdı. "Amsterdam rəqəmsal şəhəri bələdiyyənin idarə etdiyi 0,5 mln. ABŞ dolları büdcəyə malik olan və 25 işçisi olan qeyri-kommersiya şəhərinə çevrildi" (Leonidas, 2017).

Daha sonra ağıllı şəhərlərin bu növləri təkamül edərək daha intellektual xidmət göstərən və daha yaxşı texnoloji struktura malik olan qəliz ekosistemlərə çevrildi. İKT-nin əsas aparıcı rol oynadiği "İnnovasiyalı şəhər" anlayışı meydana gəldi. Şəhər infrastrukturuna yerləşdirilmiş yüksək texnologiyalı cihazlar vasitəsilə lazım olan məlumatları əldə etmək mümkün olurdu.

Zaman keçdikcə “ağıllı şəhər” tipləri daha intellektual xidmət növləri təqdim edə bilən daha qəliz ekosistemlərə çevrildi. Texnoloji imitasiya intellektual xidmətlərin göstərilməsinə nail olmaq uçun texnologiyanın sosial sistemlərə yerləşdirilməsi kimi nəzərdən keçirilir. İmitasiyanin səviyyəsi ən xırda informasiyanın təqdim edilməsindən başlayaraq insanların sosial problemlerinin və ekoloji problemlərin həlli sistemlərinə qədər olçülür. Ekosistemlər bir-biri ilə əlaqədə olan orqanizm və ətraf mühitin qarşılıqlı əlaqəsinin birgəliyi kimi təyin olunan qəliz bir sistemdir. “Resursların bir-biri ilə qarşılıqlı əlaqəsini nəzərə alaraq ekosistemləri bir-birindən asılı olan sosial sistemlərin, material resurlarının, təşkilatların birliyi kimi nəzərdən keçirtmək olar” (Leonidas, 2017). Bu baxımdan ekosistemlər qarşılıqlı əlaqədə olan bir neçə sistemin cəmindən ibarətdirlər.

**“Ağıllı” şəhərin elementləri**. “Ağıllı şəhər” konsepsiyasının əsas məqsədi əhalinin həyat şəraitinin keyfiyyətinin yaxşılaşdırılması, texnologiya vasitəsilə məsələlərin ağıllı həll yollarının tapılması, ekologiyanın yaxşılaşdırılması, cinayətlərin qarşısının alınması, təmiz və dayanıqlı ətraf mühitə nail olmaq, eləcə də suya, enerjiyə və digər resurslara qənaət edərək şəhərin dayanıqlı inkişafına nail olmaqdır.

Müasir elmi əsərlərdə “ağıllı şəhər” layihələrinin uğurlu olması baxımından onun element və komponentləri xüsusi diqqətə layiqdir. Ağıllı şəhərin mühit yaradan elementləri “Ağıllı şəhər” konsepsiyasının əsasını təşkil edir. Aparılan tədqiqatlar nəticəsində bir neçə alimin nəzərdən keçirdiyi elementlər araşdırılmış və nəticədə 8 element əsas götürülmüşdür. Şəhər administrasiyası, sosial standartlar, infrastruktur və kommunal xidmətlər, texnologiya, insan kapitalı, iqtisadiyyat, ətraf mühit, nəqliyyat.

**Şəhər administrasiyası** şəhərin nizamlı idarə edilməsini nəzərdə tutur. Şəhərlərin effektiv idarə edilməsi bugünkü biznes yönümlü və xidmətə əsaslanan iqtisadiyyata əsasən çox vacibdir. Şəhər mühitində texnoloji yenilikləri tətbiq etməklə ağıllı hökumət yaratmaq mümkün olur. Ağıllı idarəetmə sistemi əhalinin tələbatını ödədiyi və şəhərin vəziyyəti barədə informasiya verdiyi üçün həledici rol oynayır. Bu funksiyanın həyata keçirilməsində başlıca rolu rabitə texnologiyalarının tətbiqi və şəhərin xidmət sahələrinin idarə edilməsinin qarşılıqlı əməkdaşlığı yerinə yetirir. Bununla bərabər təhlukəsiz infrastruktura malik ekoloji binalar, effektiv nəqliyyat sistemi və kommunal xidmət sahələri təqdim olunur.

**Sosial standartlar** şəhər mühitində insanların həyat keyfiyyətini və rahatlığını artıra biləcək innovasiyaların tətbiqinə əsaslanır. Sosial mühitin yaxşılaşdırılması deyərkən təhsilin səviyyəsini qaldırmaq, həyat şəraitini yaxşılaşdırmaq, səhiyyə, cəmiyyətin sağlamlığının təhlükəsizliyini təmin etmək, yaşlıların qayğısına qalmaq və cəmiyyətin inkişafı nəzərdə tutulur. Təhsil sistemində texnologiyaların geniş istifadə olunması

keyfiyyət və təcrübəni artırır. Rəqəmsal dərs vəsaitləri və texnologiya təhsilin keyfiyyətini rahat və az xərclə artıra bilir.

**İnfrastruktur və kommunal xidmətlər**. Ağıllı infrastruktur dedikdə "ağıllı texnologiyalar" ilə quraşdırılmış (cihazlar, sensorlar, ağıllı şəbəkə) şəhər obyektləri (su və elektrik qovşaqları, yollar, binalar və s.) nəzərdə tutulur. Tullantıların, su və enerji istifadəsinin azaldılması, yeni istehsal formalarının yaradılması, su, enerji və qazın çatdırılmasının yeni növlərinin yaranması ağıllı kommunal infrastrukturun effektivliyini artırmaq üçün vacibdir. Resursların məhdudluğunu nəzərə alaraq enerjinin saxlanılması, ötürülməsi və idarə edilməsi üçün müxtəlif ağıllı üsüllar tətbiq etmək vacibdir. Şəhərin infrastrukturunun effektivliyinin artırılması sosial və mədəni inkişafa səbəb olur. Ağıllı infrastruktur inkişafın modelinin əsasını təşkil edir.

**Texnologiya.** Elektron hökumətin xidmət sahələrindəki daxili əməliyyatlar "ağıllı şəhər" tərfindən dəstəklənir. Texnologiya bütün həlledici dövlət proqramlarının inkişafına, sahibkarlığa və biznesə şərait yaradır.

**"İnsan kapitalı** insanların kreativliyinə, təhsilə meyilli və innovasiyalara açıq olmasına əsaslanır" (Vijaya, 2021). Ağıllı şəhər dövlət universitetlərinin fəaliyyət göstərdiyi və işçi qüvvəsini elmlə təmin etdiyi mərkəz olmalıdır. Dövlətin, sahibkarların və cəmiyyətin birgə fəaliyyət göstərməyinə şərait yaratmalıdır. Ağıllı şəhər əhalinin yaradıcı potensialını artıran elementlərə (təhsil, tədqiqatlar, yaradıcılıq və istedad) sahib olmalıdır.

**Ağıllı iqtisadiyyat** biznesin inkişafı, məşğulluq və şəhərin inkişafı üçün texnologiya və innovasiyaların tətbiqini nəzərdə tutur. Bu faktorun ideyası sahibkarlığın, iqtisadi artımın və iş yerlərinin yaradılmasının qarşılıqlı əlaqəsindən ibarətdir. Şəhərin inkişafına yönələn biznes "Ağıllı şəhər" proyekti üçün sosial-iqtisadi göstəriciləri əldə etmək vacib ünsürlərdən biri sayılır.

**Ətraf mühit**. Ağıllı ətraf mühit İKT və texnologiyanın əsasında təbii sərvətlərin qənaətlə istifadə edilməsinə yönəlir. Tullantıların idarə edilməsi, tullantiların atılmasına nəzarət, tullantıların emalı, çirklənmənin monitorinqi üçün cihazların tətbiqi ətraf mühitin qorunmasına xidmət edir. "Ətraf mühitin çirklənməsi probleminin həlli, su ilə təchizat, "yaşıl" bina proqramı, təmiz və zərərsiz bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisinə qənaət olunur" (Rozman, 2021). Ağıllı şəhərlər öz əhalisini effektiv enerji ilə təmin etməli və resurslardan qənaətlə istifadə etməyi bacarmalıdır. Ekoloji və sosial dayanıqlılıq ağıllı şəhərin vacib kompanentləridir. Vaxt keçdikcə təbii sərvətlər tükənir, iqtisadi problemlər artır. "Ağıllı" şəhərlər bərpa olunan enerji növlərindən istifadə etməyə çalışırlar.

**Nəqliyyat.** İctimai nəqliyyatın təkmilləşdirilməsi "ağıllı" şəhərin qarşısında duran məqsədlərdən biridir. Müəlliflərin çoxu qeyd edir ki, nəqliyyat ağıllı şəhərin qurulmasının əsas yollarından biridir. Ağıllı idarəetmə sistemi, cihazlar quraşdırılmış

nəqliyyat şəbəkəsi və yollardakı avtomobillərin azaldılması sıxlığın azalmasına və ətraf mühitə (karbon qazının havadakı miqdarı) müsbət təsir edir.
“Ağıllı” şəhərin elementləri onun əsas inkişaf məqsədlərini və ya şəhərdən gözlənilən nəticəni əks elətdirir. “Ağıllı şəhərin əsas məqsədləri sırasında həyat keyfiyyətinin yaxşılaşdırılması və texnoloji inkişafa investisiya yer tutur” (Rozman, 2021). Ağıllı şəhər yüksək həyat keyfiyyətini təmin etməli, gündəlik tələbatları dayanıqlı və effektiv ödəməyi bacarmalıdır.
**“Ağıllı” şəhərlərə dair dünya təcrübəsi.** Son illərdə ağıllı şəhərlərin sayı artmaqdadır. Bir çox inkişaf etmiş ağıllı şəhəri misal göstərmək olar: London, Sinqapur, Barselona, Oslo, Şanxay, Sürix, Boston, Amsterdam, Stokholm, Nyu-York, Toronto, Tokio və s.
Tədqiqatımızı Londonun üzərindən aparaq. London Avropanın ən qabaqcıl ağıllı şəhərlərindən biridir. 2013-cü ildən London “Ağıllı şəhər” planını qəbul edib. Londonun ağıllı şəhər planında əhalinin iştirakı əsas inkişaf kriterisi kimi göstərilir. Şəhər haqqında bir çox məlumatlar əhaliyə açıq və əlçatan formada təqdim olunur. “İnfrastruktur və xidmət sahəsində qurulmuş İKT mühiti şəhərin intelektual səviyyəsini qaldırır, həyat şəraitini, ətraf mühiti, sahibkarlığı, təhsili, nəqliyyat sistemini inkişaf elətdirir” (Jurgen, 2017).
Ağıllı şəhərlər əsasən İKT əsasında qurulur. Əgər İKT ilə idarə edilmirsə, belə iqtisadiyyat, energetika, ətraf muhit, elektron hökumət və yaxud onların kombinasiyasi ilə bağlı yaranan problemləri həll edir. Adətən məlumatların analizi, sosial texnologiyalar, əşyaların internetini istifadə edərək bu və ya digər problemlər analiz olunur. Bir çox hallarda ağıllı şəhər açıq məlumatlar strategiyasını irəli sürür. Məlumat resurslarını iştirakçılar üçün açıq məlumatlar platfotmasında təqdim edir. Əhali həmin bu məlumatlardan istifadə edərək innovasiyalı xidmətlər yarada bilir.
“Ağıllı” şəhərlər elə formada qurulmalıdır ki, əhali davamlı olaraq şəhərin fəaliyyətinə cəlb edilsin. Rəqəmsal texnoloqiyalar vasitəsilə cəmiyyət qərar qəbul etmədə iştirak edə bilir. Bəzi hallarda “ağıllı vətəndaş” ağıllı şəhər proyektinin mərkəzində yer alır. Bu hallarda ağıllı şəhərlərdə əhalinin iştirakı ən yüksək səviyyədə olur. “Ağıllı London planında əsas inkişaf faktorlarından biri “londonlular diqqət mərkəzində” prinsipi əsasında qurulur” (Jurgen, 2017). Şəhərin özünün qurulmasında belə əhali cəlb edilir. Çünki ağıllı şəhərin əsas məqsədlərindən biri əhalinin həyat şəraitini yaxşılaşdırmaq və tələbatını ödəməkdir.
Əgər nəzərdə tutulan cəmiyyət hər hansı bir layihədə və ya qərar qəbul etmədə iştirak etməkdən imtina etsə, fikir ayrılığı yaransa və ya bir neçə dəfə eyni qrup insanlar iştirak etdiyinə görə həmin insanların maraqlarının itirilməsinə gətirib çıxarsa, qərar qəbul etmə prosesi uğursuzluqla nəticələnə bilər. Yaxşı düşünülməmiş və ya avtomatik olaraq qurulmuş hər hansı sorğu və ya iştirak siyasi və ya administrativ baxımdan təhlükəli ola bilər.

Arnşteyn ağıllı şəhərin inkişafında əhalinin iştirakının 8 səviyyəsinin olduğunu qeyd edir. Əhalinin iştirak etməməyindən tam iştirakına qədər səviyyələri əhatə edir. Hər bir səviyyə artan demokratik proseslər ilə xarakterizə olunur (Cədvəl 1).

**Cədvəl 1. Arnşteynin nəzəriyyəsinə görə əhalinin ağıllı şəhərin inkişafında iştirak etmə pillələri**

| | | |
|---|---|---|
| Hakimiyyət orqanları | İctimai nəzarət | Əhali tam idarəetməyə hakimdir |
| | Təqdim edilmiş səlahiyyət | Əhali bəzən qərar qəbul etmədə əsas rol oynaya bilər |
| | Əməkdaşlıq | Əhali danışıqlarda iştirak edə bilir |
| Tokenizm | Yerləşdirmə | Əhaliyə müraciət olunur (amma qərar qəbul edə bilmir) |
| | Məsləhət | Əhalinin probremlərini dinləyirlər |
| | Məlumatlandırma | Əhalini məlumatlandırırlar |
| İştirak etməmək | Terapiya | Əhali simvolik olaraq cəlb olunur |
| | Manipulyasiya | Əhalinin xəbəri olmadan manipulyasiya olunur |

Aparılan tədqiqatlar əsasında əhalinin şəhərin fəaliyyətində iştirak etmə səviyyələrinə görə bu nəticəyə gəlmək olar ki, qərar qəbul etmədə iştirak etmək ictimai tələbatı başa düşməyə və tələbləri daha yaxşı yerinə yetirmək ilə nəticələnir.

“Ağıllı London”un 7 əsas məqsədi mövcuddur:

- “Londonlular diqqət mərkəzində”;
- açıq məlumatlara çıxış imkanının olması;
- London əhalisinin tədqiqat texnologiyasından və yaradıcılıq istedadından istifadə etmək.
- İnternet şəbəkəsi vasitəsilə kommunikasiya.
- Londonun inkişafına və böyüməsinə imkan vermək.
- Londonluların ehtiyaclarına daha yaxşı xidmət etmək.
- Hamı üçün “daha ağıllı” London təcrübəsi təklif etmək.

“Ağıllı şəhər” proektinə görə əhalinin iştirakı müxtəlif səviyyələrdə ola bilər. Burada üç əsas şərt mövcuddur: əhali aktiv iştirak etməli, şəhərin qərar qəbul etməsində əhalinin iştirakı əsas olmalıdır, əhalinin iştirakı geniş demokratik xarakter daşımalıdır (əhalinin təkcə elit təbəqəsinə fokuslanmamaq).

“Ağıllı şəhər” anlayışı şəhər qurucuları və hakimiyyət orqanaları tərəfindən potensial investorları cəlb etmək, əhalinin tələbatını ödəmək və həyat səviyyəsini qaldırmaq, gündəlik həyatda resurslardan daha səmərəli və effektiv istifadə etmək üçün ciddi müzakirə olunur. “Ağıllı” şəhəri yüksək səviyyəli həyat şəraitini və resursların optimal istifadə olunmasını təmin edən, şəhərin problemlərini həll edən dayanıqlı və yaşıl şəhər adlandırırlar. İnformasiya-telekommunikasiya texnologiyalarını cəlb etməklə şəhəri fiziki cəhətdən və təhlükəsizlik baxımından daha da inkişaf elətdirir.

Uğur qazanan ağıllı şəhərləri araşdırarkən şəhərlərin problemlərinin eyni olmadığı nəticəsinə gəlmək olur. Hər bir şəhərdə olan problem lokal olaraq o bölgəyə məxsus olur. Ağıllı şəhərin əsas məqsədi şəhərləri inkişaf elətdirərək şəhər infrastrukturunun əsasının formalaşmasına, əhalinin həyat keyfiyyətinin qaldırılmasına, təmiz və dayanıqlı ətraf mühitin təmin olunmasına və problemlərin həlli üçün ağıllı texnologiyaların tətbiqinə əsaslanır. Şəhərin urbanizasiya probleminin həll edilməsi və cəmiyyətin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün "Ağıllı" şəhərin ideal strukturu formalaşmalıdır. Ağıllı şəhərin effektivliyi kifayət qədər iş yerlərinin açılmasına, işsizliyin səviyyəsinin azalmasına, sahibkarların, eləcə də iqtisadi bazarların sayının artırlmasına şərait yaradaraq adambaşına düşən ümumi daxili məhsulun payını (ÜDM) artıra bilər. Resurslardan istifadə səviyyəsi həmçinin şəhərin effektivliyinin ölçülməsində əsas məsələlərdən biridir. "Karbon qazının atmosferə tullantısının azaldılması, bərpa olunan enerji mənbələrindən istifadə, tullantıların emalı texnologiyasının genişləndirilməsi, tullantıların idarə olunması, suyun və havanın çirklənməsinə qarşı mübarizə şəhərin effektiv idarə olunmasının bir hissəsidir" (Rozman, 2021).

**Əşyaların interneti texnologiyasının (*internet of things* - *IoT*) ağıllı şəhərdəki rolu.**

"Əşyaların interneti (*IoT*) - fiziki cihazların, avadanlıqların, maşınların, məişət cizahlarının və digər əşyaların üzərinə quraşdırılmış elektronikalar, proqram təminatları, sensorlar və qəbuledicilərlə bu əşyaların bir-birinə bağlanması və verilənlərin ötürülməsidir. Əşyaların birbaşa kompüter sistemlərinə çıxışının olması effektivliyin artmasına, yeni iqtisadi üstünlüklərin yaranmasına və insan əməyinin qənaətinə səbəb olur" (Klaus Schwab, p. 153).

Əşyaların İnterneti (*IoT*) standart internetə çıxışa malik olan cihazlardan, məsələn, kompüter, smart telefonlar, noutbuk və tabletlərdən əlavə olaraq digər ənənəvi "ağıllı olmayan" əşyaların və yaxud gündəlik əşyaların internetə çıxışını əhatə edir. Bu əşyalara yerləşdirilmiş yeni texnologiyalar sayəsində artıq onlar da internet vasitəsilə bir-birinə qarşılıqlı təsir edə bilir və bu əşyalar uzaqdan idarə olunur.

Naqilsiz şəbəkələrin və əşyalar internetinin (*IoT*) inkişaf etməsi ağıllı şəhərlərin tikilməsinə şərait yaratdı. "Ağıllı şəhərlərin inkişafında əşyaların interneti (*IoT*) üçün uyğun texniki baza və yerləşdiyi iqtisadi regionun inkişaf səviyyəsi mühüm rol oynayır" (Alexander, 2021). Əsas problemlərdən biri informasiya təhlükəsizliyi və kadr çatışmazlığıdır. Əşyaların internetinin inkişafı texnologiyası insanların həyatına və eləcə də sosial-iqtisadi inkişafa böyük təkan verə bilər. Ağıllı şəhərlərin tikintisi şəhərlərin inkişafının əsas konsepsiyasına çevrilir. Ağıllı şəhər konsepsiyası innovasiya və ekologiyaya əsaslanan dayanıqlı inkişafa şərait yaradır.

Şəhərin iqtisadi və sosial inkişafı üçün bir neçə problem analiz olunur. Elmi-texniki innovasiyani gücləndirmək üçün yüksək səviyyədə texniki iş tələb olunur. Ağıllı şə-

hərlərin tikintisinin tədqiqində və regional iqtisadiyyatın inkişafında əşyaların interneti (*IoT*) və naqilsiz şəbəkələrin rolu tədqiq olunur. Şəhərin müxtəlif sistemləri arasında qarşılıqlı əlaqə onların arasında məlumatların mübadiləsi prosesini reallaşdırır. Ağıllı cihazlar əhalinin monitorinqi prosesini idarə edərək qərar qəbul etmənin və əldə olunan nəticələrin effektivliyini artırır.

"Əşyaların interneti (*IoT*) sistemi informasiya texnologiyaları əsasında yaradılır. O, kifayət qədər informasiya mübadiləsini aktiv edə bilir" (Amit, 2022). Dövlətin işinin ümumi effektivliyini artıra və xidmət sektorunun funksiyasını yaxşılaşdıra bilir. Bəzi şəhərlər həqiqətən də öz resurslarını səfərbər edərək ağıllı şəhərlər qurmaqda uğur qazanırlar. Lakin bəzi ağıllı şəhərlər effektiv olmur. Ümumiyyətlə ağıllı şəhərlər insanlara və onların problemlərinin həllinə xidmət etməlidir. Ağıllı şəhərlərin qarşısında daha dəqiq məqsədlər qoyulmalıdır.

Son dövrlər urbanizasiya prosesləri daha da intensivləşir. Şəhər infrastrukturunun bütün aspektləri və ictimai xidmət növləri yüksək təzyiqə məruz qalır. Baxmayaraq ki, yeni yollar çəkililir, şəhər maqistralları genişləndirilir, yenə də şəhərdə nəqliyyat problemləri baş verir. Ən əsas da böyük şəhərlərdə bu problem daha qabarıq özünü biruzə verir. Avtomobillərin sayı artır, sürücülər yol hərəkəti qaydalarına riayət etmir, şəhərlərin nəqliyyat şəbəkəsi köhnəlir, şəhərin ictimai departamentlərinin işi qeyri-effektiv olur. Əşyaların interneti (*IoT*) vasitəsiylə yolların təchiz olunması nəqliyyat sisteminin resurslarını effektiv idarə etməyə kömək edərək şəhər tıxaclarının sayını azalda bilər. Əİ bütün şəhəri əhatə edərsə real vaxt rejimindəki monitorinq hesabına nəqliyyat şəbəkəsindəki sıxlıq minimuma endirilə bilər. "Belə ki, cihazlar vasitəsi ilə hər bir hərəkət zolağının vəziyyəti, eləcə də yollardakı nəqliyyat hadisələri barədə məlumat ötürülərək tez bir zamanda problemləri aradan qaldıra və təhlükəsizliyi təmin edə bilər" (Amit, 2022).

Şəhərin qurulması planının ilkin mərhələsində ümumi iş gücünü formalaşdırmaq üçün dövlətin, şirkətlərin və cəmiyyətin koordinasiyasını qurmaq vacibdir. Bu koordinasiyanı qurmaq "ağıllı şəhər"in tikintisi prosesində əsas prolemlərdən biridir. Əşyaların interneti (*IoT*) texnologiyalarının inkişafı bu ideyanı reallaşdırmaq üçün güclü texniki dəstəyi təmin edir. Əhaliyə xidmət göstərən şəhər bölmələri təkcə bulud texnologiyaları vasitəsilə müxtəlif onlayn xidmətləri realizə etməklə kifayətlənmirlər. Həm də eyni zamanda şəhərin resurslarının inteqrasiyasına nail olurlar. Şəhərin infrastrukturunu əhatə edən Əİ texnologiyaları əsasında monitorinq və təhlükəsizlik sistemini təşkil etmək olur. Sensorlar vasitəsilə şəhərin bütün nöqtələri idarə edilir.

Artıq əşyaların interneti (*IoT*) texnologiyalarının inkişafı əsasında əhali tibbi xidmətlərdən asan və keyfiyyətli formada istifadə edir. Əİ texnologiyası real vaxt rejimində xəstənin vəziyyətini nəzarətdə saxlaya bilir. "Xəstənin vəziyyətinin real vaxt rejimindəki monitorinqi və xəstəlik haqqında məlumatın mubadiləsi xəstənin

vaxtına qənaət edir, həkim isə mualicə planını tərtib etmək üçün lazım olan məlumatları tez bir zamanda əldə edə bilir" (Amit, 2022).

Əşyaların interneti (*IoT*) texnologiyaları fonunda ağıllı şəhərlərin qurulması prosesində və regional istehsalın inkişafında əsas problemlərdən biri informasiya təhlükəsizliyi və kadr çatışmazlığıdır. Bəzi şəhərlər ağıllı şəhərlərin inkişafı üçün məqsəd müəyyən etsələr də, hələ ki plan formalaşdırmadıqlarına görə başqa şəhərlərin modellərini kopyalayırlar. İctimai gücdən kifayət qədər istifadə edə bilmirlər. Əşyaların interneti (*IoT*) texnologiyalarının inkişafında dövlət ağıllı şəhərləri dayanıqlı inkişaf nöqteyi-nəzərindən planlaşdırmalı və onu gələcək inkişaf üçün əsas kimi istifadə etməlidir. Eyni zamanda uzunmuddətli planların işlənilib hazırlanması üçün şəhərin tarixi inkişafına, xüsusiyyətlərinə və faktiki tələbatlarına diqqət yetirmək lazımdır.

Şəhərlərin tikintisində və inkişafında 5 prinsip nəzərdə tutulur: innovasiya, koordinasiya, ekologiya, məlumatların açıqlığı, birgə istifadə. Şəhərsalma prosesində bu prinsiplər əsas götürülməli və lazım gəldikdə real tələbata uyğun olaraq düzəliş olunmalıdır.

İdarəetmənin mahiyyəti idarəetmə obyekti haqqında informasiyanın qəbul olunub işlənilməsindən başlayır və idarəetmə qərarı formasında yeni informasiyanın işlənməsi ilə nəticələnir. Uzun müddət şəhər idarəetmə orqanları və tədqiqatçılar müşahidə etdikləri obyektlərdən aldıqları informasiyanı spesifik məlumatlar toplusundan əldə edirdilər. Bu verilənlər seçmə üsuluna əsasən məhdud zaman müddətində yığılan məlumatlara əsaslanırdı. ""Kiçik verilənlər"dən "böyük verilənlər"ə keçidlə bağlı şəhərlərdə böyük dəyişikliklər baş verdi" (Alexander Odintsov, 2019). Bütün bunlar onunla əlaqədardır ki, şəhər infrastrukturu get-gedə daha da rəqəmsallaşır, daha çox cihazlarla təchiz olunur. Böyük verilənlərdən istifadə (*big data*) nəticəsində şəhər idarəetmə orqanları real vaxt rejimində yaranan verilənlərlə işləmə imkanı əldə edirlər. Nəticədə proseslərə tez reaksiya vermək imkanı yaranır, daha yaxşı və sürətli qərarlar vermək mümkün olur. Vaxta qənaət olunur və xərclər azaldılır.

Nəhayət onu da qeyd edək ki, ağıllı texnologiyaların tətbiqində mövcud təcrübədən istifadə imkanları hərtərəfli qiymətləndirilməli və texnoloji asılılıq baxımından yaranan təhdid diqqət mərkəzində olmalıdır. Belə bir fikirlə razılaşmaq olar ki, mövcud təcrübənin davamlı təkrarlanması "texnoloji düşüncə ətalətinə səbəb ola bilir və müxtəlif səviyyələrdə arzuolunmaz texnoloji asılılığı gücləndirir. Deyək ki, haqqında danışılan proses davamlı olarsa "ağıllı" mətbəx qura bilməyən, "ağıllı" şəhər yaratmaq fikrinə düşməyəcəkdir" (Balayev, 2022, s.32).

## Nəticə

Yeni nəsil texnologiyanın vasitəsiylə əşyaların interneti (*IoT*), bulud texnologiyası, böyük verilənlər və coğrafi məlumatların təsvirindən istifadə etməklə tikinti, idarəetmə, şəhərin intellektual xidmətlərinin planlaşdırılması və ağıllı şəhərlərin məqsədləri

müəyyən olunur. İctimai xidmətlərin rahatlığı, şəhərin idarə edilməsi, yaşayış mühitinin rahatlığı, infrastrukturun ağıllı olması ağıllı şəhər konsepsiyasının uzunmüddətli effektivliyini təmin edir. Əşyaların interneti texnologiyalarının inkişafında dövlət "ağıllı" şəhərləri dayanıqlı inkişaf nöqteyi-nəzərindən planlaşdırmalı və onu gələcək inkişaf üçün baza kimi istifadə etməlidir. Ağıllı şəhərin əsas məqsədi şəhərləri inkişaf elətdirərək şəhər infrastrukturunun əsasının formalaşmasına, əhalinin həyat keyfiyyətinin qaldırılmasına, təmiz və dayanıqlı ətraf mühitin təmin olunmasına və problemlərin həlli üçün ağıllı texnologiyaların tətbiqinə əsaslanmaqdır. Aparılan tədqiqatlar əsasında əhalinin ağıllı şəhərlərdə iştirak etmə səviyyələrinə görə bu nəticəyə gəlmək olar ki, qərar qəbul etmədə iştirak etmək ictimai tələbatı başa düşməyə və tələbləri daha yaxşı yerinə yetirməyə kömək edir. Elm və texnologiya şəhərin inkişafının əsas aparıcı qüvvəsinə çevrilərək iqtisadi artımı təmin edir. Ağıllı şəhərlər iqtisadi bazanı, effektiv idarəetməni və sosial inteqrasiyanı təmin edir, effektiv şəhər infrastrukturunu yaradır, həyat şəraitini yaxşılaşdırır, ətraf mühitin təbii keyfiyyətlərini qoruyub saxlayır.

**Ədəbiyyat**

1. Rəsul Ənvər oğlu Balayev Rəqəmsal mühitdə iqtisadi münasibətlər: aqrar və urbanizasiya aspektləri. Bakı, 2022 268 s.
2. Amit Gupta, Coordinated Development of Smart City and Regional Industrial Economy under the Background of Internet of Things, 2022, 8 p.
3. A. T. Rozman, N. A. Azmi and A. S. Sukereman, A Review of Smart City Elements and Smart City Performances, 2021, 12 p.
4. Jurgen Willems, Joachim Van den Bergh, Stijn Viaene, Smart City Projects and Citizen Participation: The case of London, 2017, p. 249-266.
5. Leonidas G. Anthopoulos, The Rise of the Smart City, 2017. 30 p.
6. Vijaya Bhosale, Deepak Pralhad Raverkar, Need of Smart City, 2021, p.234-239.
7. Yelly Elanda, Ruslan Wahyudi, Azizah Alie, Implementasi Smart City di Indonesia Dalam Perspektif Gender, 2022, № 2, p.140-162.
8. Yury Petrenko, Аабу Абед, Концепция умного города и задачи его электрообеспечения, 2021, с. 258-262.
9. Yusuf Afolabi, Yakubu Yusuf, Suleiman Muhammed, Smart cities: the cities of the future, 2023, p. 309-319.
10. Одинцов А.В. Основные риски реализации концепции «умного города» Социодинамика. 2019, № 10, С. 1 - 8
11. Klaus Schwab, The Fourth İndustrial Revolution, 2017, 196 p.
12. https://vergiler.az/news/economy/11706.html

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, iyul - sentyabr, 2023, səh. 96 - 108
Scientific Reviews in UNEC, Year 11, Volume 11, July - September, 2023, pp. 96 - 108

# AİLƏ BİZNESLƏRİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ MƏCMU SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ ONLARIN PAYI

*Daxil olub: 26 mart 2023-cü il*
*Qəbul olunub: 8 sentyabr 2023-cü il*
*Received: 26 March 2023*
*Accepted: 8 September 2023*

***Yusif Musayev***
*doktorant, müəllim, UNEC*
*yusif.musayev@unec.edu.az*

## Xülasə

Ailə biznesləri ailə, biznes və mülkiyyətçilik kimi üç elementi özündə birləşdirir və dünya iqtisadiyyatının əsas drayverlərindən biri hesab olunur. Tədqiqatın məqsədi bazar iqtisadiyyatı şəraitində dünyanın müxtəlif regionlarında yerləşən ölkələrin iqtisadiyyatında ailə bizneslərinin rolunu və məcmu sahibkarlıq fəaliyyətində onların payını müəyyənləşdirməkdən ibarətdir. Metodologiya–qarşıya qoyulan məqsədə nail olmaq üçün ədəbiyyat icmalı aparılır, beynəlxalq təşkilatlar tərəfindən təqdim edilmiş empirik tədqiqat nəticələri təhlil edilir və eləcə də müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunur. Tədqiqatın əsas nəticələri – ailə biznesləri geniş fəaliyyət sahələrini özündə birləşdirməklə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə və davamlı iqtisadi inkişafın təmin edilməsinə mühüm töhfə verir. Ailə biznesləri əksər ölkələrdə mövcud sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsini əhatə etsə də, inkişaf etməkdə olan ölkələrdə daha böyük paya sahibdirlər. Belə ölkələrdə ailələr tərəfindən yaradılan və ya idarə olunan  müəssisələr məşğulluğun təmin olunmasında aparıcı rol oynayırlar.

**Açar sözlər:** *ailə biznesi, beynəlxalq təcrübə, məcmu sahibkarlıq fəaliyyəti.*

# FAMILY BUSINESSES: INTERNATIONAL EXPERIENCE AND THEIR SHARE IN THE TOTAL ENTREPRENEURIAL ACTIVITY

***Yusif Musayev***
*PhD student, teacher, UNEC*
*yusif.musayev@unec.edu.az*

## Abstract

Family businesses combine the three elements of family, business and ownership and are considered one of the main drivers of the world economy. The purpose of the research is to determine the role of family businesses in the economy of countries located in different regions of the world and their share in the total entrepreneurial activity under market economy conditions. Methodology–to achieve the set goal, a literature review is conducted, empirical research results presented by international

organizations are analysed, and comparison and generalization methods are used. The main results of the study–family businesses, having a wide field of activity, play an important role in the national economy of most countries in increasing the employment level of people and ensuring sustainable economic development. Although family businesses comprise a significant proportion of existing business entities in most countries, they account for a larger share in developing countries. In such countries, enterprises created or managed by families play a leading role in providing employment.

***Keywords:*** *family business; international practice; total entrepreneurial activity.*

## СЕМЕЙНЫЕ ПРЕДПРИЯТИЯ: МЕЖДУНАРОДНЫЙ ОПЫТ И ИХ ДОЛЯ В ОБЩЕЙ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Юсиф Мусаев***
*докторант, преподаватель, UNEC*
*yusif.musayev@unec.edu.az*

**Резюме**
Семейный бизнес сочетает в себе три элемента семьи, бизнеса и собственности и считается одним из основных двигателей мировой экономики. Цель исследования–определить роль семейных предприятий в экономике стран, расположенных в разных регионах мира, и их долю в общей предпринимательской деятельности в условиях рыночной экономики. Методология–для достижения поставленной цели проводится обзор литературы, анализируются результаты эмпирических исследований, представленных международными организациями, используются методы сравнения и обобщения. Основные результаты исследования–семейные предприятия, имея широкое поле деятельности, играют важную роль в народном хозяйстве большинства стран в повышении уровня занятости населения и обеспечении устойчивого экономического развития. Хотя семейные предприятия составляют значительную долю существующих предприятий в большинстве стран, в развивающихся странах они составляют большую долю. В таких странах предприятия, созданные или управляемые семьями, играют ведущую роль в обеспечении занятости.

**Ключевые слова:** *семейный бизнес; международная практика; общая предпринимательская активность.*

## Giriş

Qlobal iqtisadiyyatda iştirak edən bütün biznes subyektləri əmtəə və xidmətlər sahəsində xarici ticarət, xarici investisiya fəaliyyəti və eləcə də valyuta, maliyyə-kredit istiqamətləri üzrə fəaliyyət göstərirlər (Qafarov; Rzayev, 2017). Ailə biznesləri də demək olar ki, bütün sahələrdə təmsil olunurlar və müasir iqtisadiyyatın əsas drayverlərindən biri olmaqla sosial-iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayırlar. Ailə bizneslərinin inkişafı yeni iş yerlərinin yaradılması, sağlam rəqabətin formalaşması, bazar tələbinə çevik reaksiya verilməsi və innovasiyaların istehsala tətbiqinə təkan verməklə, ümumi iqtisadi inkişafın təmin olunmasına xidmət edir. Bu bizneslər uzunmüddətli perspektivə sahib olması ilə seçilir və xarakterinə görə stabillik nümayiş etdirməklə davamlı iqtisadi inkişafa əhəmiyyətli dərəcədə böyük töhfə verir. Bundan əlavə, xərclərə qənaətcil olması və iqtisadi böhranlar dövründə belə daxili imkanlarını səfərbər etməklə fəaliyyətini davam etdirə bilmək kimi xüsusiyyətlərinə görə, maliyyə dayanıqlılığı və təhlükəsizliyinin qlobal təhdidlərlə üzləşdiyi bir vaxtda ailə biznesləri səmərəli biznes növü kimi qiymətləndirilməlidir (Musayev, 2021). Ailə firmaları təkcə iqtisadiyyatda çəkisinə görə deyil, həm də uzunmüddətli stabillik vəd etdiyinə, yerli inkişafa müsbət təsirlərinə, sahibkarların məsuliyyətli davranışına və qazandığı dəyərlərə görə əhəmiyyətli hesab olunur. Əlbəttə ki, bütün bunlar maliyyə böhranları dönəmində xüsusilə əlverişli amillər kimi qiymətləndirilir. Ailə firmaları müxtəlif ölçülərdə olmaqla, Avropa şirkətlərinin 60%-dən çoxunu özündə birləşdirir və müxtəlif sektorları əhatə edir. KOB-ların, xüsusilə mikro və kiçik sahibkarlıq subyektlərinin böyük qismi ailə müəssisələrindən ibarətdir və eyni zamanda ailə bizneslərinin əksəriyyəti KOB-lardan təşkil olunub (Europea, 2009). Bununla belə, bir çox üstün cəhətlərlə xarakterizə olunmasına baxmayaraq, praktikada və elmi araşdırmalarda ailə bizneslərinin zəif tərəfləri və ya narahatçılıq yaradan tendensiyaları da vardır.

Məsələn, qlobal biznes strukturlarının 80%-ni təşkil etməsinə baxmayaraq, nəsillər arası uğurlu varisliyin aşağı səviyyədə olması ailə bizneslərində çalışan işçilər və onların mənsub olduğu milli iqtisadiyyatlar üçün ciddi şəkildə mənfi təsirlərin yaranmasına səbəb ola bilər (Gagne və et al, 2021). Digər tərəfdən, müvafiq elmi ədəbiyyatların təhlili onu da göstərir ki, aparılan tədqiqatların çoxu inkişaf etmiş ölkələrdə ailə sahibkarlığının tədqiqinə fokuslanmışdır və inkişaf etməkdə olan ölkələrdə ailə biznesini hərtərəfli anlamağa kömək edəcək geniş araşdırmalara ehtiyac vardır (Basco, 2018). Bu baxımdan qeyd eləyə bilərik ki, Latın Amerikasında ailə biznesi araşdırmalarına dünyanın Asiya qitəsi kimi digər bölgələrinə nisbətən daha az diqqət yetirilmişdir (Dinh və Calabro, 2019).

## 1. Material və metodologiya

Qlobal Sahibkarlıq Monitorinqinin (Global Entrepreneurship Monitor, bundan sonra GEM) axırıncı dərc etdiyi "Ailə Sahibkarlığı Hesabatı 2019/2020" (2021) ailə bizneslərinin dünya iqtisadiyyatında rolunu və onların formalaşması və inkişafının bir çox aspektlərini qiymətləndirmək baxımından olduqca əhəmiyyətli məlumatları özündə əks etdirir. Hesabatda göstərilir ki, dünyanın 48 ölkəsinin milli iqtisadiyyatını əhatə edən sahibkarların 75%-i bizneslərini ailə üzvlərinin iştirakı ilə yaratmışdır, yaxud ailə üzvləri biznesin idarə olunmasında iştirak edir və ya biznesin müştərək sahibkarlarıdırlar.

Bununla belə, ailənin say tərkibinin ayrı-ayrı fərdlərin biznes fəaliyyətinə başlamasında rolu və biznesə mövcud təsirləri haqqında olduqca az tədqiqat aparılmışdır. Araşdırma göstərir ki, ailənin biznesə təsiri digər müxtəlif aspektlərdən, o cümlədən də varislik (San Martin and Duran, 2016; Ahrens and et al, 2018), korporativ idarəetmə (Villalonga and et al, 2015; Gonzalez and et al, 2019) və ailə bizneslərinin beynəlmiləlləşməsi (Velez-Ocampo and et al, 2017) nöqteyi-nəzərindən daha çox tədqiq olunmuşdur. Ancaq ailə biznesinə xas olan faktorları, o cümlədən bu konteksdə sahibkarlıq müəssisələrinin yaradılmasına təsir edən amillərin izahını verən (Aldrich and Cliff, 2003; Jennings and et al, 2015), xüsusilə də inkişaf etməkdə olan iqtisadiyyatlarda onların xarakterini müəyyən edən (Carreon-Gutierrez and Saiz-Alvarez, 2019) elmi ədəbiyyatların kasadlığı özünü büruzə verir. Bir amili də vurğulamaq lazımdır ki, ailə və sahibkarlıq təşəbbüsləri arasındakı əlaqələrin öyrənilməsi ailə bizneslərinin müxtəlif regionlarda məşğulluq imkanlarının genişləndirilməsində və yoxsulluq üzrə göstəricilərin yaxşılaşdırılmasında rolunun daha aydın müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

GEM-in haqqında bəhs olunan hesabatı ailə sahibkarlığını ***ailə üzvlərinin müştərək mülkiyyətçiliyi və müştərək idarəetməsinə***, ***ailənin*** **yalnız** ***müştərək mülkiyyətçiliyinə*** və ***ailənin*** **yalnız** ***müştərək idarəetməsinə*** əsaslanan üç formada müəyyənləşdirmişdir. **Qrafik 1**-də sahibkarlıq fəaliyyətləri ailənin iştirakını nəzərdə tutan bu üç formaya və qeyri-ailə bizneslərinə görə qruplaşdırılmışdır.

Tədqiqat nəticələrinə görə, ailə sahibkarlığının ən geniş yayılmış forması ***müştərək mülkiyyətə sahib olmadan birgə idarəetmənin həyata keçirilməsi***nə əsaslanır. Belə olan halda, cavabdeh şəxs tək mülkiyyətçi ola bilər və ya qeyri-ailə üzvləri ilə birlikdə firmanın həmtəsisçisi ola bilər, ancaq ailənin ən azı bir üzvü mülkiyyət sahib(lər)i ilə birlikdə biznesin idarə edilməsində iştirak edir. Məsələn, Madaqaskarda ümumi sahibkarlıq fəaliyyətinin 89%-i ailənin müştərək mülkiyyəti mövcud olmadan ailə üzvlərinin birgə idarəetməsi əsasında həyata keçirilir. Belə sahibkarlıq forması Panama, İndoneziya və Polşa kimi müxtəlif ölkələrdə də üstünlük təşkil edərək ümumi sahibkarlıq subyektlərinin təxminən 85%-ni özündə birləşdirir. Çində və Tayvanda isə tamamilə fərqli mənzərə hökm sürür və müştərək mülkiyyətə əsaslanmadan yalnız

müştərək idarəetməni özündə ehtiva edən ailə sahibkarlığı Çində bütün biznes təsisatlarının 12%-ni, Tayvanda isə 21%-ni təşkil edir.




**Qrafik 1. Məcmu sahibkarlıq fəaliyyətində (18-64 yaş) ailənin cəlb olunması ilə həyata keçirilən bizneslərin dörd bölgə üzrə qruplaşdırılan 48 ölkənin iqtisadiyyatında payı**
***Mənbə:*** *GEM, 2021. "2019\2020 Ailə Biznesi Hesabatı"*

Ailə sahibkarlığının digər ən geniş yayılmış və ən güclü forması kimi ***firmanın idarə edilməsində və mülkiyyətçilikdə ailənin müştərək rolu***na söykənən bizneslər qəbul edilir. Bu halda ailə üzvləri həm mülkiyyət və ya səhm sahibi olmaqla, həm də firmanın idarə edilməsində yüksək səviyyədə təmsil olunmaqla seçilirlər. Ailə bizneslərinin bu forması Kolumbiya, Uruqvay və Çili kimi Latın Amerikası ölkələrində geniş yayılmaqla həmin ölkələrin ümumi sahibkarlıq fəaliyyətində müvafiq olaraq 40%, 33% və 31% olan əhəmiyyətli paya sahibdirlər. Başqa regionlara baxdıqda isə ailə bizneslərinin bu formasının Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) ümumi sahibkarlıq subyektlərinin 36%-ni, Koreya Respublikasında 5%-ni, Polşa və Madaqaskarda isə 6%-ni təşkil etdiyini görə bilərik.

Bir amili vurğulamaq lazımdır ki, ***müştərək mülkiyyətə sahib olmaq, lakin biznesin idarə edilməsində birgə idarəetmənin olmaması*** ailə biznesləri üçün qeyri-spesifikdir. Ailə bizneslərinin bu forması üçün ən yüksək göstərici 18% ilə Argentinada və 12%-lik pay ilə Səudiyyə Ərəbistanında qeydə alınmışdır. Bu o hallarda baş verə bilər

ki, ailə mülkiyyət payına malik olmasına baxmayaraq biznesin həyata keçirilməsində iştirak etmir və yaxud ailə üzvlərinin biznesdə iştirakı müştərək idarəetmə hesab edilməyən formalara əsaslanır. Bu formada mümkün hallardan biri ondan ibarətdir ki, ailə biznesinin nəsillər üzrə ötürülmə prosesi baş verir və firmanın idarə edilməsini yeni nəsil təhvil alsa da, hər iki nəsil biznesin müştərək mülkiyyətçisi olmaqda davam edir. Beləliklə, biznesin həyata keçirilməsində aşağı səviyyədə təmsil olunmasına görə belə firmalar ailə sahibkarlığının ən zəif forması kimi qəbul edilir (GEM, 2021).

## 2. Məcmu sahibkarlıq fəaliyyətində ailə bizneslərinin payı

Hər bir ölkənin milli iqtisadiyyatının sağlam inkişafı və səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə ailə müəssisələrindən asılıdır. Bu gün ailə biznesləri mövcud olan bütün müəssisələrin üçdə ikisini təşkil edir və dünya üzrə işçi qüvvəsinin ən azı yarısının işlə təmin olunmasına cavabdehlik daşıyır (De Massis and et al, 2018). Ailə biznesi xüsusi sahibkarlıq subyektidir və onun təşkili, formalaşması və tənzimlənməsi mexanizmi regional səviyyədə biznes davranışının unikal xüsusiyyətlərinin toplusudur. Bunlara sahibkarlıq subyektinin bazar mövqeyi, onun potensialı, göstərilən xidmətlərin xüsusiyyətləri və s. aid edilə bilər. Müvafiq olaraq, dünyanın müxtəlif ölkələrində və ayrı-ayrı regionlarda eyni inkişaf strategiyası ya hamıya şamil edilmir, ya da hər kəsin ondan faydalanmaq imkanı olmur. Buna görə də, bir sıra ümumi prinsiplərin müəyyən edilməsi, strateji inkişafın təşkili və həyata keçirilməsi zəruridir (Saidova, 2020).
Avropa Birliyinin milli assosiasiyalar ittifaqı olan Avropa Ailə Biznesləri təşkilatı 1999-cu ildən fəaliyyət göstərir və kiçik, orta və böyük şirkətlər də daxil olmaqla, uzunmüddətli ailə mülkiyyətində olan müəssisələri təmsil edir. Təşkilatın açıq informasiya mənbələrində göstərilir ki, ailə biznesləri bütün Avropa şirkətlərinin 65-80%-ni təşkil etməklə birlik ölkələrində mövcud olan bütün iş yerlərinin orta hesabla 40-50%-dən çoxunu özündə birləşdirir. Təşkilatın təqdim etdiyi məlumatlarda qeyd olunur ki, ailə biznesləri mövcud Avropa şirkətlərinin əhəmiyyətli hissəsini əhatə edir və real iqtisadiyyatın güclənməsinə və dinamik inkişafına mühüm töhfə verir. Ailə şirkətləri təkcə iqtisadiyyata önəmli töhfələr verdiyinə görə əhəmiyyətli hesab edilmir, onlar həm də uzunmüddətli və dayanıqlı biznes strukturları olduqlarına və regionların, xüsusilə də ucqar ərazilərin sosial-iqtisadi inkişafında oynadığı rola görə müsbət cəhətlərlə xarakterizə olunur. Məlumatlardan aydın olur ki, ailə biznesləri Avropada özəl sektor üzrə məşğulluğun 40-50%-ni təmin edir. Ailə biznesləri borc maliyyələşməsindən daha çox öz gəlirlərinin yenidən investisiya edilməsinə üstünlük verirlər və onlar səhmdarların, işçilərin və müştərilərin maraqlarının qorunmasına yönəlmiş uzunmüddətli strategiyalarına görə məsuliyyətli sahibkarlar kimi qəbul edilirlər və regional çərçivədə sosial-iqtisadi inkişafın qayğısına qalırlar. Beləliklə, ailə biznesi sahibləri ailə dəyərlərini bir növ yüksək sosial məsuliyyət hissinin formalaşması üçün də istifadə etmiş

olurlar və sahibkarlıq mədəniyyətinin formalaşması üçün təbii inkubator rolunu oynayırlar (https://europeanfamilybusinesses.eu/about-european-family-businesses). Digər bir araşdırma isə göstərir ki, Avropada bütün sahibkarlıq subyektlərinin təxminən 70-80%-i ailə bizneslərinə aid edilir və köhnə qitədə ailə biznesi sektorunda 10-dan az işçisi olan mikro müəssisələr və kiçik və orta sahibkarlıq subyektləri üstünlük təşkil edir (Siakas və et al, 2014).

Latın Amerikası dünya əhalisinin təxminən 9%-ni, qlobal ümumi daxili məhsulun isə 6%-ni təmsil edən 20 suveren dövləti və əraziləri əhatə edir. Bu bölgə Cənub-Şərqi Asiyadan sonra dünyanın ikinci ən əhəmiyyətli inkişaf edən bazarını təmsil edir və onun böyüməsinin yaxın illərdə xeyli dərəcədə surətlənməsi gözlənilir. Dünyanın digər yerlərində olduğu kimi Latın Amerikasında ailə müəssisələri ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənməsinə baxmayaraq, regionda iqtisadi və sosial təşkilatların geniş yayılmış formasını təşkil edir. Bu təşkilatlar bölgənin ÜDM-in təxminən 60%-ni təşkil edir. Ailə nəzarəti kiçik firmalarla məhdudlaşmır, həmçinin bölgənin ən böyük şirkətlərinin təxminən 40%-də üstünlük təşkil edir (Vazquez, 2020).

ABŞ və ya Kanada kimi inkişaf etmiş ölkələrdə bütün sahibkarlıq müəssisələrinin təxminən 90%-i ailə biznesi hesab olunur (Rahman and et al, 2017). Ailə biznesləri həmçinin geniş fəaliyyət göstərdikləri Rusiya, Bolqarıstan və Rumıniya kimi inkişaf etməkdə olan ölkələrin yerli sosial-iqtisadi inkişafında mühüm rol oynayırlar (Bakracheva and et al, 2020).

**Qrafik 2**-də Şərqi və Cənubi Asiya, Avropa və Şimali Amerika, Latın Amerikası və Karib dənizi, Orta Şərq və Afrika olmaqla dörd qrupa bölünmüşdür və məcmu sahibkarlıq fəaliyyətində ailə bizneslərinin payı yüksək olmasına baxmayaraq, bu göstərici ölkələr üzrə dəyişkən xarakterə malikdir.

Qrafik dörd bölgə üzrə qruplaşdırılmış, ümumilikdə 48 ölkənin iqtisadiyyatında ailənin cəlb olunması ilə həyata keçirilən bizneslərin dərəcələrini göstərir. Təsvirdən bəlli olur ki, ən böyük fərq **Şərqi və Cənubi Asiya** regionunda müşahidə olunur. Bütün sahibkarların ailəni biznes fəaliyyətinə cəlb etdiyi ən yüksək göstərici Tailandda qeydə alınmışdır və bunun məntiqi nəticəsi olaraq Tailandda məcmu sahibkarlıq subyektlərinin təxminən 100 faizi ailə bizneslərindən ibarətdir. Koreya Respublikası və İndoneziya yüksək və təxminən bərabər sahibkarlıq fəaliyyətinə malik olsalar da, ailənin sahibkarlıqda iştirak səviyyəsi Koreya Respublikasında 60%, İndoneziyada isə 95% təşkil etməklə, bu istiqamətdə kəskin fərqlər özünü göstərir. Yaponiya, Tayvan və Çin isə ailənin sahibkarlıqda iştirak meyarına görə 40%-dan aşağı dərəcəyə sahib olmaqla müvafiq meyar üzrə regionda ən aşağı göstərici nümayiş etdirən ölkələrdir.

Araşdırma onu deməyə əsas verir ki, tədqiq olunan digər 45 iqtisadiyyatda sahibkarlıq subyektləri ailə əsaslıdır.




**Qrafik 2. Məcmu sahibkarlıq fəaliyyətində (18-64 yaş) ailənin cəlb olunması ilə həyata keçirilən bizneslərin dörd bölgə üzrə qruplaşdırılan 48 ölkə iqtisadiyyatında payı**
***Mənbə:*** *GEM, 2021. "2019\2020 Ailə Biznesi Hesabatı"*

**Avropa və Şimali Amerika** regionunu təmsil edən ölkələr digər bölgələrlə müqayisədə ailə əsaslı bizneslərin ümumi sahibkarlıqda ən aşağı pay sahibi olması ilə seçilirlər. Bu regionda qruplaşan ölkələrin iqtisadiyyatında ailənin iştirak səviyyəsi 54% (Türkiyə) ilə 90% (Polşa) arasında dəyişir. Rusiyada müvafiq göstərici 72 faiz olduğu halda, Bolqarıstanda bu nisbət 85 faiz həddinə çatır (GEM, 2021). Ümumiyyətlə qeyd eləyə bilərik ki, Avropa ölkələrində ailə bizneslərinin roluna dair araşdırmalar və müvafiq olaraq onların sosial-iqtisadi inkişafda payına dair məlumatlar digər bölgələrlə müqayisədə çoxluq təşkil edir.

Alman Sənaye Federasiyasının məlumatına görə isə ailə müəssisələri işəgötürənlər və ənənələri dərk edən yenilikçilər kimi Almaniya iqtisadiyyatına və alman sənayesinə böyük töhfə verir. Ailə biznesləri bir və ya daha çox ailənin sahib olduğu şirkətlər olaraq təyin olunur, "ailənin nəzarətində olan" və "ailənin rəhbərlik etdiyi" müəssisələr kimi fərqləndirilir. Ailə tərəfindən idarə olunan müəssisələrdə, iki fiziki şəxsə və ya onların ailə üzvlərinə şirkətin səhmlərinin ən azı 50 faizi məxsus olur. Ailənin idarə etdiyi müəssisələrdə bu fiziki şəxslər şirkətin idarə edilməsində də iştirak edirlər. Bu əsas tərif iki aspektə diqqət yetirir:

1. Mülkiyyət forması həlledici əhəmiyyətə malikdir;

2. Müəssisənin idarə edilməsi çox vaxt sahibinin əlində olur.

Bu cəhətlər müəyyən tipik xüsusiyyətlərə səbəb olur. Sənayedə bir çox ailə müəssisəsi ikinci və ya üçüncü nəsillər tərəfindən idarə olunur. Səhmdarlar, onilliklər və ya hətta əsrlər boyu valideynlərinin, babalarının və ya nənələrinin qurduqlarını qorumaq və böyütmək istəyirlər. Bu, ailə müəssisələri ilə ictimai şirkətlər arasındakı həlledici fərqlərdən biridir: ailələr qısamüddətli gəlirdən daha çox uzunmüddətli sabitliyə üstünlük verirlər. Ailə biznesinin başqa bir əsas xarakterik cəhəti risk və məsuliyyətin paralel mövcudluğudur. Bu, ailə sahibkarlarını qərarların qəbulunda xüsusilə ehtiyatlı olmağa məcbur edir. Beləliklə, ailə müəssisələri qısa müddətdə qazanclarını artırmaqdan daha çox dayanıqlılığa əhəmiyyət verirlər. Müəssisələrin eyni şəxslərə məxsus olduğu və idarə edildiyi yerlərdə qərarlar daha çevik qəbul edilə bilir. Ailə biznesi sahibləri həmişə gələcək rübü yox, gələcək nəsli düşünürlər. Ən vacib qərar şirkətin ailədəki gələcək nəsillərə ən yaxşı şəkildə necə ötürülə bilməsidir. Bu da iş fəaliyyəti və biznes strategiyasına açıq şəkildə böyük təsir göstərir. Şirkətin uzunmüddətli varlığını təmin etmək üçün ardıcıl səylər ailə biznesinin əsas əlamətidir və onları bu qədər müvəffəqiyyətli edən də budur. 2020-ci ilin aprelinə olan tədqiqat nəticələrinə görə, ailələr tərəfindən nəzarət olunan şirkətlər Almaniya iqtisadiyyatında 91% paya sahibdir və onlar ölkədəki bütün şirkətlərin ümumi dövriyyəsinin 55%-ni və sorğu dövründə ümumi məşğulluğun 57%-ni təşkil edir (The Federation of German Industries (BDI), 2022). Aydındır ki, kiçik biznesin və özəl sahibkarlığın payının artması ilə ölkə iqtisadiyyatı inkişaf edir, əhalinin bu işə cəlb olunması isə sahibkarlığın tənzimlənməsi ilə məşğul olan qurumlar, digər dövlət təşkilatları və maliyyə institutları üçün həm mühüm vəzifələr qoyur, həm də onların məqsədlərini təcəssüm etdirir (Saidova, 2020). Bu baxımdan, Almaniyada ailə bizneslərinin məcmu sahibkarlıqda payının böyük olmasını eyni zamanda sahibkarlığın inkişafı sahəsində dövlət siyasəti ilə əlaqələndirmək olar. Sahibkarlığın inkişafı isə Almaniyada yüksək həyat səviyyəsinin və alman iqtisadiyyatının gücünün əsas drayverlərindən biri kimi qiymətləndirilməlidir.
GEM-in təqdim etdiyi hesabatda **Orta Şərq və Afrika regionunda** ailənin biznesdə iştirak payı ölkələrin ümumi sahibkarlıq aktivliyi səviyyəsinə görə dəyişir. Xüsusilə maraqlıdır ki, **Latın Amerikası və Karib dənizi ölkələri**ndə fəaliyyət göstərən sahibkarların dörddə üçü startap layihələrini ailənin iştirakı ilə həyata keçirirlər (GEM, 2021). Ümumi baxdıqda, Latın Amerikası ölkələrində sahibkarlıq subyektlərinin 90-98%-i ailə müəssisələrinə aid edilir və işçi qüvvəsinin 50-75%-i ailə şirkətlərində çalışır. Dəqiqləşdirmə aparsaq göstərə bilərik ki, Latın Amerikasının aparıcı ölkələrindən biri olan Meksika iqtisadiyyatında ailə biznesləri daha böyük paya sahibdirlər. Belə ki, dünyanın bir çox ölkələrində olduğu kimi, Meksikada da ailə biznesləri ÜDM-ə və məşğulluğa əhəmiyyətli şəkildə töhfə verir. Daha dəqiq desək, Meksikada özəl

sektora məxsus təxminən 5 654 014 biznes subyekti vardır ki, onların da təxminən 90%-i ailə bizneslərindən ibarətdir və milli işçi qüvvəsinin 90%-nin məşğulluğunu təmin edir (INEGI, 2018). Vurğulamaq lazımdır ki, Meksika iqtisadiyyatında davamlı olaraq çoxlu sayda yeni firmalar yaradılır və onlar da ailə üzvləri və ya böyük ailələr tərəfindən idarə edilirlər. Qeyd olunanlar Meksikada ailə mənsubiyyətinə söykənən sahibkarlıq subyektlərinin iqtisadi sistemdə böyük paya malik olmaqla yanaşı, inkişaf və genişlənmə perspektivlərinin mövcudluğundan da xəbər verir. Bu tendensiyanı tədqiqata cəlb edilən və ailə bizneslərinin məcmu sahibkarlıq fəaliyyətində böyük paya sahib olduğu bir çox ölkələrə də şamil etmək olar. Ona görə ki, təhlil edilən yüksək göstəricilər bu ölkələrdə böyük ailə biznesi təcrübəsinin olduğunu və eyni zamanda bu biznes növünün həmin cəmiyyətlərdə böyük populyarlıq qazandığını söyləməyə əsas verir. Belə nəticə çıxara bilərik ki, ailə biznesləri əksər ölkələrdə mövcud sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsini əhatə etsə də, inkişaf etməkdə olan ölkələrdə daha böyük paya sahibdirlər. Belə ölkələrdə ailələr tərəfindən yaradılan və ya idarə olunan müəssisələr məşğulluğun təmin olunmasında aparıcı rol oynayırlar. Bu da onunla əlaqədardır ki, həmin ölkələrdə yaşayan insanlar öz biznes fəaliyyətlərinə ailə üzvlərini də cəlb edirlər. Bununla onlar həm biznes xərclərini aşağı salır, həm də ailə üzvlərinin məşğulluğunu təmin edirlər. Beləliklə, ailə sahibkarlığı inkişaf etmiş ölkələrdə **zərurət motivləri** ilə sıx bağlıdır.

## 3. Azərbaycan ailə biznesləri

Beynəlxalq təcrübədə ailə bizneslərinin payını əks etdirən müvafiq statistik məlumatlar Azərbaycan üzrə mövcud olmasa da, ölkəmizdə ailə sahibkarlığı perspektivlərinin dünya ölkələri ilə müqayisəsini aparmaq üçün qeyd eləyə bilərik ki, 23.09.2016-cı il tarixli Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxsin yaradılması Azərbaycanda ailə bizneslərinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Açıq təqdim edilmiş məlumatlara əsasən ABAD tərəfindən ümumilikdə 533 ailə biznesinə dəstək verilmişdir və 2022-ci ildə ABAD-a üzv olan sahibkarların illik maliyyə dövriyyəsi 2,7 milyon manat təşkil etmişdir (ABAD, 2023). Əlbəttə ki, ABAD modeli uğurludur və ailə bizneslərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Ancaq nəzərə almaq lazımdır ki, ailə bizneslərinin heç də hamısı ABAD-ın xidmətlərindən istifadə etmir və Azərbaycanda bütün ailə bizneslərini əhatə edən vahid statistika yoxdur. Ancaq əvvəllər apardığımız araşdırmalara və dünyada geniş qəbul edilmiş ailə biznesi konsepsiyalarına əsaslanmaqla deyə bilərik ki, ölkəmizdə ailə sahibkarlarının sayı və milli iqtisadiyyata töhfələri daha böyükdür. Məsələn, müvafiq verilənlərin ilkin müayinəsi göstərir ki, konseptual yanaşmalara əsasən ailə biznesi meyarlarına uyğun gələn sahibkarlıq

subyektlərinin bir qismi rəsmi dövlət statistikasında ev təsərrüfatlarına dair statistikanın tərkibində yer almışdır. Bu o deməkdir ki, Azərbaycanda ailə bizneslərinin məcmu sahibkarlıqda payını və milli iqtisadiyyatda rolunu müəyyənləşdirmək üçün ayrıca empirik tədqiqata ehtiyac vardır.

**Nəticə**

Beynəlxalq təcrübənin təhlili və öyrənilməsi göstərir ki, ailə biznesləri geniş fəaliyyət sahəsinə sahib olmaqla dünyanın əksər ölkələrinin milli iqtisadiyyatında insanların məşğulluq səviyyəsinin yüksəldilməsində və davamlı iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayır. Bunun başlıca səbəblərindən biri ondan ibarətdir ki, ailə institutu cəmiyyətin özəyini təşkil etdiyi kimi, ailə üzvlərinin təşəbbüsü və ya hər hansı formada iştirakı ilə yaradılan bizneslər də qlobal miqyasda üstünlük təşkil edir və bir çox müsbət cəhətlərlə xarakterizə olunması onların daha da inkişafına təkan verir. Dünyanın müxtəlif regionlarında yerləşməsinə və əhalinin gəlirlərinə görə kəskin fərqlənməsinə baxmayaraq, ailə biznesləri tədqiq olunan ölkələrin iqtisadiyyatında mühüm rol oynayır, məcmu sahibkarlıq fəaliyyətində böyük paya sahibdir və bir çox hallarda isə əsas pay sahibidir.

Ailə biznesləri əksər ölkələrdə mövcud sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsini əhatə etsə də, inkişaf etməkdə olan ölkələrdə daha böyük paya sahibdirlər. Belə ölkələrdə, ailələr tərəfindən yaradılan və ya idarə olunan müəssisələr məşğulluğun təmin olunmasında aparıcı rol oynayırlar. Ailə sahibkarlığının imkişafında zərurət motivlərindən sonra digər ən mühüm amil bu bizneslərin tənzimlənməsində dövlət siyasəti ilə bağlıdır. Almaniya və Tayland kimi ölkələrdə ailə bizneslərinin surətli inkişafı buna nümunə ola bilər.

Bütün bunlar ailə bizneslərinin beynəlxalq təcrübəsinin tədqiqini və bəzi yanaşmaların ölkəmizdə tətbiqini olduqca aktual edir və əldə olunan nəticələr bu istiqamətdə daha geniş elmi araşdırmaların aparılmasına zəmin yaradır. Bununla belə, eyni və müxtəlif regionlarda yerləşən ölkələr üzrə oxşar və fərqli nəticələrin qeydə alınması və həmin ölkələrin əsas makroiqtisadi göstəricilərindən tədqiqatda istifadə olunmaması ailə biznesi ilə ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi arasında asılılığı qiymətləndirməyə imkan vermir. Buna görə də, növbəti tədqiqat zamanı müvafiq qiymətləndirmənin aparılması nəzərdə tutulur və beynəlxalq təcrübəyə əsaslanmaqla aşağıdakı təkliflərin reallaşdırılması tövsiyə olunur.

1. Ailə bizneslərinin sosial-iqtisadi inkişafa təsirlərinin müəyyənləşdirilməsi məqsədilə geniş empirik tədqiqatların aparılması;
2. Məcmu sahibkarlıq fəaliyyətində ailə bizneslərinin payını və milli iqtisadiyyatda rolunu müəyyənləşdirmək məqsədilə xüsusi empirik tədqiqatın aparılması;

3. Azərbaycanda ailə bizneslərinin makroiqtisadi göstəricilərini əks etdirən statistik məcmuənin hazırlanması.

**Ədəbiyyat**


1. Ahrens, J.-P., Uhlaner, L., Woywode, M., & Zybura, J. (2018). “Shadow emperor” or “loyal paladin”?-The Janus face of previous owner involvement in family firm successions” Journal of Family Business Strategy, 9(1), 73-90.
2. Aldrich, H.E., & Cliff, J. (2003). The pervasive effects of family on entrepreneurship: Toward a family embeddedness perspective. Journal of Business Venturing, 18(5): 573-596.
3. Bakracheva, M., Pavlov, D. and et al. (2020). The intergenerational family businesses as a stress management instrument for entrepreneurs (Volume 1). Ruse: Academic Publisher University of Ruse “Angel Kanchev”.
4. Basco, R. (2018), “Family business in emerging markets”, in Grosse, R. and Meyer, K.E. (Eds), The Oxford Handbook of Management in Emerging Markets, Oxford University Press, Oxford, pp. 527-546.
5. Carreon-Gutierrez, J. P., & Saiz-Alvarez, J. M. (2019). Opportunity Motivation and Growth Aspirations of Mexican Entrepreneurs: The Moderating Role of the Household Income. Sustainability, 11(22), 6288.
6. Davila, A., & Hartman, A. M. (2016). Tradition and Modern Aspects of Mexican Corporate Culture. Mexican Business Culture: Essays on Tradition, Ethics, Entrepreneurship and Commerce and the State. Jefferson, NC McFarland, 26-27
7. De Massis, A., Frattini, F., Majocchi, A., & Piscitello, L. (2018). Family firms in the global economy: Toward a deeper understanding of internationalization determinants, processes, and outcomes. Global Strategy Journal, 8(1), 3-21. https://doi.org/10.1002/gsj.1199
8. Dinh, T.Q. and Calabro, A. (2019), “Asian family firms through corporate governance and institutions: a systematic review of the literature and agenda for future research”, International Journal of Management Reviews, Vol. 21 No. 1, pp. 50-75.
9. Europea, C. Overview of Family-Business-Relevant Issues: Research, Networks, Policy Measures and Existing Studies; European Commission—Enterprise and Industry Directorate-General: Brussels, Belgium, 2009.
10. FFI. (2016). Global data points. http://www.ffi.org/page/globaldatapoints
11. Gagne, M., Marwick, C., Brun de Pontet, S., & Wrosch, C. (2021). Family business succession: What’s motivation got to do with it? Family Business Review, 34(2), 154-167.
12. GEM. (2021). “2019\2020 Family Business Report”.
13. Gonzalez, M., Guzman, A., Pablo, E. & Trujillo, M.A. (2019). Is board turnover driven by performance in family firms? Research in international Business and Finance, 48, 169-186.
14. https://europeanfamilybusinesses.eu/about-european-family-businesses/
15. INEGI. (2016). Resultados definitivos. Mexico City: INEGI. Retrieved from http://www.inegi.org.mx
16. INEGI. (2018). Resultados definitivos. Mexico City: INEGI. Retrieved from http://www.inegi.org.mx
17. Jennings, J., Eddleston, K., Jennings, D., & Sarathy, R. (2015). Introduction: a framework for studying the “double embeddedness” of business enterprising. In J. Jennings, K. Eddleston, D. Jennings, & R. Sarathy (Eds.), Firms within families: enterprising in diverse country contexts (pp. 1-12). Northampton, MA, USA: Edward Elgar Publishing.
18. Qafarov Ş, Rzayev R. Qlobal mühitdə biznes. Dərslik. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı”, 2017.-264 səh.
19. Musayev, Y. (2021). Development of Family Businesses In Karabakh Region of Azerbaijan: New Opportunities And Prospects. Economic and Social Development: Book of Proceedings, 449-458.

20. Rahman, Md. H., Galvan, R. S., & Martinez, A. B. (2017). Impact of Family Business on Economic Development: A Study of Spain’s Family-owned Supermarkets. Journal of Business and Management Sciences, 5(4), 129-138. https://doi.org/10.12691/jbms-5-4-4.
21. Saidova, M. J. (2020). Territorial issues of family business development in Andijan region. Экономика и социум, (7 (74)), 51-54.
22. San Martin, J. & Duran, J. (2016). Sucesion y su relacion con endeudamiento y desempeno en empresas familiares. Contadurнa y Administraciуn 61, 41-57.
23. Siakas, K., Naaranoja, M., Vlachakis, S., & Siakas, E. (2014). Family businesses in the new economy: How to survive and develop in times of financial crisis. Procedia Economics and Finance, 9, 331-341.
24. The Federation of German Industries (BDI). (2022). Family businesses-their defining characteristics.
25. Vazquez, P., Carrera, A., & Cornejo, M. (2020). Corporate governance in the largest family firms in Latin America. Cross Cultural & Strategic Management.
26. Velez-Ocampo, J., Govindan, K., & Gonzalez-Perez, M. A. (2017). Internationalization of Mexican family firms: the cases of Xignux and Grupo Alfa. Review of International Business and Strategy
27. Villalonga, B., Amit, R., Trujillo, M.A., & Guzman, A. (2015). Governance of Family Firms. Annual Review of Financial Economics, 7(1), 635-654.
28. ABAD. (2023). https://abad.gov.az/open-informations

# AZƏRBAYCANDA İDARƏETMƏ UÇOTUNUN MÖVCUD PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

*Daxil olub: 22 iyul 2023-cü il*
*Qəbul olunub: 3 oktyabr 2023-cü il*
*Received: 22 July 2023*
*Accepted: 3 October 2023*

***Günay Əsədova***
*doktorant, UNEC*
*gunay.asadova30@gmail.com*

**Xülasə**

Tədqiqatın məqsədi respublikanın təsərrüfat subyektlərində idarəetmə uçotunun müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir. Bu istiqamətdə istər respublika, istərsə də xarici ölkə mütəxəssislərinin idarəetmə uçotunun mahiyyəti və məzmunu ilə əlaqədar müxtəlif yanaşmaları araşdırılmış, mühasibat uçotu sisteminin tərkib hissəsi kimi idarəetmə uçotunun istehsalat uçotu, strateji uçot və kontrolinqlə oxşar və fərqli tərəfləri, eləcə də bu sahədə onun beynəlxalq prinsiplərə uyğunluğu qiymətləndirilmişdir. Bunlarla yanaşı, məqalədə idarəetmə uçotunun beynəlxalq təcrübəsində geniş yer almış xərclərin təsnifləşdirilməsi, qruplaşdırılması, onların formalaşması yerləri və məsuliyyət mərkəzləri üzrə bölüşdürülməsi metodlarının, eləcə də maya dəyərinin kalkulyasiyası metodlarının – standart-kost və direct-kostinq sisteminin respublikanın uçot praktikasında tətbiqinin mümkünlüyü dəyərləndirilmişdir.

**Açar sözlər:** *mühasibat uçotu, idarəetmə uçotu, istehsal uçotu, kontrolinq, biznes-model, menecment.*

# PROBLEMS OF MANAGEMENT ACCOUNTING IN AZERBAIJAN AND DEVELOPMENT PROSPECTS

***Günay Əsədova***
*PhD student, UNEC*
*gunay.asadova30@gmail.com*

**Abstract**

The purpose of the study is to assess the current provisions for the application of management accounting in the economic entities of the republic and determine the ways to improve it. In this direction, different approaches have been considered in relation to the essence and content of management accounting by local and foreign specialists, and general and differences in management accounting, as an independent area of accounting with production, strategic accounting and controlling, as well as compliance with international principles of management accounting have been

evaluated . Along with this, the possibilities of adapting the order of classification and grouping of expenses, methods of distributing it according to the place of formation and centers of responsibility, as well as such costing methods as standard cost and direct costing in the practice of domestic accounting, which are widely used abroad, are evaluated.

***Keywords:*** *accounting, management accounting, production accounting, controlling, business model, management.*

## ПРОБЛЕМЫ УПРАВЛЕНЧЕСКОГО УЧЕТА В АЗЕРБАЙДЖАНЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

***Гюнай Асадова***
*докторант, UNEC*
*gunay.asadova30@gmail.com*

**Резюме**
Целью исследования является оценка современных положений применения управленческого учета в хозяйственных субъектах республики и определения пути его совершенствования. В этом направлении рассматриваются разные подходы республиканских и зарубежных специалистов в отношении сущности и содержания управленческого учета, общие черты и различия управленческого учета, как самостоятельного направления бухгалтерского учета, с производственным, стратегическим учетом и контроллингом, а также соответствия международным принципам управленческого учета. Наряду с этим, оцениваются возможности адаптации, порядок классификации и группировки расходов, методы распределения его по месту формирования и центров ответственности, а также таких методов калькуляции себестоимости, как стандарт-кост и директ-костинг в практике отечественного учета, которые широко применяются за рубежом.

***Ключевые слова:*** *бухгалтерский учет, управленческий учет, производственный учет, контроллинг, бизнес-модель, менеджмент.*

## Giriş

İdarəetmə uçotunun əsas məqsədi əsaslandırılmış idarəetmə qərarının qəbul edilməsinin mümkünlüyünün təmin edilməsi üçün təşkilatın fəaliyyəti və kənar mühit haqqında təşkilatın və struktur bölmələrin rəhbərliyinə və mütəxəssislərə plan, faktiki və proqnoz informasiyanın təqdim edilməsidir. Qeyd etmək lazımdır ki, idarəetmə

uçotunun mahiyyətinin dərk edilməsində, onun nəzəriyyəsinin işlənməsində praktiki fəaliyyət növü kimi istehsalın yaranma dövrünü müəyyən etmək, əsasən maliyyə məzmunu və istiqamətindən fərqli olaraq istehsalat fəaliyyətinin şərtlənməsinə təsir göstərən amil kimi onun yaranması şərtləri, problemləri və inkişaf istiqamətlərini nəzərdən keçirmək vacibdir.

**İdarəetmə uçotunun mahiyyəti və iqtisadi məzmunu**

Vurğulamaq lazımdır ki, "idarəetmə uçotu" anlayışının vahid tərifi yoxdur və bu sahədə iqtisadçı alimlərin yanaşmaları müxtəlifdir. Aparıcı mütəxəssislər və praktiklər mühasibat informasiya sistemində idarəetmə uçotunun rolu və yeri, onun məqsədi və vəzifələri, dövlət tənzimlənməsinin məqsədəuyğunluğu, müstəqil idarəetmə hesablarının qurulması haqqında müxtəlif fikirlər irəli sürürlər. Belə ki, bəzi alimlər idarəetmə uçotunu istehsal uçotu kimi qələmə verərək birincinin müstəqil sistem kimi fərqləndirilməsinin əleyhinə çıxış edirlər. Belə ki, Y.V.Sokolov idarəetmə uçotunu maliyyə uçotu ilə müqayisə olunması şərti kimi qəbul edilmiş fərqi inkar edərək belə bir fikir irəli sürür ki, "Sovet hakimiyyəti illərində bütün mühasibat uçotu sistemi reqlamentləşdirilmişdi. Bu o deməkdir ki, o, bütövlükdə maliyyə uçotuna adekvat olmuşdur. Hazırda xərclərin uçotu və kalkulyasiyası vahid mühasibat uçotundan ayrılmış və bütün bu problematikanı idarəetmə uçotu adlandırırlar". Y.V.Sokolovun fikrinə görə, idarəetmə uçotu ilk növbədə əsas istehsalın analitik uçotu, xərclərin kalkulyasiyası, müəssisə agentlərinin xərclərinin qeyd olunması, ikincisi, əsasən təsərrüfat fəaliyyətinin perspektiv təhlilidir. Müstəqil elmi-praktiki istiqamət kimi idarəetmə uçotunun meydana gəlməsi səhvdir. Alimin fikrincə, terminin ingilis dilindən (management accounting) düzgün tərcümə edilməmişdir. O öz fikrini belə tamamlayır: "İdarəetmə uçotu mifdir, ona həqiqət kimi inanırlar, lakin onda həqiqət yoxdur [13].

Digər qrup alimlər, əksinə, idarəetmə uçotu ilə istehsal uçotu arasında fərqlərin mövcud olduğunu iddia edirlər. Belə ki, S.S.Satubaldin iddia edir ki, "idarəetmə uçotu məmulat növləri və məsrəflərin məsuliyyət mərkəzləri və ya mənfəət mərkəzləri üzrə xərclərin təsnifləşdirilməsi, yazılışların tərtibi, maya dəyərinin müəyyən olunması, xərclər haqqında smeta və hesabatın tərtib edilməsi, optimal idarəetmə qərarlarının seçilməsi və qəbul edilməsi məqsədi ilə rəhbərlik üçün informasiyanın hazırlanması ilə əlaqədardır [4]. Qeyd olunan fikirlərin mahiyyəti onu xarakterizə edir ki, idarəetmə uçotu hazırkı və gələcək istehsal xərclərinin uçotu və təhlilini özündə birləşdirir. İdarəetmə uçotunun belə konsepsiyası onun bir sıra mühüm funksiyalarını nəzərə almadığından onun məzmununu daraldır.

V.F.Paliy və S.A.Nikolayevanın idarəetmə uçotunun məzmununa yanaşması əvvəlki fikirlərlə ziddiyyət təşkil etmir, lakin həmin alimlərin konsepsiyalarında idarəetmə uçotunun təşkilatın şirkətdaxili idarə edilməsi ilə əlaqəsinə daha çox yer verilmişdir.

Belə ki, V.F.Paliyə görə “İdarəetmə uçotu uçot çərçivəsindən çıxır. O, təsərrüfatdaxili idarəetmənin kompleks metodudur, keçmişdə məlum ölkə təsərrüfatdaxili hesabdır”. Mahiyyət etibarı ilə, o, “bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmış təsərrüfatdaxili metodların yeni oxunuşudur” [11, s.60]. S.A.Nikolayevaya görə, idarəetmə uçotu planlaşdırma, uçot, nəzarət, müxtəlif operativ idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruri analitik kəsiyində gəlirlərin, xərclərin və təsərrüfat fəaliyyətinin nəticələrinin təhlili sistemidir [10].

M.A.Vaxruşina, N.P.Kondrakov idarəetmə uçotunu mühasibat uçotunun istiqaməti kimi nəzərdən keçirirlər, onların fikrinə görə, o, müəssisənin fəaliyyətinə nəzarət və idarəetmə məqsədi ilə idarəetmə apparatına lazım olan informasiyaların toplanması, qeydiyyatı, işlənməsi (emalı), ümumiləşdirilməsi və təqdim olunması sistemini özündə ehtiva edir. Burada müəlliflər məhz “uçot” sözünü vurğulayırlar [4; 6].

Müasir elmi nəşrlərdə idarəetmə uçotu və kontrolinqin mahiyyəti, oxşarlığı, fərqləri haqqında diskusiyalara rast gəlinir. Kontrolinq sahəsində xarici mütəxəssislərin tədqiqatlarının təhlili çərçivəsində demək olar ki, kontrolinqin tərifi bütövlükdə idarəetmə uçotunun müasir konsepsiyasına yaxındır. Uçot sahəsində məşhur rus alimi V.B.İvaşkeviç idarəetmə uçotunu kontrolinqə əks qoymadan operativ idarəetmə uçotu və kontrolinq, strateji uçotla kontrolinq arasında paralellər apararaq qeyd edir: “Strateji uçot və kontrolinq  üzvi şəkildə idarəetmə uçotu sisteminə daxildir, birincisi, ona görə ki, şirkətin idarə olunması üçün nəzərdə tutulmuşdur, ikincisi, idarəetmə məqsədi ilə vahid cari, qeyri-strateji uçot üçün xərc və nəticə artımına, marjinal gəlir, fəa-liyyətin seqmentləri üzrə uçot və s. istiqamətlənmiş üsul və metodlardan istifadə olunur. Bununla yanaşı, burada iqtisadi-riyazi modellərdən, proqnozlaşdırma, diskontlaşdırma metodlarından və bu qəbildən digər vasitələrdən istifadə olunur” [5, s.43].

Fikrimizcə, bu mövqe qəbul ediləndir, müəssisənin idarə olunmasında uçotun, informasiya təminatının, nəzarət və sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsinin kəsişməsində həm kontrolinqin, həm də idarəetmə uçotunun xüsusi yeri vardır. Onlar həmin funksiyaları bir-biri ilə sıx bağlayır, onları inteqrasiya edir və əlaqələndirir, müəssisənin idarə olunmasını keyfiyyətcə yeni səviyyəyə keçirir. Kontrolinq və idarəetmə uçotu ənənəvi uçot sisteminin müəssisədə qərar qəbul edən vəzifəli şəxslərin informasiya təminatına adaptasiyasını təmin edir, planlaşdırma, nəzarət və tənzimləmə proseslərini əlaqələndirir. Deyilənlərə rəğmən, kontrolinqin funksiyaları – uçot, planlaşdırmanı gücləndirmək, planların həyata keçirilməsinə nəzarət, proseslərin qiymətləndirilməsi, kənarlaşmaların, onların səbəblərinin müəyyən olunması və həmin səbəblərin aradan qaldırılması istiqamətində rəhbərlik üçün təkliflərin hazırlanması, uçot metodunun, bütövlükdə müəssisənin, eləcə də onun struktur bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün meyarların seçilməsi və ya işlənib hazırlanması idarəetmə uçotunun funksiyaları ilə tam üst-üstə düşür. Kontrolinq və idarəetmə uçotunun ümumi vəzifələrin həlli təhlilin

eyni üsul və metodlarından istifadə etməklə həyata keçirilir. Hər iki halda xərclərin səviyyəsi ilə müəyyən qərar, layihə, sifariş və s. arasında səbəb-nəticə əlaqələri ön planda gedir, hər iki sistem xərclərin uçotu və kalkulyasiyasına vahid yanaşmadan və eyni növ elementlərdən - smeta planlaşdırmasından - büdcələşdirmədən, icraçıların fəaliyyətinin vəzifələri və motivasiyalarının bölgüsünə istinad edən idarəetmə nəzarətindən, marjinal gəlirin hesablanmasına əsaslanan idarəetmə təhlilindən, daxili hesabatın tərtib edilməsindən istifadə edir. İdarəetmə uçotunun prinsipləri operativlik, səmərəlilik və informasiyanın məxfiliyi, sistemin çevikliyi və proqnozlaşdırma, məsuliyyətin uzlaşdırılması, kənarlaşmalar üzrə idarəetmə və s. kontrolinqə də xasdır [4; 14]. Beləliklə, bəzi müəlliflər, idarəetmə uçotu ilə kontrolinqin ümumiliyindən bəhs edirlər.

Bu qrup müəlliflərin fikirlərinə görə, bu iki sistem tam eyni deyildir, onlardan hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. Belə ki, sonrakı təhlil və nəzarəti nəzərdə tutan idarəetmə uçotundan fərqli olaraq kontrolinq ilkin təhlilə üstünlük verir. Bu zaman qarşıya qoyulmuş məqsədə nail olmağın müxtəlif variantları nəzərdən keçirilir və qiymətləndirilir, proqnoz və planlar hazırlanır, bütün idarəetmə xidmətlərinin informasiya təminatı sistemi yaradılır. İdarəetmə uçotundan fərqli olaraq kontrolinqdə daha çox xərclərinn əsaslı olmasının qiymətləndirilməsinə, xərclər və nəticələr arasında səbəb-nəticə əlaqələrinin axtarılması, xərclərə və gəlirlərə görə məsuliyyət dərəcəsinin müəyyən edilməsinə diqqət verilir [2; 14]. Beləliklə, bu qrup alimlər idarəetmə uçotunu kontrolinqin məqsədlərinə çatmaq mexanizmi kimi səciyyələndirirlər: a) idarəetmə uçotu kontrolinqin tərkib hissəsidir; b) kontrolinq yalnız idarəetmə qərarlarının qəbul olunması üçün informasiyaların formalaşdırılması üsulu deyil, eyni zamanda idarəetmə sistemidir.

Vurğulamaq yerinə düşər ki, idarəetmə uçotu əksər ölkələrin müəssisələri tərəfindən çox zəif mənimsənilmişdir. Belə ki, ixtisaslı kadrların, müasir proqram məhsullarının çatışmazlığı, bəzi hallarda şirkətlərdə menecment problemi həllinin vacibliyi başa düşülmür. Mühasibat uçotunun vergi uçotu ilə yaxınlaşması fonunda idarəetmə uçotu (əgər o, təşkilatda aparılırsa) "ölməz" mühasibat uçotunun davamı kimi nəzərdən keçirilir.

Beynəlxalq meyillərin təhlili göstərir ki, idarəetmə uçotunun növ dəyişikliyi kənar maliyyə hesabatı sahəsində qlobal dəyişikliklər kontekstində, məhz onun stabil inkişaf haqqında hesabata və konsolidə edilmiş (интегрированную) hesabata transformasiyası zamanı baş verir. Məlumdur ki, beynəlxalq mühasiblər cəmiyyəti bu sahədə standartların hazırlanması üzrə böyük səylər göstərir.

Konsolidə edilimiş hesabatın məqsədi menecmentin şirkətin gələcək pul axınlarını təmin edən altı növ kapitalına (maliyyə, istehsal, insan, intellektual, təbii və sosial) təsirinin xarakterini açmaqdır. O, şirkətin investisiya cəlbediciliyini nəzərəçarpacaq dərəcədə artıra, investorları yalnız maliyyə sferasında deyil, eyni zamanda sosial və ekoloji sferada şirkətin cari və gələcək risklərini açıqlayan şəffav informasiya ilə təmin edə bilər. Stabil inkişaf haqında hesabatın və konsolidə edilimiş hesabatın hazırlanması

şirkətin fəaliyyətinin (o cümlədən sosial və ekiloji sferada) qeyri-maliyyə göstəricilərinin necə qiymətləndirilməsi məsələsinin həll edildiyi zaman mümkündür. Qeyri-maliyyə göstəricilərinin qiymətləndirilməsinin metrik sisteminin və metodikalarının işlənib hazırlanması həmin növ hesabatların formalaşmasının əsas vəzifələrini və mürəkkəbliyini səciyyələndirir. Belə şəraitdə informasiya baxımından maliyyə uçotu məlumatlarını tamamlayan idarəetmə uçotu sisteminin rolu obyektiv olaraq artır.

Fikrimizcə, maliyyə və qeyri-maliyyə hesabatlarını birləşdirən göstəricilər sisteminin, informasiyaların əldə olunması metodlarının, konsolidə edilimiş hesabatın hazırlanması prosesində idarəetmə uçotunun yeri və rolu ilə bağlı bəzi iqtisadçıların fikirləri ilə razılaşmaq olar [7; 12]. Aydındır ki, idarəetmə uçotu yaxın perspektivdə stabil inkişaf haqqında hesabatın və konsolidə edilimiş hesabatın hazırlanmasının, eləcə də onların etibarlı informasiya bazası üçün zəruri olan məlumatların daxil olmasının mühüm kanalı olmalıdır. Xarici mütəxəssislərin fikrincə, müasir idarəetmə uçotunun mahiyyəti, məqsədləri və məzmununun dəqiqləşdirilməsi zərurəti yaranmışdır. İdarəetmə uçotu sahəsində Andlı Mühasiblər İnstitutunun (Chartered Institute of Management Accountants, CIMA) Amerika Diplomlu Mühasiblər Institutu (American Institute of Certied Public Accountants, AICPA) ilə birlikdə hazırladıqları və nəşr etdirdikləri diskussiya xarakterli İdarəetmə Uçotunun Beynəlxalq Prinsipləri (Global Management Accounting Principles) həmin məsələlərin həllinə istiqamətlənmişdir [9]. Həmin prinsiplər, yaradıcılarının fikrinə görə, idarəetmə uçotunun müasir biznes strukturların idarə olunmasının strateji vəzifələrinin, eləcə də kənar maliyyə hesabatının tərtib edilməsi ilə əlaqədar vəzifələrin həlli üçün zəruri keyfiyyət səviyyəsinə yüksəltməlidir.

Nəşr olunan sənədin əsasını təşkilatların biznes modeli təşkil edir ki, idarəetmə uçotu üzrə mütəxəssislər onun haqqında biliklərə malik olmalıdır. Sənəddə idarəetmə uçotu sisteminin hər bir təşkilatın biznes modelinin əsasını təşkil etməli olduğu və onlar arasında qırılmaz əlaqənin mövcudluğu qeyd olunmuşdur. İdarəetmə uçotu üzrə mütəxəssisin mühüm kompetensiyaları sənəddə aşağıdakı kimi müəyyən edilmişdir:

1) qərarın qəbul edilməsi üçün zəruri olan məlumatların toplanması və təhlili;
2) müəssisənin inkişafı üzrə təkliflərin hazırlanması;
3) müəssisənin inkişafının səmərəli təqdim olunması.

Ekonomist Intelligence Unit qrupunun 2005-ci ildə apardığı tədqiqat göstərir ki, 50 rəhbərin fikrincə, şirkətin çiçəklənməsi üçün innovasiyalı biznes model innovasiyalı məhsul və xidmətlərdən mühümdür. 2008-ci ildə IBM şirkətinin korporasiya rəhbərləri arasında apardığı sorğu oxşar nəticələri vermişdir - konyunkturun dəyişməsi şəraitində biznes model stabilliyin mühüm amili hesab olunmuşdur [8]. Fikrimizcə, biznes modelin səmərəliliyinin əsas meyarı şirkətin dəyərini qoruyub saxlamaq və artırmaqdır. Şirkətin uğurlu biznesinin məntiqi və metodunu əks etdirərək biznes model idarəetmə uçotu informasiyalarına ehtiyac duyur.

